ŞAİR

Mövzularmı yoxa çıxdı,
duyğularmı tükəndi,
Bəlkə, daha deyiləsi
sözü yoxdur şairin.
Ürəyin qapıları
gözəlliyə bağlanıb,
Bəlkə, daha görmək üçün
gözü yoxdu şairin.

Yüzilliklər, minilliklər gəlib-
keçir aradan,
Zaman özü bircə-bircə seçir
ağı qaradan.
Hər şairə öz yanında yer göstərmir
Yaradan,
O dərgahda biri varsa, yüzü yoxdur
şairin.

İlham dağın çeşməsidir,
söz çəmənin çiçəyi,
Haqdan gəlsə solan deyil,
sözün bircə ləçəyi.
Bəndə ilə danışmağa yoxsa
dili, dilçəyi,
Allah ilə görüşməyə üzü
yoxdur şairin.

BU YAŞIL AĞACIN ALTI BİZİMDİ

Kök üstə budağı neçədi bildim,
Budaqda yarpağı neçədi bildim.
Salxımı, saçağı neçədi, bildim,
Bu yaşıl ağacın altı bizimdi.

Saçağı tərpənir tellərin kimi,
Yarpağı oynaşır əllərin kimi,
Düyməsi açılıb dillərin kimi,
Bu yaşıl ağacın altı bizimdi.

Bu sevgi, bu layla, bu beşik bizim,
Çəkər növbəmizi bu keşik bizim.
Nəyimizə lazım ev-eşik bizim,
Bu yaşıl ağacın altı bizimdi.

Su içər sevginin kökü ömürdən,
Sevgi əl üzməsin təki ömürdən.
Xoş bir xatirədi iki ömürdən,
Bu yaşıl ağacın altı bizimdi.

Könlümüz havalı, gözümüz də ac,
Gəncliyin havası başımızda tac.
Bir sənsən, bir mənəm, bir yaşıl ağac,
Bu yaşıl ağacın altı bizimdi.

Atəş Allahındı, isti Allahın,
Ocaq Allahındı, tüstü Allahın.
Bu yaşıl ağacın üstü Allahın,
Bu yaşıl ağacın altı bizimdi.

Dən kimi səpələ, toxum kimi ək,
Zəlimxan, bu anın ləzzətini çək.
Hələ bizdən sonra çoxu deyəcək,
Bu yaşıl ağacın altı bizimdi.

SUAL-CAVAB

– Günəş nə vaxt doğur? – Üzün güləndə,
– Dan nə vaxt sökülür? – Sözün güləndə.
– Cəhənnəm nə zaman cənnətə dönür?
– Qəlbin sevinəndə, gözün güləndə!

– Bahar nə vaxt gəlir? – Buz əriyəndə,
Qar dağda gec qızıb, tez əriyəndə.
– Oğlan ürəyinə od nə vaxt düşür?
– Qızın dodağında söz əriyəndə!

HAKİM OL, DİLİMƏ GÜLLƏLƏNMƏ KƏS

Sənə sözüm dəydi, dilim toxundu,
Dilim sənin olsun, doğra, kəs, gözəl.
Qorxuram, sən Allah, qeybət olmasın,
Səndən qulağıma gələn səs, gözəl.

Min dəfə doğulub ölmüşəm azı,
Sənə kim öyrədib bu qədər nazı?
Gəl eyni kök üstə kökləyək sazı,
Səndə zil olmasın, məndə pəs, gözəl.

Yurdum zindan olsa, yuvam dar qəfəs,
Yenə səninkidir çəkdiyim nəfəs.
Hakim ol, dilimə güllələnmə kəs,
Yerim ya dar olsun, ya məhbəs, gözəl.

GÖZƏLDİ

Bir gözəldə min gözəllik cəmlənib,
Duruşu da, ədası da gözəldi.
Sularında üzüb gedən qəvvasam,
Dalğası da, adası da gözəldi.

Özü nurdan, sözü haqdan gəlibdi,
Şahımızdı, enib taxtdan gəlibdi,
Qulaqlara səsi çoxdan gəlibdi,
Bizə çatan sədası da gözəldi.

Göy üzündə durnaları saxladıb,
Yer üzündə qayaları laxladıb,
Zəlimxanın anasını ağladıb,
Mənə gələn qadası da gözəldi.

SƏNİ SEVMƏK ÜÇÜN GƏLDİM DÜNYAYA

Çöldə çiçək oldum, çəməndə naxış,
Şimşəkdə od oldum, buludda yağış.
Sirli bir göz gördüm, nurlu bir baxış,
Çevrildim çeşməyə, qarışdım çaya,
Səni sevmək üçün gəldim dünyaya.

Mən min il əvvəl də gələ bilərdim,
Min ildən sonra da ölə bilərdim.
Zamanı başqa cür hesablayardım,
Vaxtı başqa cürə bölə bilərdim.
Düşüb sən doğulan həftəyə, aya,
Səni sevmək üçün gəldim dünyaya.

Səsini eşitdim, səsdən səs aldım,
Şaqraq gülüşündən güc, həvəs aldım.
Sən nəfəsim oldun, mən nəfəs aldım,
Muştuluq verdilər Günəşə, Aya,
Səni sevmək üçün gəldim dünyaya.

Neçə dinsizləri dinə gətirdim,
Qorudum, sünbülü dənə gətirdim.
Könlümdə nə varsa, sənə gətirdim,
Mənim yollarımı kəsə bilmədi
Nə sərhəd, nə dəmir, nə daş, nə qaya,
Səni sevmək üçün gəldim dünyaya.

Məcnun da, Kərəm də, Fərhad da mənəm,
Məcnuna, Fərhada qanad da mənəm.
Ölüm də, sevgi də, həyat da mənəm,
Şükür Yaradanın verdiyi paya,
Səni sevmək üçün gəldim dünyaya.

SEVƏRMİŞ

İnsan oğlu vurulanda dünyaya,
Yeri-göyü, dağı-daşı sevərmiş.
Zaman onu ağlatsa da, gülərmiş,
Gözlərindən axan yaşı sevərmiş.

Eşq adama göydən nazil olarmış,
Kimi xoşbəxt, kimi rəzil olarmış.
Biri yaqut, biri qızıl olarmış,
Qaş üzüyü, üzük qaşı sevərmiş.

Alışarsan, eşq içini ovanda,
Qapılardan səhralara qovanda.
Hünərin var dəli olma sevəndə,
Leyli gedib ağlı çaşı sevərmiş.

Canlar gedib bir cananın yolunda,
İllər qurban bircə anın yolunda.
Ay Zəlimxan, hər sevdanın yolunda
Dərd ürəyi, ağrı başı sevərmiş.

DƏLİ OLMAĞIMA BİR ADDIM QALIB

Bilmirəm heç nəyi, lələ, bilmirəm,
Mən kiməm, nəçiyəm, hələ bilmirəm.
Getmişəm, özümə gələ bilmirəm,
Dəli olmağıma bir addım qalıb.

Ömrümün bu yaşda nağılına bax,
Nağıldı, ay Allah, nağıl, ona bax.
Ağılsız eşqimin ağılına bax,
Dəli olmağıma bir addım qalıb.

Əl açar, sevginin əli utanmaz,
Xırmanı iş görər, vəli utanmaz.
Yiyəsi utanar, dəli utanmaz,
Dəli olmağıma bir addım qalıb.

Bilmirəm heç neçə yaşındayam mən,
Eşqin iştahında, aşındayam mən.
Uçrumun, yarğanın qaşındayam mən,
Dəli olmağıma bir addım qalıb.

İşarə yıxacaq, him aparacaq,
Əlimi saz yeyib, sim aparacaq.
Məni evimizə kim aparacaq?
Dəli olmağıma bir addım qalıb.

Məcnun dərs oxuyub – kitabı Leyli,
Məcnun sərxoş olub – şərabı Leyli,
Məcnun dərdə düşüb – əzabı Leyli,
Dəli olmağıma bir addım qalıb.

Gülməsin bu halda məni görənlər,
Tər çiçək nədirsə, bilir dərənlər.
Ayılın, ay mənə ağıl verənlər,
Dəli olmağıma bir addım qalıb.

Görüş sevincindi, həsrət ahındı,
Sevənlər sevgili bir dərgahındı.
Zəlimxan, mən kiməm, hökm Allahındı,
Dəli olmağıma bir addım qalıb.

BİR BAYATI SƏNSƏN, BİR BAYATI MƏN

Mənə can desən də, canım yox daha,
Bir ruha, nəfəsə dönən çağımdı.
Bahar buluduyam, səhər mehiyəm,
Kövrələ-kövrələ dinən çağımdı.

Sevgi nə, sevmək nə, sirrini qandım,
Sevdalar yolunda yatdım, oyandım.
Dodaqdan yanağa çıxdım, dayandım,
Dodaqdan buxağa enən çağımdı.

Bir bayatı sənsən, bir bayatı mən,
Bağrıma basıram bu həyatı mən.
Tamam yandırardım Kainatı mən,
Yaxşı ki, səngiyən, sönən deyiləm.

BU AXŞAMI SƏN GƏTİRDİN

Ömrümüzün səhərləri, axşamları çox,
Çiçək-çiçək ulduzları, ağ şamları çox.
Axşamlara işıq verən adamları çox,
Bu axşamı sən gətirdin mənim ömrümə.

Bara döndü, budaqları əydi bu axşam,
Min səhərin ləzzətinə dəydi bu axşam.
Bir gözələ könül vermiş bəydi bu axşam,
Bu axşamı sən gətirdin mənim ömrümə.

Arı qonar, çiçəklərin şəhdini əmər,
Bahar adlı fəslə çatar muştuluq, nəmər.
Barmağında üzük oldum, belində kəmər,
Bu axşamı sən gətirdin mənim ömrümə.

Qara saçlar, qara tellər, qara hörüklər,
Bir dəmirçi kürəsitək qəlbi körüklər.
Qəlbə hopar, qana keçər, cana yeriklər,
Bu axşamı sən gətirdin mənim ömrümə.

Suyu duru, havası saf, çeşməsi sərin,
Sözü şəkər, söhbəti bal, sevgisi dərin.
Kölgəsində sığınmışıq gözəlliklərin,
Bu axşamı sən gətirdin mənim ömrümə.

At oxunu, qaşlarının yayı çox olsun,
Səni verən Yaradanın payı çox olsun,
Belə-belə axşamların sayı çox olsun,
Bu axşamı sən gətirdin mənim ömrümə.

BU QIZ NİYƏ HAVALANIB GÖRƏSƏN

Görünməmiş bir sənətmi yaradıb,
Bu qız niyə havalanıb görəsən?
Cəhənnəmdə bir cənnətmi yaradıb,
Bu qız niyə havalanıb görəsən?

Oda düşmüş, odu almır eyninə,
Odmu düşüb ürəyinə, beyninə?
Yer üzünü alıb gedir çiyninə,
Bu qız niyə havalanıb görəsən?

Göynən gedir, yerə dəymir ayağı,
Asimanda uçur mələk sayağı.
Elə bil ki, budu ərşin dayağı,
Bu qız niyə havalanıb görəsən?

Dodaq qaçır, göz gülür, üz oxuyur,
Seyrə çıxıb, bir susur, yüz oxuyur.
Zalım qızı gecə-gündüz oxuyur,
Bu qız niyə havalanıb görəsən?

Gül koludu, budağını əymirəm,
Dəymə deyir, toxunmuram, dəymirəm.
Havalıdı, havasından doymuram,
Bu qız niyə havalanıb görəsən?

Harda qurub dəyəsini bilmədim,
Sahibini, yiyəsini bilmədim.
Neylədimsə, niyəsini bilmədim,
Bu qız niyə havalanıb görəsən?

Nə amana fikir verir, nə aha,
Mən qul oldum, o çevrilib bir şaha.
Bəlkə, təzə qohum olub Allaha,
Bu qız niyə havalanıb görəsən?

Məni gördü gah gündə, gah kölgədə,
Ucbatından rüsvay oldum ölkədə.
Günahkarı Zəlimxandı bəlkə də,
Bu qız niyə havalanıb görəsən?

"SARITEL" OXUYAN QARATEL GÖZƏL

Sən Günəş nurusan, qar işığısan,
Yerdə yer, göydə göy yaraşığısan.
Sarıyla qaranın qarışığısan,
"Sarıtel" oxuyan qaratel gözəl.

Məni ovlamaqçün çıxmısan ova,
Yenə od vurursan çaxmağa, qova.
Bir yandan sən yandır, bir yandan hava,
"Sarıtel" oxuyan qaratel gözəl.

Qaşın nişan verdi, gözün himlədi,
Ovsuna mən düşdüm, yaram simlədi.
Məni saz bağladı, söz tilsimlədi,
"Sarıtel" oxuyan qaratel gözəl.

Bu qəmli havadı, bu şən havadı,
Mənim sümüyümə düşən havadı.
Bu mənim bağrımı deşən havadı,
"Sarıtel" oxuyan qaratel gözəl.

Yada yar düşəndə, dağa qar düşüb,
Meydan istəyənin yeri dar düşüb.
Ortaya nə yaman soyuqlar düşüb,
"Sarıtel" oxuyan qaratel gözəl.

Kövrələn könlümü saldın bəndə sən,
Aşıqsan, şairsən, ya xanəndəsən,
Bilmirəm Tanrısan, yoxsa bəndəsən,
"Sarıtel" oxuyan qaratel gözəl.

Xalların odunda yanan can olsun,
Al məndən heyfini, qana qan olsun.
Çal, oxu, qoy yanan Zəlimxan olsun,
"Sarıtel" oxuyan qaratel gözəl.

BİRCƏ MƏNİ XATIRLA

Ömrü-günü uzun olsa həsrətin,
Göz yaşında bir çiməni xatırla.
Çiçəkləri şeh görməmiş saralan,
Solub gedən bir çəməni xatırla.

Dağlarıma gün yerinə çən düşüb,
Xınalı daş kəkliyindən gen düşüb.
Kimi görsən saçlarına dən düşüb,
Bircə məni, bircə məni xatırla.

Sevən də çox, sevilən də, atan da,
Bu dünyada üzən də çox, batan da.
Səksəkəli quş yuxusu yatanda,
Bircə məni, bircə məni xatırla.

Mənim gözüm işarədə, himdədi,
Eşqim, ruhum sən çaldığın simdədi.
Desələr ki, fil dözümü kimdədi,
Bircə məni, bircə məni xatırla.

Həm çörəyin, həm duzunam mən sənin,
Həm qismətin, həm ruzunam mən sənin.
Baharınam, Novruzunam mən sənin,
Yaşıllaşan bir səməni xatırla,
Bircə məni, bircə məni xatırla.

Can üşüdən sükut görsən, ağlama,
Ağlar qalmış bulud görsən, ağlama.
Çiyinlərdə tabut görsən, ağlama,
Bircə məni, bircə məni xatırla.

Ey Allahın göydən gələn pərisi,
Soyulsa da şairlərin dərisi,
Bil ki, mənəm min illərin dirisi,
Bircə məni, bircə məni xatırla.

QAYIDAQ ƏVVƏLKİ XATİRƏLƏRƏ

Bu gündən sabaha uzanmasın əl,
Hələ sabahlara baş vurmayaq, gəl.
Necə yaşamışıq milyon il əvvəl,
Güllər şehə batsın, çiçəklər zərə,
Qayıdaq əvvəlki xatirələrə.

İlk sevgi çiçəyi harda açılıb,
Kiminçün göyərib çəmən birinci?
Sevda yollarına can atan gözəl,
Nə sən birincisən, nə mən birinci.
Analar nə qədər oğullar doğub,
Məcnunlar doğulub, bəlkə, min kərə,
Qayıdaq əvvəlki xatirələrə.

Eşqin saralmayan çöhrəsi sən ol,
Toxumu mən olum, pöhrəsi sən ol.
Aşıq birhəftəlik dastan başlasa,
Tahiri mən olum, Zöhrəsi sən ol.
Şehli çəmənlərdən gül dərə-dərə,
Qayıdaq əvvəlki xatirələrə.

Aldadan, aldanan, satdıran, satan,
Dünyanın işləri məzədi hələ.
İnsanın insana münasibəti,
Tikandı, qanqaldı, nizədi hələ.
Köhnə xatirələr dinsin, danışsın,
Təzə xatirələr təzədi hələ,
Qayıdaq əvvəlki xatirələrə.

Bugünkü sevgilər xatirələşmir,
Bu gün xatirəyə dönmək çətindi.
Soyuq ürəklərdə ölür duyğular,
İsti ürəklərə enmək çətindi.
Ağrıdan, əzabdan, yasdan, qayğıdan,
Danışmaq çətindi, dinmək çətindi.
Öz sevgi payını götürsün hərə,
Qayıdaq əvvəlki xatirələrə,
Qayıdaq əvvəlki xatirələrə...

GƏLMİŞƏM, QOYNUNDA SIĞINACAQ VER

Əzizim sinə-sinə,
Çən gəlir sinə-sinə.
Aləmə sığmaz başım
Sığıbdı sinəsinə.

Peşmandı gülləri dərdirən, dərən,
Peşmandı qurudan, peşmandı sərən.
Ömür parça-parça, gün pərən-pərən,
Nursuz gözlərimə nurlu çıraq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

Qorlanıb varlığım, odlanıb içim,
Sənsiz mən haranı bəyənim, seçim?
Ürəklə doldurum, doyunca içim,
Qaynar baxışlardan sərin bulaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

Qış meydan suladı, ağır gəldi yaz,
Kədərim dərindi, sevincim dayaz.
Köməşən əlimi qızdırım bir az,
Üşüyən qəlbimə od ver, ocaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

Qalmaz bir nəsildə, bir soyda dünya,
Gah yasda keçinər, gah toyda dünya.
Nəyimə lazımdı bu boyda dünya?
Başımı qoymağa künc ver, bucaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

Sevgidir həyatda hər şeydən baha,
Sevənlər üzünü tutar Allaha.
Heç nə istəmirəm dünyadan daha,
Ürək ver, könül ver, dil ver, dodaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

GEDİRƏM BİR QƏLBİ SEVİNDİRMƏYƏ

Çəməndə çiçəyəm, sünbüldə dənəm,
Sevgidə, sevincdə dağlara tənəm.
Dünyanın ən xoşbəxt adamı mənəm,
Gedirəm bir qəlbi sevindirməyə.

İçimdə işıq var, ulduz var, Ay var,
Ruhumda çağlayan bir dəli çay var.
Könlümdə Allahın verdiyi pay var,
Gedirəm bir qəlbi sevindirməyə.

Nə həsrət, nə də ki, qəm aparıram,
Nə də kirpiyimdə nəm aparıram.
Quşam, dimdiyimdə yem aparıram,
Gedirəm bir qəlbi sevindirməyə.

Ay sevinc aparan, ayaqyalın qaç,
Ümid gözləyənin qapısını aç.
Dərdə dərman olub, ağrıya əlac,
Gedirəm bir qəlbi sevindirməyə.

Ucaldıb başları, uca gedirəm,
Düşsəm də zəhmətə, borca, gedirəm.
Elə bil Kəbəyə, Haca gedirəm,
Gedirəm bir qəlbi sevindirməyə.

Hər könül bir dünya, bir Kainatdı,
Gedirəm dünyanı sevindirməyə,
Gedirəm həyatı sevindirməyə.
Gedirəm sevgiyə könül bağlayan,
Bütün Kainatı sevindirməyə!

VƏTƏN EŞQİ

Birmi, beşmi söyləməklə qurtarasan sırasını,
Bu – göz eşqi, bu – qəlb eşqi, bu – can eşqi, bu – tən eşqi!
Torpaq, Günəş sevgisidir minbir dəfə gücləndirən,
Sal qayalar sinəsində ağac olub bitən eşqi.

Kimini dərd dilləndirir, kimini həsrət oxudur,
Kim nə zaman oxuyursa, eşq adlı sərvət oxudur.
Yerə, göyə, Yaradana ulu məhəbbət oxudur,
Bülbül olub, cəh-cəh vurub, budaqlarda ötən eşqi!

Kim hayanda doğulubsa, ora onun məbədidi,
Yurda arxa çevirən kəs naqislərin ən bədidi.
Milyon illər gəlib-keçə, dəyişməzdi, əbədidi,
İnsan üçün yurd sevgisi, millət üçün VƏTƏN EŞQİ!!!

ÜRƏYİM KÖKSÜMÜ YARIB ÇIXARDI

Ürəyim köksümü yarıb çıxardı,
Nə zaman gözlərim görsə qızları.
Mənim mahnılarım dayandırardı,
Hər səhər gedəndə dərsə qızları.

Qaynar baxışlardan od yağa-yağa,
Enərdik arana, qalxardıq dağa.
Qoymazdı bizlərə yaxınlaşmağa,
Çəkərdi inadı tərsə qızları.

Zəlimxan, xatırla sən o dəmləri,
Şeyx Sənanlara verdi qəmləri.
Dinindən döndərdi Xan Kərəmləri,
Tərsa gözəlləri, tərsa qızları.

MƏN GEDİNCƏ PƏNCƏRƏNİ BAĞLAMA

Mən gedincə pəncərəni bağlama,
Mən bilim ki, arxam ilə göz baxır.
Sən də elə bil ki, havalanıb bir oğlan,
Arxasınca sənin kimi qız baxır.

Mən gedincə pəncərəni bağlama,
Daş gül açır sən baxanda yollara.
Qoy bir az da qüvvət versin ilahi,
Səni sıxan, səni qucan qollara.

Mən gedincə pəncərəni bağlama,
Bağlayarsan, nitqim, sözüm bağlanar.
Aramıza pərdə çəkər Yaradan,
Sənin bəxtin, mənim gözüm bağlanar.

SEVƏSƏN

İnsanı sevəsən, ürəklər açıla,
Torpağı sevəsən, çiçəklər açıla.
Körpəni sevəsən, süzülə laylalar,
Beşiyi sevəsən, bələklər açıla.

Gözündən içəsən, bulaqlar sevinə,
Şirin söz deyəsən, dodaqlar sevinə.
Zirvəyə çıxasan, Yaradan çağıra,
Dağlara qalxasan, yaylaqlar sevinə.

Buludda şimşəyə, yağışa dönəsən,
Çəməndə ilməyə, naxışa dönəsən.
Baharı əlindən almaya təbiət,
Nə payız görəsən, nə qışa dönəsən.

Vurulub sevəsən, gərilib sevəsən,
Gül kimi torpağa sərilib sevəsən.
Ay kimi batsan da gün kimi doğasan,
Min ildən sonra da dirilib sevəsən!

SƏN GƏLMƏMİŞDİN

Səsini içinə çəkmişdi bulaq,
Yellər qanadını açmırdı o gün.
Donmuşdu dağ-dərə, donmuşdu torpaq,
Güllərin dodağı qaçmırdı o gün,
Sən gəlməmişdin.

Göydən çəkilmişdi günəşin zəri,
Yerdə axarını çay saxlamışdı.
Elə bil, ən böyük dərdi-kədəri
Təbiət mənimçün pay saxlamışdı,
Sən gəlməmişdin.

Yox idi həyatda işıqdan əsər,
Üstümdə qaralmış bulud var idi.
Gözümdən nur getdi, sözümdən kəsər,
İçimdə lal olmuş sükut var idi,
Sən gəlməmişdin.

Ürəyim xaraba qalmış bir şəhər,
Şam kimi qəlbimin yağı damırdı.
Üzümdən zəhrimar, dilimdən zəhər,
Rəngimdən, ruhumdan ağı damırdı,
Sən gəlməmişdin.

Gəldim yerə-göyə vurulmuş kimi,
Gəlmirsən, yerinə dərd gəlir, gözəl.
Sevənlər evindən uçur quş kimi,
Sevənlər evinə pərt gəlir, gözəl.
Nə zarafat bilir, nə gerçək bilir,
Həsrət gəlişini sərt gəlir, gözəl,
Sən gəlməmişdin.

DÖYMƏK OLMUR PƏNCƏRƏNİ

Ləzzət ilə baxana bax ocağıma, istimə,
Üstümdəki yorğan deyil, köz örtmüşəm üstümə.
Ah çəkmişəm, el yığılıb dumanıma, tüstümə,
Bu yanğıda keşişlərin yetmiş yeddi fəndi var.

Heç bilmirəm bu dinsizi hansı dinə tapını,
Əlləriylə çəkib üzdü ürəyimin sapını.
Döymək olmur pəncərəni, açmaq olmur qapını,
Qıfılı var, tilsimi var, möhürü var, bəndi var.

Allah kəsib sevənlərin işini, əlacını,
Tuta bilmir tədbirini, ala bilmir bacını.
Acı-acı danışandan almaq olmur acını,
Şirin-şirin dillənənin dil altında qəndi var.

Ağrı başda at oynadıb, alovlara can düşüb,
Can deyənin ömrü boyu ürəyinə qan düşüb.
Məcnun çəkən bəlalara gəlib Zəlimxan düşüb,
Nə qalası şəhəri var, nə köçəsi kəndi var.

BU QIZ GƏLİN OLMAĞA HAZIRLAŞIR, DEYƏSƏN

Elçi şirin çayını vaxtında içib gedib,
Bəy gəlib gözəllərin gözünü seçib gedib.
Fikri özündən qabaq atlanıb, köçüb gedib,
Bu qız gəlin olmağa hazırlaşır, deyəsən.

Allahın sağ gözüylə baxdığı bir naxış var,
İlahinin vurduğu min cür ilmə, naxış var.
Evdə toy tədarükü, ehtiyat, yır-yığış var,
Bu qız gəlin olmağa hazırlaşır, deyəsən.

Yerə-göyə sığışmır arzuların qanadı,
Ömrü əlvan bir xalı, sevgisi bir xanadı.
Hər gözəl bir gəlindi, hər gəlin bir anadı,
Bu qız gəlin olmağa hazırlaşır, deyəsən.

Ruhunda bir layla var, dilində bir oxşama,
Oxuyur öz içində hey səhərdən axşama.
Necə yanır, əriyir, bax, səhərdən axşama,
Bu qız gəlin olmağa hazırlaşır, deyəsən.

Fikrindən, xəyalından gündə yüz dilək keçir,
Könlünə beşik düşür, meylindən bələk keçir.
Bakirəlik həddini yenə bir mələk keçir,
Bu qız gəlin olmağa hazırlaşır, deyəsən.

Sığallı bir sonadı, sonalığı mübarək,
Xınayaxdı gecəsi xınalığı mübarək.
Gəlinliyi mübarək, analığı mübarək,
Bu qız gəlin olmağa hazırlaşır, deyəsən.

ELƏ BİL GÜN DÜŞÜB QARIN ÜSTÜNƏ

Damla yarpaqlarda əriyən kimi,
Əritdin ömrümü, əritdin, gözəl.
Gülüş dodaqlarda əriyən kimi,
Əritdin ömrümü, əritdin, gözəl.

Dən saçın ağında əriyən kimi,
Şamama tağında əriyən kimi,
Piltə öz yağında əriyən kimi,
Əritdin ömrümü, əritdin, gözəl.

Bağban baş endirər barın üstünə,
Sürtər yanağını narın üstünə.
Elə bil gün düşüb qarın üstünə,
Əritdin ömrümü, əritdin, gözəl.

Fürsət nə amana, nə aha qalsın,
Bahalı sevgimiz qoy baha qalsın.
Ömrümüz bir az da sabaha qalsın,
Çürütmə ömrümü, çürütmə, gözəl.
Vallah, bu atəşdə kül olmaq olar,
Əritdin ömrümü, əritdin, gözəl.

SÖHBƏT BAXIŞLARIN, SÖZ ƏLLƏRİNDİ

Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.
Bayatılardan

Ruhunu titrədən, qəlbini alan,
Bir sən, bir istəklin, bir xəlvət otaq.
Kimi inandırar bu boyda yalan,
Yarı xəlvətdə gör, danışma, ancaq?

Mənası sehrli, mətləbi dərin,
Görən kim oxuyub bu bayatını.
Güvənib gücünə şux sətirlərin,
Nəğməyə döndərib öz həyatını.

Oğlan yazıldısa qızın baxtına,
Söhbət baxışların, söz əllərindi.
Çıxar məhəbbətin şahlıq taxtına,
Sevgi də, gənclik də gözəllərindi.

Tükənmir söhbəti min illər boyu,
Görəsən sevənlər nədən danışır.
Taxılır nişanı, çalınır toyu,
Can yanır, dil susur, bədən danışır.

Duyğular ürəkdə aşıb-daşanda,
Dilə nə ehtiyac, göz danışarmış.
Dilin vəzifəsi başqalaşanda,
Baxışlar ən şirin söz danışarmış!

BİZ NİYƏ SEVMƏYƏK BİR-BİRİMİZİ

Yer göyü, dağ dağı, daş daşı sevdi,
Tanrı naxış vurdu, nəqqaşı sevdi.
Göz gözə boylandı, qaş qaşı sevdi,
Biz niyə sevməyək bir-birimizi.

Çəmənlər torpağa xalı çəkirsə,
Xalıda yaşılı, alı çəkirsə,
Arı çiçəklərdən balı çəkirsə,
Biz niyə sevməyək bir-birimizi.

Ulduzlar sayrışıb göz vurur Aya,
Çeşmələr çağlayıb tökülür çaya.
Sevənlər gəlirsə hər gün dünyaya,
Biz niyə sevməyək bir-birimizi.

Gül şehdən güc alır, mamır qayadan,
Köz oddan qızarır, çiçək həyadan,
Süzülüb gəlirsə kökdən, mayadan,
Biz niyə sevməyək bir-birimizi.

Ömür göz qırpımı, fürsət azdısa,
Könül son nəfəsdə sınan sazdısa,
Uçub əlimizdən gedən yazdısa,
Biz niyə sevməyək bir-birimizi.

Ömrün həm sevinci, həm ahı varsa,
Pərvanə yanğısı, şam ahı varsa,
Adəmin cənnətdə tamahı varsa,
Biz niyə sevməyək bir-birimizi.

Yağış gözəllərin öpür üzünü,
Damla pıçıltıyla deyir sözünü,
Şəlalə qayadan atır özünü,
Tufan dağı sevir, dalğa dənizi,
Biz niyə sevməyək bir-birimizi.

SEVGİ

Qarın, buzun dövrəsində,
Donurdu qışdakı sevgi.
Bahar gəlib çıxan kimi,
Göyərdi daşdakı sevgi.

Bal süzülür, şana keçir,
Eşqin odu qana keçir,
Axıb candan-cana keçir,
Gözdəki, qaşdakı sevgi.

Sinədəki köşk ayrıdı,
Köşk içində məşq ayrıdı,
Könüldəki eşq ayrıdı,
Başqadı başdakı sevgi.

Məndən ötrü ölən deyil,
Sevincini bölən deyil,
Əlli yaşda gələn deyil,
İyirmi yaşdakı sevgi.

ALLAH SƏNİ PƏNAHINDA SAXLASIN

Ömrüm boyu duaçınam, ay gözəl,
Allah səni pənahında saxlasın.
Oruc tutub, namazını qılmışam,
Allah səni pənahında saxlasın.

Hər qaşında Quranın bir ayəsi,
Sevilməkdi insanlığın qayəsi.
Üzərindən çəkilməsin sayəsi,
Allah səni pənahında saxlasın.

Mən nə şaham, nə şahlıqda vəzirəm,
Eşqin ilə dərviş olub gəzirəm.
Səndən ötrü məclislərdə nəzirəm,
Allah səni pənahında saxlasın.

Nə Tanrıyam, nə Allaham, nə dinəm,
İcazəsiz nə danışam, nə dinəm.
Vaqif demiş: sən ey Məkkəm, Mədinəm,
Allah səni pənahında saxlasın.

Tur dağında, Musanın Tur eşqinə,
Məhəmmədin alnında nur eşqinə,
Quran, İncil, Tövrat, Zəbur eşqinə,
Allah səni pənahında saxlasın.

Sevgi sözü əqidədi, inamdı,
Sevən kəslər peyğəmbərdi, imamdı.
Bəlkə, bu gün mənim ömrüm tamamdı,
Allah səni pənahında saxlasın.

Belə gülü hər gülüstan bitirməz,
Hər torpaq da bu neməti yetirməz.
Zəlimxansız dünya bir şey itirməz,
Allah səni pənahında saxlasın.

XƏTRİNƏ DƏYMƏ

Meh var, qoy sığallasın,
Yelin xətrinə dəymə.
Saçdı, qoy dalğalansın,
Telin xətrinə dəymə.

Barmaqlarım inciyər,
Əlin xətrinə dəymə.
Daş-qaşdı, qoy düzülsün,
Lələin xətrinə dəymə.

Sözüm bir nəmər olsun,
Dilin xətrinə dəymə.
Qollarım kəmər olsun,
Belin xətrinə dəymə.

Qoy çağlasın Zəlimxan,
Selin xətrinə dəymə.
Şairi küsdürərsən,
Elin xətrinə dəymə.

ŞAİRİN SÖZÜNƏ YALANDIR DEMƏ

Gül sənin nəyinə gərəkdir, gülüm?
Öpən dodağı yox, oxşayan əli.
Gəl gül də, çiçək də özümüz olaq,
Sən bir az ağıllı, mən bir az dəli.

Gül sənin nəyinə gərəkdir, gülüm?
Sənin gülün mənəm, çiçəyin mənəm.
Güllü nağıllara getməsin ağlın,
Sənin həqiqətin, gerçəyin mənəm.

Gül sənin nəyinə gərəkdir, gülüm?
Hüsnün, gözəlliyin dünyada təkdi.
Əgər sən varsansa, bu yer üzündə,
Dünya başdan-başa güldü, çiçəkdi.

Gül sənin nəyinə gərəkdir, gülüm?
Qoxla, nəfəsimi çiçəyə döndər.
Şairin sözünə yalandır demə,
Bütün yalanları gerçəyə döndər.

OVÇU OLMAQ ÇƏTİN İMİŞ

Əlimdən bir xata çıxdı,
Əlimdə silah ağladı.
Sabaha bir qəbir qazdım,
Üstündə günah ağladı.

Axşam ötürdü köksünü,
Açılan sabah ağladı.
Ruhumda baş-başa verib,
Nəfs ilə tamah ağladı.

Üstümə bir duman çökdü,
İçimdə bir ah ağladı.
Leysan yağış elə yağdı,
Sandım ki, Allah ağladı.

XOŞ GƏLİB

Qapını bağlaram dərdin üzünə,
Könlümün nisgili, qəmi xoş gəlib.
Saralmaq sünbülün yetişməsidi,
Ömrümə saralmış zəmi xoş gəlib.

Sevinc birhəftəlik, biraylıq ola,
Sevinmək sarıdan subaylıq ola.
Bir göz yaşım ola, bir yaylıq ola,
Silmərəm, gözümün nəmi xoş gəlib.

Mən üçün, yeddinin, qırxın yasıyam,
Dünyadan gedənin könül pasıyam.
Kədər ümmanıyam, qəm dəryasıyam,
Qoynumda üzməyə gəmi xoş gəlib.

Tutqun baxışların dəni, Zəlimxan,
Dəyirman dünyanın dəni, Zəlimxan,
Küsmə, yer udanda səni, Zəlimxan,
De, haqqın fürsəti, çəmi xoş gəlib.

KƏRƏM YALAN OLDU, MƏN GERÇƏK OLDUM

Gəl gözüm işığı, gəl gözüm nuru,
Dilim qabar oldu “göz” deyə-deyə.
Ruhum harayladı, könlüm çağırdı,
Öldürdün, darıxma, “döz” deyə-deyə.

Yoruldum, dizimi heydən eylədim,
Vaxtımı hey axşam, hey dan eylədim.
Ayağın altında meydan eylədim,
Sinəmin üstündə “gəz” deyə-deyə.

Nədi sirr saxlamaq, sirr, mən bilirdim,
Gizli sevgiləri pir mən bilirdim.
Bir Allah bilirdi, bir mən bilirdim,
Dillərdə söz oldum, “söz” deyə-deyə.

Yerinə yetməyən bir dilək oldum,
Yol üstə saralan son çiçək oldum.
Kərəm yalan oldu, mən gerçək oldum,
Qaynar baxışlara “köz” deyə-deyə.

MƏN SƏNİN QƏLBİNƏ NECƏ YOL TAPIM

Gəl mənim ömrümün şirin dünyası,
Məhəbbət adlanan pirin dünyası,
Fərhad əfsanəsi, Şirin dünyası,
Qalamı uçurum, qayamı çapım,
Mən sənin qəlbinə necə yol tapım?

Ömrüm sənə sarı düşən güzardı,
Əvvəli beşikdi, sonu məzardı,
Ay Allah, bu azar nə xoş azardı.
Ürək ağrılarım, könül əzabım,
Mən sənin qəlbinə necə yol tapım?

Ürəkdən-ürəyə dil körpüsü var,
Görüşdən-görüşə gül körpüsü var,
Gizli sevdaların qıl körpüsü var,
Çatarmı keçməyə dözümüm, tabım,
Mən sənin qəlbinə necə yol tapım?

Keşikçi ayıqdı, gözətçi mətin,
İzləmək qorxulu, boylanmaq çətin,
Hasarı hündürdü bu imarətin.
Tilsimli pəncərəm, qıfıllı qapım,
Mən sənin qəlbinə necə yol tapım?

Gecələr şam kimi əritdin məni,
Gündüzlər yol üstə qurutdun məni,
Gözlədə-gözlədə çürütdün məni.
Örtülü dəftərim, bağlı kitabım,
Mən sənin qəlbinə necə yol tapım?

Tufanmı qaldırım, mehəmi dönüm?
Yağışmı yağdırım, şehəmi dönüm?
Qulamı çevrilim, şahamı dönüm?
Çəmənim, çiçəyim, gülüm, gülabım,
Mən sənin qəlbinə necə yol tapım?

Tanrı sovqatımsan, din işığımsan,
Səhər şəfəqimsən, dan işığımsan,
Ən şirin ləhcəmsən, danışığımsan.
Bütün suallara sənsən cavabım,
Mən sənin qəlbinə necə yol tapım?
Mənim ilk sevincim, son iztirabım,
Mən sənin qəlbinə necə yol tapım?

BİR QIZ GÖZLƏRİNDƏ GÜNƏŞ DOĞURDU

Duyğular qəlbinə düşüb dən kimi,
Sevgi çiçəkləri əkirdi bir qız.
Arılar güllərdən bal çəkən kimi,
Sevgini canına çəkirdi bir qız,
Bir qız gözlərində Günəş doğurdu.

Dodağı qaçmışdı tumurcuqların,
Düymələr saçılıb dağılmışdılar.
Bütün yer üzünün gözəllikləri,
Sanki, tamaşaya yığılmışdılar,
Bir qız gözlərində Günəş doğurdu.

Bir insan ömrünə bahar gəlirdi,
Dünya nərgizlənir, lalələnirdi.
Üzündə titrəşir nur zolaqları,
Gözündə işıqlar şölələnirdi,
Bir qız gözlərində Günəş doğurdu.

İllərlə içində itən bir səsi,
Eşq adlı ocaqda, pirdə tapırdı.
Göyə ehtiyacı yox idi onun,
Göydəki Günəşi yerdə tapırdı,
Bir qız gözlərində Günəş doğurdu.

Yaman vurulmuşdu yaratdığına,
Bığ yeri təzəcə tərləyən dünya.
Sevginin başına dönüb, dolanıb,
Sevgini başına hərləyən dünya.
Dünyada təzə bir atəş doğurdu,
Bir qız baxışında Günəş doğurdu.

SALAM, YAŞIL AĞAC!

Sulusan, hələ ki, su var canında,
Salam, yaşıl ağac, yaşılım ağac!
Elə istəyirəm bitim yanında,
Burdaca mən sənə qoşulum, ağac!

Qollarım çevrilsin budaqlarına,
Əllərim çevrilsin yarpaqlarına.
Səni ürəyimcə basıb bağrıma,
Çəməntək döşənim ayaqlarına.
Bulud çaxnaşanda, şimşək çaxanda,
Çevrilim gücünə, dayaqlarına,
Salam, yaşıl ağac, yaşılım ağac!

Bir qız oxuyardı səni görəndə,
Çiçək qoxuyardı səni görəndə.
Nəğmədən, avazdan, səsdən, layladan,
Xalı toxuyardı səni görəndə.
Yaşıl xatirəli dünyası vardı,
Salam, yaş budağım, yaş əlim, ağac,
Salam, yaşıl ağac, yaşılım ağac!

Tək ağac deyilsən sən mənim üçün,
Sevgisən, sevincsən, ağrısan, qəmsən.
Qəlbimdə ocağım, gözümdə odum,
Tarixə çevrilmiş bir xatirəmsən.

Beş gözüm olsaydı, sənə baxardı,
Səndən yapışardı beş əlim, ağac.
Mən köçüb getsəm də bir gün dünyadan,
Sən var ol dünyada, YAŞILIM AĞAC!

MƏNİM BU KÖLGƏDƏ BİR XATİRƏM VAR

Saxlaya bilirdim vaxtı, saatı,
Yaşaya bilirdim ömrü, həyatı.
Şirin bir oxşama, kövrək bayatı,
Bütün ömrüm boyu unutmadığım,
Vaxtın əllərimə keçdiyi çəm var,
Mənim bu kölgədə bir xatirəm var.

Başımın üstündə barlı bir budaq,
Budağın altında odlu bir dodaq,
İllərdi ağlayır orda bir bulaq,
Yarpaqlar üstündə hələ də nəm var,
Mənim bu kölgədə bir xatirəm var.

Üz közə dönmüşdü, yanaqlar zərə,
Arxada uçurum, qarşıda dərə.
Hər insan ömrünün xatirələrə,
Yetdiyi məqam var, çatdığı dəm var,
Mənim bu kölgədə bir xatirəm var.

Bürünüb, qərq olub yaşıl tüllərə,
Nəğmətək axardı saf könüllərə.
Heyif, tez qarışdı solan güllərə,
İndi uzaqlarda bir bəxti kəm var,
Mənim bu kölgədə bir xatirəm var.

Tutur bildiyini yaradan, xalıq,
Elə bil, dəryadan ayrılır balıq.
Yaş kədər gətirir, zaman qocalıq,
Gözümdə həsrət var, könlümdə nəm var,
Ağac kölgəsində bir xatirəm var!
Mənim bu kölgədə bir xatirəm var.

GETDİ

Qaşlarına kim vurub bu paslanmış kilidi,
Neçə açar salmışam, hamısı sındı getdi.
Üşüyən tək mən oldum baxışların buzunda,
Çatdı gur ocağını, hamı qızındı getdi.

SEVGİ YAĞIŞLARINA TUTACAĞAM DÜNYANI

Təpiklər tapdağında əzildi, əzdi dünya,
Xilası, xilaskarı axtardı, gəzdi dünya.
Ədavətdən yoruldu, nifrətdən bezdi dünya,
Sevgi yağışlarına tutacağam dünyanı.

Necə ki, kin-küdurət bir-birinə calaqdı,
İnsan hey çarmıxdadı, həmişə daş-qalaqdı.
Anamızı ağladan böhtandı, badalaqdı,
Sevgi yağışlarına tutacağam dünyanı.

Sevib cavanlıq etmə, sevib qocalmaq gərək,
Saf duyğular içində xəyala dalmaq gərək.
Sevgini xəyanətin əlindən almaq gərək,
Sevgi yağışlarına tutacağam dünyanı.

Rəqib savaşlarında qırğın görüb, qan görüb,
Gül canlar, gül sevgilər nə qədər tikan görüb.
Mən bütün insanları şirin, mehriban görüb,
Sevgi yağışlarına tutacağam dünyanı.

Nəyinə vurulmuşam, mən dünyanın nəyinə,
Nuruna, işığına, gözəlinə, bəyinə.
Sığınıb Yaradanın, Allahın köməyinə,
Sevgi yağışlarına tutacağam dünyanı.

Sarı-sarı səhralar yaşıl tül bitirəcək,
Qara-qara qayalar qızılgül bitirəcək.
Hər sevilən, hər sevən bir könül bitirəcək,
Sevgi yağışlarına tutacağam dünyanı.

Can səpdim, can əritdim, yenə can bitirəcək,
Sağlam toxumlar düşüb din-iman bitirəcək.
Eşqi, məhəbbətiylə Zəlimxan bitirəcək,
Sevgi yağışlarına tutacağam dünyanı.

İLAHİ, MİN ŞÜKÜR YARATDIĞINA

Bir gündə min dəfə şükür deyirəm,
İlahi, min şükür yaratdığına.
Göylərin payıdı, enib torpağa,
İlahi, min şükür yaratdığına.

Pətəyi çəməndən, balı çiçəkdən,
Sevgisi beşikdən, eşqi bələkdən,
Payı gözəllikdən, nuru mələkdən,
İlahi, min şükür yaratdığına.

Baxışı ulduzdan, işığı Aydan,
Axarı çeşmədən, ləngəri çaydan.
Günəşi bahardan, alovu yaydan,
İlahi, min şükür yaratdığına.

Arayan narahat, aranan gözəl,
Darayan bəxtəvər, daranan gözəl,
Yaradan müqəddəs, yaranan gözəl,
İlahi, min şükür yaratdığına.

Gözüm gözəlliyin həsrəti, acı,
Gözəllər başımın cığası, tacı.
Sən Allah, o bəndə, mən tamaşaçı,
İlahi, min şükür yaratdığına.

GİZLİ GÖRÜŞLƏRİN AŞKAR SEVİNCİ

Göz yaşı yanaqda parlayan inci,
İşıq dalğalanır, nur cana sığmır.
Gizli görüşlərin aşkar sevinci
Bir qəlbə, ürəyə, bir cana sığmır.

Söz də gözəlləşir gözəllər kimi,
Şehli dodaqlarda daranıb çıxır.
Duyğular könüldə yanır zər kimi,
Sevginin nurundan yaranıb çıxır.

Gecə də gündüzdü sevişənlərə,
Qaranlıq işıqdan min qat işıqlı.
Dünya başdan-başa tutulur zərə,
Yer sazlı, göy nazlı, qız yaraşıqlı.

Yerin qulağına çatmayaydı səs,
Torpaq kar olaydı, daş kar olaydı.
Hər xəfif pıçıltı, hər şirin nəfəs,
Bircə Yaradana aşkar olaydı.

Ürəklə dalğalar versin baş-başa,
Könlümüz çeşməli, dənizli qalsın.
Sən Allah, bu sirri açma heç kəsə,
Aşkar sevincimiz qoy gizli qalsın!

TAPŞIR BAXIŞLARINA

Tək onu axtarmışam mən bütün ömrüm boyu,
Gözlərinə əmr eylə, gözlərimdən itməsin.
Hazıram sinəm üstə çiçəklər bitirməyə,
O çiçək məni qoyub özgə yerdə bitməsin.

Bir əsim mehə dönüb saçını daraqlaram,
Ruhuna sığal çəkib qəlbini varaqlaram.
Tanrı sovqatı kimi gözüm üstə saxlaram,
Səndən gələn nə varsa gəlsin, ancaq getməsin.

Mən elə düşünürdüm insafı var, rəhmi var,
İnsan kimi dil bilir, düşüncəsi, fəhmi var.
Nə amansız qəzəbi, nə allahsız zəhmi var,
Tapşır baxışlarına, məni çox incitməsin.

GÖZLƏRİMİ ÖZÜN QAPA

Dedim gəl bir seyrə çıxaq,
– Yox, gələ bilmərəm, – dedi.
Dedim nazı bir yana qoy,
– Yox, gələ bilmərəm, – dedi.

– Qapım açıq, baxtım açıq,
Sevmir mənim baxtım açıq,
İşıq kimi baxtıma çıx.
– Yox, gələ bilmərəm, – dedi.

– Dağları en, dərəyə gəl,
Ovçun mənəm, bərəyə gəl,
Yaşıl bir mənzərəyə gəl,
– Yox, gələ bilmərəm, – dedi.

– Budaqlardan dərim gülü,
Qədəminə sərim tülü,
Gəl sevindir bu könülü.
– Yox, gələ bilmərəm, – dedi.

– Əcəl yatmır ipə-sapa,
Kim itirə, kimlər tapa,
Gözlərimi özün qapa.
– Yox, gələ bilmərəm, – dedi.

– Dözümüm, səbrim üstə gəl,
Zəhmətim, cəbrim üstə gəl,
Ölürəm, qəbrim üstə gəl.
– Yox, gələ bilmərəm, – dedi.

EŞİTDİ

Eşqimi qəlbimdə saxlayammadım,
Çiçəyə sirr açdım, çəmən eşitdi.
Yarpağın qoynuna baş qoyub yatan,
Torpağın şəhdini əmən eşitdi.

Yel vurdu, titrəşdi ləçəklərdə zər,
Gülün yanağında puçurlandı tər.
Əlüstü hər yana çatdı bu xəbər,
Dağların başında duman eşitdi.

Qara yellər kimi əsmək istədi,
Küsdürmək istədi, küsmək istədi,
Şeytan aralığı kəsmək istədi,
Şübhə qanadlandı, güman eşitdi.

Düşdüm ürəklərə gur işıq kimi,
Sarıldım güllərə sarmaşıq kimi.
Yaxşını çağırdım bir aşıq kimi,
Səs ona çatmamış, yaman eşitdi.

Ölkələr dolaşar fikrin hər anı,
Coşdurar həvəsi, qaynadar qanı.
Eşqim durnalarla gəzdi dünyanı,
Bağdada söz getdi, Yəmən eşitdi.

Sevilən bilir ki, sevən haqlıdır,
Fikirlər, xəyallar qol-budaqlıdır.
Zəlimxan, asta din, yer qulaqlıdır,
Sevgini vaxt duydu, zaman eşitdi.

SƏN BİLƏRSƏN

Mən kim idim, neyləmişdim səndən ötrü,
Balıq bilməz, xaliq bilər, sən bilərsən.
Nə çəkmişəm sevgi adlı dindən ötrü,
Balıq bilməz, xaliq bilər, sən bilərsən.

Yaxın bildim, könül verdim, ərk eylədim,
Günahımı çox sonralar dərk eylədim.
Daha sənli duyğuları tərk eylədim,
Balıq bilməz, xaliq bilər, sən bilərsən.

Bəlkə, balıq tilovunun hayındadır,
Canındakı alovunun hayındadır.
Öz dəminin, plovunun hayındadır,
Balıq bilməz, xaliq bilər, sən bilərsən.

Yük mənimdi, dərd mənimdi, dərman mənim,
Əz də, döy də, vəl sənindi, xırman sənin.
İstər öldür, istər yaşat, fərman sənin,
Balıq bilməz, xaliq bilər, sən bilərsən.

İstər daş ol, istər dəmir, istər qaya,
Yum gözünü ilahidən gələn paya.
Yaxşılığı mən atmışam bir dəryaya,
Balıq bilər, xaliq bilər, sən bilərsən.
Bu gün görə bilmədiyin ucalığı,
Zaman gələr zirvələrə tən bilərsən,
Balıq bilər, xaliq bilər, sən bilərsən.

ZƏLİMXAN DÜNYAYA TƏZƏDƏN GƏLƏR

Könül məclisində sən görünəndə,
Söz meydən süzülər, məzədən gələr.
Dilindən nə çıxsa, məst eylər məni,
Sanaram şərabdı, kuzədən gələr.

Sevgi çəmənində naxış olarsan,
Ömrümə bir nurlu baxış olarsan,
Səhrayam, qoynumda yağış olarsan,
Söhbət sünbüllənər, sözə dən gələr.

Duman dağlarımı bürümüş olsa,
Fələk dam-daşımı kürümüş olsa,
Zəlimxan torpaqda çürümüş olsa,
Dirilər, dünyaya təzədən gələr.

SEVGİ ADLI
ŞAHA QURBAN

Mən insanam – Allah mənim,
Adəm mənim, Nuh mənimdi.
İşıq məndə, səhər məndə,
Könül mənim, ruh mənimdi.

Yaradan bir, Tanrı birdi,
Birin işi bağlı sirdi.
Hamının sonu qəbirdi,
Bir qəbir də eh... mənimdi.

Güc, təpər dizdən ötrüdü,
Gözəllik gözdən ötrüdü.
Hər nə var bizdən ötrüdü,
Gah sənindi, gah mənimdi.

Mələk mənəm, fələk mənəm,
Qanad mənəm, lələk mənəm,
Çöldə bitən çiçək mənəm,
Üstündəki şeh məmimdi.

Açılan sabaha qurban,
Tükənməz iştaha qurban,
Sevgi adlı şaha qurban,
Mən şahınam, şah mənimdi.

GƏLMİŞƏM MƏN SƏNİN ZİYARƏTİNƏ

Udduğum havaynan, içdiyim suynan,
Dəli bir ümidnən, şirin arzuynan,
Gəlmişəm mən sənin ziyarətinə.

Qoşa qanad kimi qollarını aç,
Dərdimə dərman ol, ağrıma əlac,
Gəlmişəm mən sənin ziyarətinə.

Bütün məbədlərdən səni baş bilib,
Kəbənin köksündə qara daş bilib,
Gəlmişəm mən sənin ziyarətinə.

Sevginlə könlümü gəl qarət eylə,
Bir möcüzə göstər, bir qeyrət eylə.
İlahi sovqatı təbəssümünlə,
Məni də bir parça ziyarət eylə,
Gəlmişəm mən sənin ziyarətinə.

MƏNƏ “XOŞGƏLDİN” DE, “ƏLVİDA” DEMƏ

Elə ki, taleyin üzünə güldü,
Daha dad qılmasın göz ayrılıqdan.
Görüşlər dalınca görüşlər gələr,
Düşməz ortalığa söz ayrılıqdan.

“Sevirəm” deyənin sevgisi haqsa,
Qəm yemə, bu yolda göz yaşın axsa.
Sonu bir bayrama qovuşacaqsa,
Nə usan, nə də ki, bez ayrılıqdan.

Üz vermə həsrətə, nə danış, nə din,
Boylanmaq zülümdü, gözləmək çətin.
Əlim ətəyində qalıb həsrətin,
Sən Allah, əlimi üz ayrılıqdan.

Şirin bir qismət ol, qismətdən kəmə,
Qənim ol yolunda çəkdiyim qəmə.
Mənə “xoşgəldin” de, “əlvida” demə,
Bir görüş yaxşıdır yüz ayrılıqdan.

SEVMƏ MƏNİ,
SƏN ALLAHI SEVƏRSƏN

Ulduzu sev, işıq olsun beyninə,
Buludu sev, paltar olsun əyninə.
Torpağı sev, alsın səni qoynuna,
Sevmə məni, sən Allahı sevərsən.

Qalxan olmaz, qılınc olar bu sevgi,
Qazanc olmaz, qaxınc olar bu sevgi,
Qılınc qədər qorxunc olar bu sevgi,
Sevmə məni, sən Allahı sevərsən.

Dağa haray, daşa səda salarsan,
Qanım gedər, bir qan-qada salarsan.
Sən bir odsan, məni oda salarsan,
Sevmə məni, sən Allahı sevərsən.

Ağrı sənəm, aman sənəm, ah sənəm,
Canımda od, yanağımda şeh sənəm.
Qərib üçün nələr çəkdi Şahsənəm,
Sevmə məni, sən Allahı sevərsən.

Yuxular var, yuxularda buta var,
Kərəmlərə tilsim quran ata var.
Mən bilirəm, bu sevgidə xəta var,
Sevmə məni, sən Allahı sevərsən.

İşığım yox, otağınca, evincə,
Dönəmmərəm gözlədiyin sevincə.
Allahı sev, gəlib məni sevincə,
Sevmə məni, sən Allahı sevərsən.

BİR GÖZƏL ÖLDÜRDÜ MƏNİ

Qəfil ölmək istəmirdim,
Bir gözəl öldürdü məni.
Səfil ölmək istəmirdim,
Bir gözəl öldürdü məni.

İncə ruhnan, şirin səsnən,
Köz baxışnan, od nəfəsnən,
Alov dilli bir həvəsnən,
Bir gözəl öldürdü məni.

Döndü gülün butasına,
Saldı gözün xatasına.
Xəbər verin atasına,
Bir gözəl öldürdü məni.

O xəznədar, mən bir sayıl,
Baxdım, oldum hayıl-mayıl.
Nə Allahdı, nə Əzrayıl,
Bir gözəl öldürdü məni.

Qəlbi kaman, dili neymiş,
Aman Tanrım, bu qız nəymiş?
Gözəl görmək gözəl şeymiş,
Bir gözəl öldürdü məni.

NİFRƏTƏ ÇEVİRMƏ MƏHƏBBƏTİMİ

Ucadı zirvəmiz, qoy uca qalsın,
Endirmə yerlərə, göy uca qalsın.
Qəddi bükülməsin gəncliyimizin,
Göz nurlu, can odlu, boy uca qalsın,
Nifrətə çevirmə məhəbbətimi!

Sevilən, dünyanı yeddi qat sevir,
Həyatı sevəni bu həyat sevir.
Daş atma gözünə duru suların,
Sevgi bir balaca ehtiyat sevir,
Nifrətə çevirmə məhəbbətimi!

Sevdim Allah verən boyu-buxunu,
Çəkdim ciyərimə ətri-qoxunu.
Bir acı təəssüf, bir köntöy baxış,
Tərsinə fırladır Yerin oxunu,
Nifrətə çevirmə məhəbbətimi!

Duyğular susanda can şikəst olar,
Ruh yorğun düşəndə ürək süst olar.
Cənnət cəhənnəmə çevrilən günü,
Göy baş-ayaq düşər, yer alt-üst olar,
Nifrətə çevirmə məhəbbətimi!

Su kimi durulub sevmişəm səni,
Oxlanıb vurulub sevmişəm səni.
Göydən almamışam hədiyyə kimi,
Yollarda yorulub sevmişəm səni,
Nifrətə çevirmə məhəbbətimi!

ALLAH, GÖZLƏRƏ BAX

Belə baxış olmaz, belə göz olmaz,
Allah, gözlərə bax, nə gözəl baxır.
Belə atəş olmaz, belə köz olmaz,
Allah, gözlərə bax, nə gözəl baxır.

Göylər ulduz verib, Ay verib ona,
Yerlər çeşmə verib, çay verib ona.
Peyğəmbər nurundan pay verib ona,
Allah, gözlərə bax, nə gözəl baxır.

Haqqın dərgahından enən işıqdı,
Ömrə naxış vuran bir yaraşıqdı.
Mən gül ağacıyam, o sarmaşıqdı,
Allah, gözlərə bax, nə gözəl baxır.

Bilmirəm nə zaman qarşıma çıxdı,
Qarımı əritdi, dağımı yıxdı.
Mən canı cəhənnəm, millət yazıqdı,
Allah, gözlərə bax, nə gözəl baxır.

Sarayam, daşlarım tökülüb gedir,
Ciyərim canımdan sökülüb gedir.
Mən ağlar qalmışam, o gülüb gedir,
Allah, gözlərə bax, nə gözəl baxır.

Baxışlar nə qədər həlim olarmış,
Gözün zarafatı zülüm olarmış.
Zülümün axırı ölüm olarmış,
Allah, gözlərə bax, nə gözəl baxır.

Ürək yüz parçadı, könül yüz para,
Bir gözəl gözündə çəkildim dara.
Öldürməz, əlindən canım qurtara,
Allah, gözlərə bax, nə gözəl baxır!!!

BACARMALISAN

Sonatək boylanıb, gözəltək baxıb,
Gəlintək gəzməyi bacarmalısan.
Uçub əlimizdən gedən illəri,
Nizama düzməyi bacarmalısan.

Düz dərəyə dönsə, dərə düz olsa,
Coşan dalğaların sayı yüz olsa,
Ayrılıq sahilsiz bir dəniz olsa,
Qol atıb üzməyi bacarmalısan.

Qoy zaya getməsin çəkdiyin əmək,
Dostum min olsa da, səndədir kömək.
Nə lazım hər sözü dil açıb demək,
Baxışdan sezməyi bacarmalısan.

Çoxdu Zəlimxanın doğması, yadı,
Çalış, el içində enməsin adı.
Onsuz da vüsalın şirindir dadı,
Həsrətə dözməyi bacarmalısan.

ÇATASIYAM

Ulduz olub uzaqlarda dayanma,
Mənə gəlsin gözlərinin qadası.
Yanmalıdır eşqimizin ocağı,
Bir od vurub çatasıyam, çatası.

Hey düşürəm arzuların dalına,
Əl ataram dəymişinə, kalına.
İnam adlı bir köhlənin yalına,
Yatasıyam, yatasıyam, yatası.

Üzmədiyim ümman qədər dərinsən,
Çatmadığım arzu qədər şirinsən.
Üz döndərib dumanlara bürünsən,
Elə bilmə batasıyam, batası.

Xan Kərəmi yada sala, andıra,
Həsrət məni buğum-buğum yandıra.
Birdəfəlik bu ayrılıq andıra,
Öz əlimi qatasıyam, qatası.

Əllərimi dağ doğraya, daş kəsə,
Taqətimi gözdən axan yaş kəsə.
Aylar-illər pambıq ilə baş kəsə,
Yenə sənə çatasıyam, çatası.

MƏCNUN SEVGİSİ

Ucalıq Allahın mərtəbəsidir,
Əlləşər, bəndənin əlinə çatmaz.
Dünyanın qızılı, ləli, daş-qaşı
Füzuli şeirinin lələnə çatmaz.

Gələr bəzirganlar, gələr xocalar,
Körpə cavanlaşar, cavan qocalar.
Zirvələr yüksələr, dağlar ucalar,
Məcnun sevgisinin zilinə çatmaz.

GÖZƏLLİK

Tanrının yaratdığı gözəlliyə baxıram,
Yanaq çiçək, sinə qar, dil zərif, daş incədi.
Görün yaradan Allah necə yoğurub, yapıb,
Niyyət ulu, sevgi saf, əl təmiz, iş incədi.
Nə vaxt baxırsansa bax, gözəl elə gözəldi,
Gözəllik başdan-başa ilhamdı, düşüncədi.

ANA LAYLASI

Hardan aldın bu sehri,
Bilim, ana laylası!
Sənsiz açılardımı,
Dilim, ana laylası?!

Bax könlümün halına,
Düşüb xəyal dalına,
Bu yaşımda çalına,
Həlim ana laylası!

Baxmır amana, aha,
Zaman baş əymir şaha,
Yox, sənə çatmaz daha,
Əlim, ana laylası!

Gül çəmənsiz olmasın,
Sünbül dənsiz olmasın,
Bir gün sənsiz olmasın,
Elim, ana laylası!

KÖNLÜM

Bax gözlərin şöləsinə,
Həyat versin şölə sənə.
Kim vurulmaz beləsinə,
Vurulmağa dəyər, könlüm.

Yaza dönər, qışın olsa,
Belə tərlan quşun olsa,
Yolunda bir qoşun olsa,
Qırılmağa dəyər, könlüm.

Qurban eylə baş da, can da,
Bu sevgini yaşat qanda,
Boz-bulanıq sel olsa da,
Durulmağa dəyər, könlüm.

Gözü bəsdi, bulaq gəzmə,
Könlü bəsdi, ocaq gəzmə,
Bu gözəldən uzaq gəzmə,
Yar olmağa dəyər, könlüm.

DƏYMƏYİN

Gördüyündən gözü-könlü bulanar,
Nənələrin ürəyinə dəyməyin.
Yaraları göz-göz olar, sulanar,
Nənələrin ürəyinə dəyməyin.

Sapa dönər, yumaq olar, bükülər,
Xalı kimi ilmə-ilmə sökülər.
Şüşə qəlbi parçalanar, tökülər,
Nənələrin ürəyinə dəyməyin.

Deməyin ki, bir ayağı gordadı,
Ömrü-günü əcəl adlı tordadı.
Nəvələrin nağıl payı ordadı,
Nənələrin ürəyinə dəyməyin.

Bir bulaqdı, içilməsə kor qalar,
Bir ocaqdı, közü sönər, qor qalar,
İldən-ilə saçlarında qar qalar,
Nənələrin ürəyinə dəyməyin.

Dağ olsa da, acı sözdən incələr,
Bucaq seçər, öz yerini künc eylər,
Şirin kəlmə qocaları gənc eylər,
Nənələrin ürəyinə dəyməyin.

Yaxşı baxın arxaya siz, önə siz,
Ucalıq var, nədən ötrü enəsiz.
Fikirləşin, sabah siz də nənəsiz,
Nənələrin ürəyinə dəyməyin.

Gərdən sınar, kəmər düşər, bel inlər,
Toxunarsan, ürəyində tel inlər.
İnsaf edin, ay nainsaf gəlinlər,
Nənələrin ürəyinə dəyməyin.

DÜŞÜB

Ölüm yatağında bir qarı gördüm,
Solmuş bir çiçəkdi, budaqdan düşüb.
Boylanmaq istəyir, göz açа bilmir,
Ağrılar canına sazaqdan düşüb.

Təsəlli ləngitmir, dayaq saxlamır,
Gedirsən mənzilə, ayaq saxlamır.
Nişan üzüyünü barmaq saxlamır,
Gəlinlik sırğası qulaqdan düşüb.

Toxunmur xalısı, daranmır yunu,
Görünür gözünə dünyanın sonu.
Qalıb urvalığı, qurtarıb unu,
Asılmır, qazanı ocaqdan düşüb.

Kəmər kənardadı, beldən ayrılıb,
Daraq toz içində, teldən ayrılıb,
Ən gözəl söhbəti dildən ayrılıb,
Ən şirin nəğməsi dodaqdan düşüb.

Yağıb saçlarına qar dənə-dənə,
Bələnib dumana, bürünüb çənə,
Qışın pəncəsində çırpınır nənə,
Baharın qədəmi uzaqdan düşüb.

Dağ aşır, düz keçir ömrün yolları,
Əyilir sabahdan axşama sarı,
Ömrün səfərini bitirir qarı,
Güzarı yenə də torpaqdan düşüb!

SƏNƏ

Arzularım, diləklərim sənə yüzdü, sənə min,
Yanaqları nəm görməsin sənin kimi sənəmin.
Yolçu sən ol, yol mən olum, keç üstündən sinəmin,
Uzaqlığın məndən ötrü hicran deyil, bəs, nədir?!

Gözəlliyin gözlərimin qarasıdır, ağıdır,
Ürəyimdə məcnunluğun zilə qalxan çağıdır.
Dalğalar var sahilləri döyür, didir, dağıdır,
Varlığımda baş qaldıran tufan deyil, bəs, nədir?!

Baxışınla baxışımı oxşa incə, sev incə,
Göz dəyməsin gözlərində güllər açan sevincə.
Belə vurğun baxmağını günah sayma bu gəncə,
Günəbaxan al günəşə heyran deyil, bəs, nədir?!

Əvəzimdə hər kim olsa yaşamaqdan bezərdi,
Gözləməkdən duyğularım köz-köz olub közərdi,
Daş olsaydı ömrü boyu həsrətinə dözərdi,
Əriməzmi bu Zəlimxan, insan deyil, bəs, nədir?!

BORC ALARAM

Baxışların şölə salsın üstümə,
Üzdən gülmə, ürəkdən gül, ürəkdən.
Ömrüm-günüm sevincinlə bəzənsə,
Qorxum olmaz qasırğadan, küləkdən.

Gözü nurlu, qəlbi təmiz olanda,
Ağlı dərya, eşqi dəniz olanda,
Canan gəlib candan əziz olanda,
Seçəmmirəm mən insanı mələkdən.

Yaraşıqdı gün bahara, gün yaya,
Çay yaranıb dağa-daşa ün yaya.
Matəm üçün gəlməmişəm dünyaya,
Sevinc üçün açılmışam bələkdən.

Nemətimiz şirin-şirin yeyilsin,
Bar altında bucağımız əyilsin,
Elə yaşa, sən köçəndə deyilsin,
Saray yapdı xoş arzudan, diləkdən.

Günəş ollam, sürünmərəm çən kimi,
Üyünmərəm dəyirmanda dən kimi.
Ölərəmmi, məni duysan mən kimi,
Bir ömür də borc alaram fələkdən!

GÖZLƏRİN

Nə sərin bulağı var,
Nə isti ocağı var,
Nə odlu qaynağı var,
Mənə baxan gözlərin!

Bəxtin uğuru billəm,
Gözümün nuru billəm,
Eşqini duru billəm,
Mənə baxan gözlərin!

Giləsində inci var,
Dağ boyda sevinci var,
Tanrı kimi gücü var,
Mənə baxan gözlərin!

Həm savabdı, həm günah,
Həm axşamdı, həm sabah.
Sehrinə bax, ay Allah,
Mənə baxan gözlərin!

Sevmişəm ədasını,
İçmişəm badəsini,
Mən alım qadasını,
Mənə baxan gözlərin!

BİR GÖZƏLƏ

Çəmən kimi, çiçək kimi, şeh kimi,
Təzə-tərdi, təzə-tərdi, təzə-tər.
Kimdən ötrü nə təhərdi bilmirəm,
Bizə tərdi, bizə tərdi, bizə tər.

Baxışları baharlanıb, yazlanıb,
Sazsızlar da onu görüb, sazlanıb.
Dodağında cilvələnib, nazlanıb,
Məzə tərdi, məzə tərdi, məzə tər.

Dedim, durum söz bağından söz dərim,
Gözəl gördüm, işıqlandı sözlərim.
Gözəlliyi görməsəydi gözlərim,
İz itərdi, iz itərdi, iz itər!

GÖZLƏYİRƏM

Endi yolların üstə,
Çən, səni gözləyirəm.
Düşdü qara tellərə,
Dən, səni gözləyirəm.

Özgə gülü dərmirəm,
Yaylıq üstə sərmirəm.
Torpağam, göyərmirəm,
Dən, səni gözləyirəm.

Qoyma ömür qısala,
Toy yerini yas ala.
Hamı çatdı vüsala,
Mən, səni gözləyirəm!

İTİRƏRSƏN, TAPAMMAZSAN

Kövrəyəm, dəymə qəlbimə,
Sındırarsan, yapammazsan.
Mənsiz eşqin Qıratını,
Heç bir yana çapammazsan.

Haya gəlməz nə haqq, nə din,
Çətin olar işin, çətin.
Ömrün boyu xəcalətin
Əllərindən qopammazsan.

Hədər vermə bircə anı,
Sənindir ruhu, canı.
Ucuz tutma Zəlimxanı,
İtirərsən, tapammazsan!

GETMİSƏN

Mən uca dağıydım, sən məğrur qaya,
Sən mənim sinəmdən qopub getmisən.
Yazın yağışıydın, yağdın üstümə,
Ruhuma, qanıma hopub getmisən.

Hicrannan ağladıb, həsrətnən sıxıb,
Buluddan yeriyib, şimşəkdən çıxıb,
Yellərnən dağıdıb, sellərnən yıxıb,
Sağımı, solumu çapıb getmisən.

Baxmaq baxışıma, gözümə qaldı,
Ümid səbrə qaldı, dözümə qaldı,
Yersiz özələnmək özümə qaldı,
Özünü özgədə tapıb getmisən.

Min yol oda salıb, oddan çıxardıb,
Gedişin dünyanı daddan çıxardıb.
Allahı, bəndəni yaddan çıxardıb,
Haqqın buyruğunda sapıb getmisən.

Bağrımın başını oyduqca oyub,
Eşqimdən bezikib, dünyamdan doyub,
Bir könül mülkünü xaraba qoyub,
Bir həsrət sarayı yapıb getmisən!

SƏNƏ

Bu qaynar ömrümü, coşqun ömrümü,
Bu çaşqın ömrümü, daşqın ömrümü,
Sevdanın ömrünü, eşqin ömrünü,
Sənə həsr eyləmək həvəsindəyəm!

Gələn günlərimi, saatlarımı,
Sabaha açılan qanadlarımı,
Bütün toylarımı, büsatlarımı,
Sənə həsr eyləmək həvəsindəyəm!

Açılan səhəri, gələn axşamı,
Süzülən badəni, içilən camı,
Yazılan kitabı, əriyən şamı,
Sənə həsr eyləmək həvəsindəyəm!

Günəşdən aldığım nuru, ziyanı,
Çiçəkdən aldığım rəngi, boyanı,
Torpaqdan aldığım gücü, mayanı,
Sənə həsr eyləmək həvəsindəyəm!

GÖZLƏMƏZ

İnnən belə bir vəfasız ovçuyam,
O dağlarda bir ov məni gözləməz.
Yəhər düşüb Qıratımın belindən,
Köhlən məni, cilov məni gözləməz.

Xəyalıma yamac düşüb, yal düşüb,
Çəmən düşüb, çiçək düşüb, bal düşüb.
Dəlidağın ürəyinə xal düşüb,
Kəpəz məni, Murov məni gözləməz.

Görüb vaxtın olmazını, oynunu,
Dağ əyilər, palıd bükər boynunu.
Baharında çiçək açmaz qoynunu,
Payızında qrov məni gözləməz.

Ay Zəlimxan, dərdin çətin dağılar,
Can yandırar bayatılar, ağılar.
Dağlarımı əsir aldı yağılar,
Əsir məni, girov məni gözləməz.

GƏLİN

(Dodaqdəyməz təcnis)

Səhər-səhər seyr eyləyək,
Dağda yatan qarı, gəlin.
Asta-asta yeriş yeri,
Gəl şad eylə yarı, gəlin.
Can dedikcə can eşidək,
Həyatından yarı, gəlin.
Ağdiyarın, ağsinənin,
Ələ dəysin narı, gəlin.
Yarıyaq, yaddan çıxaraq,
Hər dərdi, azarı, gəlin.

Çaylar keçək, yallar aşaq,
Qarış-qarış dağı gəzək.
Hər yanı seyrə çıxaq,
Yaxşı keçən çağı gəzək.
Ələ keçən deyil hər an,
Canın, qanın sağı, gəzək.
Dərələrdə çiçək dərək,
Ətirli yaylağı gəzək.
Elə ki, azca incidin,
Gedək sizə sarı, gəlin.

Qış ayları yaxşı keçər,
Şən gətirər yaza səni.
Din aşığın sinəsində,
Tel eyləsin saza səni.
Can alar canan yerişin,
Yaraşdırar naza səni.

Çətin, aşiq tay eyləyə,
Dəstə-dəstə qıza səni.
Dil ağızda qara yansın,
Desə sənə qarı, gəlin.

Nazlı yarı gəzən yerə,
Aşiq yana-yana gələr.
Yetişəndə həsrətinə,
İl xəstəsi cana gələr.
Hər çiçəkdən şirə çəkər,
Arı yenə şana gələr.
Əl dəyəndə əllərinə,
Həyat Zəlimxana gələr.
İki canın hərarəti,
Sel eyləyər qarı, gəlin!

TOXUMDAYAM, TORPAQDAYAM, ŞUMDAYAM

Ey şairi saraylara qısqanan,
Daxmadayam, saraydayam, damdayam.
Yağışımla, işığımla, odumla,
Toxumdayam, torpaqdayam, şumdayam.

Bahar vaxtı ana çölün havası,
Hər qadanı başımızdan sovası.
Bir saraydı hər qarışqa yuvası,
Əkindəyəm, səpindəyəm, şumdayam.

Şair olan neylər evi-eşiyi,
Başı üstə Tanrı çəkər keşiyi.
Mən özüməm Məcnunların beşiyi,
Zərrədəyəm, səhradayam, qumdayam.

Yağan yağış günahları yuyurmuş,
Şükür haqqa, Tanrı məni duyurmuş.
Allah özü mənə belə buyurmuş,
Bişmişdəyəm, yanmışdayam, xamdayam.

Həm sevincəm, həmi yasam, həm qəhər,
Həm komayam, həmi kəndəm, həm şəhər.
Günəş özü məndən doğur hər səhər,
Qəndildəyəm, çıraqdayam, şamdayam.

Heç olmadı haqq yolundan sapdığım,
Sazdı, sözdü yoğurduğum, yapdığım.
Gəl-gəl dedi ulu şeyxim – Tapdığım,
Yunus adlı bütövdəyəm, tamdayam.

Yuva mənəm, ocaq mənəm, yurd mənəm,
Nəsimitək dönməz mənəm, sərt mənəm.
Füzulinin özü boyda dərd mənəm,
Bağdaddayam, Hələbdəyəm, Şamdayam.

Sular kimi ax, məndə gör dünyanı,
Şimşək kimi çax, məndə gör dünyanı,
Gözün varsa, bax, məndə gör dünyanı,
Cahandayam, Cəmşiddəyəm, Camdayam.

2007, 23 mart

NAĞIL KİMİ GƏLİR MƏNƏ BU DÜNYA

Nağıl danışardı nənəm gecələr,
Nağılla dolardı sinəm gecələr,
Uzun illər keçib aradan indi.
Bütün olmuşları, olacaqları,
Nağıla döndərib Yaradan indi,
Nağıl kimi gəlir mənə bu dünya.

Ağ qoç aydınlığa atardı məni,
Qara qoç atardı zil qaranlığa.
Nağıllı günlərim qayıdan deyil,
Qayıdıb yanğımı soyudan deyil,
Nağıl kimi gəlir mənə bu dünya.

Tanrım, bu mənəmmi, mən deyiləmmi,
Bu "mən" burdadırsa, o "mən" hardadır?
Qoynunda üzdüyüm dəli dağ çayı,
Qoynunda gəzdiyim çəmən hardadı?
Nağıl kimi gəlir mənə bu dünya.

Bu dünya nə qədər böyükmüş, Allah,
Bir dərəm, bir dağım var indi mənim.
Bir dəli köhlənim, bir düzəngahım,
Bir yaşıl yaylağım var indi mənim.
Yaşılım sarıya çevrilir indi,
Gözəlim qarıya çevrilir indi,
Nağıl kimi gəlir mənə bu dünya.

Qayğılar içində batdıq, talandıq,
Fikrimiz dağıla-dağıla qaldı.

Ay nənəm, hardasan, yetir özünü,
Yenə ümidimiz nağıla qaldı,
Nağıl kimi gəlir mənə bu dünya.

Böyüklər ürəkdən sevinə bilmir,
Uşaq sevincimi qaytaran ola.
Dəniz istəmirəm, dalğa gəzmirəm,
Bulaq sevincimi qaytaran ola.
Ömür vaxt əlində talanmış, demək,
Gördüyüm nə varsa, yalanmış, demək,
Nağıl kimi gəlir mənə bu dünya.

Ay geri boylana, il geri dönə,
Diz nənəmdən ola, baş məndən ola.
Söz-söhbət uzana xoruz banına,
Dinləmək həvəsi kaş məndən ola.
Heyif, ol dediyim olası deyil,
Kövrək uşaqlığım, dəli gəncliyim,
Mənimlə bir yerdə qalası deyil.
Ürək hər nisgili çəkir özünə,
Hər şeyi düşünən ağıl oluruq.
Şirin nağıllara çox qulaq asdıq,
Dönüb özümüz də nağıl oluruq,
Nağıl kimi gəlir mənə bu dünya.

VAR

Hər gün yer üzünü gözəlləşdirən,
Tanrının müqəddəs mələkləri var.
Dünyanı döndərər xarabalığa,
Şeytanın min cürə kələkləri var.

Bəxti gözəl istər, üzü ağ istər,
Fikri sağlam istər, ruhu sağ istər,
Yarada-yarada yaşamaq istər,
İnsanın nə gözəl diləkləri var.

Köklər zədələnsə, quruyar budaq,
Eşqin nəğməsini oxumaz dodaq.
Kimidən baş gedər, kimidən papaq,
Zamanın sərt əsən küləkləri var.

TANRIM

Həmişə yüksəliş həsrətindəyəm,
Məni yüksəklərə tuş eylə, Tanrım!
Bir zirvə yanında zirvəyə döndər,
Bir qartal yanında quş eylə, Tanrım!

Yandır, közə döndər, kömürə döndər,
Qayalar üstündə mamıra döndər.
Məni daşa döndər, dəmirə döndər,
Bir qala bürcündə daş eylə, Tanrım!

Qovuşdur ilhamı qaynar çağına,
Qaldır söz gəmimi Ağrı dağına.
Döndər misraları dağ bulağına,
Sən də o çeşmədən nuş eylə, Tanrım!

Qəlbində ləkə yox, ruhunda zədə,
Dədələr zirvədi, zirvələr dədə.
Məni uca saxla öldürəndə də,
Belə bir müqəddəs iş eylə, Tanrım!

SƏNİNKİDİR

Boylan, başın üstə yüksəkliyə bax, insan,
Əllərin çatmasa da, o uzaq sənindir.
Yeridiyin yerləri yerişinlə möhürlə,
Ayağın altındakı bu torpaq sənindir.

Doğan Günəş, yağan qar qismətədi, baxtadı,
Ömrün, günün yolunda gah bürkü, gah şaxtadı.
Beşiyində ağacdı, tabutunda taxtadı,
Bu palıd sənindir, o qovaq sənindir.

Bir alın yazısı var hər kəsdə, hər adamda,
Ölməz bir kimsə yoxdur, ömür bişmişdə, xamda.
İstər sarayda yaşa, istər daxmada, damda,
Axırda məzar adlı dar otaq sənindir.

GECİKDİRMƏ

Səhərləri açan kişi,
Aç səhəri, gecikdirmə.
Üfüqlərdən üstümüzə
Yağan zəri gecikdirmə.

Gecə laldı, qaranlıq kar,
Fikrim geniş, meydanım dar.
Səhərlərə səfərim var,
Bu səfəri gecikdirmə.

Sən balıq ver, tilov məndə,
Sən çınqı ver, alov məndə.
Sən bir at ver, cilov məndə,
Ağ kəhəri gecikdirmə.

Ölüm varsa, qalım yoxdur,
Ölüm qədər zalım yoxdur,
Bəd xəbərə halım yoxdur,
Xoş xəbəri gecikdirmə.

Bir gün toya, bir gün yasa,
Fürsət azdı, ömür qısa.
Dediklərim olmadısa,
Ver zəhəri, gecikdirmə.

TANRI HƏDİYYƏSİ

Açın mənim qəlbimi, oxuyun kitab kimi,
Orda ilham adında cilvəli bir pəri var.
Təkcə nazlanmaq deyil onun işi, peşəsi,
Qayğıların içində min bir dərdi-səri var.

Duyğuların, hisslərin gah zilidi, gah pəsi,
Çeşmələrin, çayların, bülbüllərin səsidi.
İlham nə yaradırsa, Tanrı hədiyyəsidir,
Qələm adlı qızılı, dəftər adlı zəri var.

Buluddan sıyrılan Ay, haqdan yanan şam mənə,
Yuxusuz gecələrim ləzzət mənə, tam mənə.
Mən ona can verməsəm, can verməz ilham mənə,
Orda əlin qabarı, orda alnın təri var.

Söz qalxar qatar-qatar, söz gələr dəstə-dəstə,
Hər qatarın ruhunda təzə səs, təzə bəstə.
İlahi sovqatında, Allah verən nəfəsdə,
Yerlərin ağırlığı, göylərin ləngəri var.

GƏLİB

Üzdən ağladığım yadıma gəlmir,
Ağlasam, göz yaşım ürəkdən gəlib.
Sevgim də, sözüm də, məhəbbətim də,
Nə varsa beşikdən, bələkdən gəlib.

Gah sola boylandım, gah da ki, sağa,
Yeridim başıma qar yağa-yağa.
Qalxa bilmişəmsə uca bir dağa,
Bu, təmiz arzudan, diləkdən gəlib.

Varlığım titrəyər, ürəyim əsər,
Qəmli söz qəlbimi doğrayar, kəsər.
Qəriblər dilində saldığım əsər,
Durnanın saldığı lələkdən gəlib.

Ancaq özümündü itən sözlərim,
Haqqındı göyərib bitən sözlərim.
Yerin qulağına çatan sözlərim,
Göyün üzündəki lələkdən gəlib.

Sazla havalıyam, sözlə diriyəm,
Sevəndə bildim ki, eşqin piriyəm.
Xəstə Qasımların mən də biriyəm,
Mənə bu xəstəlik fələkdən gəlib.

XATİRƏ

Bir körpə var idi Kəpənəkçidə,
Sevgisi dumduru bir bulağıydı.
Hələ qayğılarla yüklənməmişdi,
Hələ qayğılardan çox uzağıydı.

Məhəbbət dərində, istək dərində,
Hərə öz işində, dərdi-sərində.
Nənələr, babalar həndəvərində,
Bir evin gözündə şam çırağıydı.

Hələ içəridən yeyilməmişdi,
Köntöy baxışlarla döyülməmişdi.
Hələ yetimliyə əyilməmişdi,
Ana gümrahıydı, ata sağıydı.

Elə bil dünəndi çəndə itdiyi,
Gözə görünmədi vaxtın ötdüyü.
Görüb götürdüyü, gəlib getdiyi,
Qışda aranıydı, yayda dağıydı.

Yamyaşıl çəmənlər nəşəsi idi,
Bulaqlar aynası, şüşəsi idi.
Hər səhər gül dərmək peşəsi idi,
Güllər qucağında bir qucağıydı.

Çox zaman gecələr çöldə yatardı,
Şehə bələnərdi, suya batardı.
Tonqal qalayardı, ocaq çatardı,
Özü də bir parça od-ocağıydı.

Çiçəyə baxardı, çiçəklənərdi,
Göyçəyə baxardı, göyçəklənərdi.
Mamırlı daşlara dirsəklənərdi,
Üst-başı həmişə toz-torpağıydı.

O günlər əlindən tutası deyil,
Əli o günlərə çatası deyil.
Onda dörd övladın atası deyil,
Zəlimxan utancaq bir uşağıydı.

BU SAZ KİMİ

Təpə-dırnaq dərd oluram, vərəm oluram,
“Dilqəmi”yə qanad verən bir qəm oluram,
Qərib olur, Məcnun olur, Kərəm oluram,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Mən bu sazın dili kimi, əli kimiyəm,
Hər xalında məcnunlaşan dəli kimiyəm.
Mən bu sazdan yapışanda zəli kimiyəm,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Ciyərimiz dərd adlanan bir şişdən keçib,
Tilsimdəyik, tilsimimiz keşişdən keçib.
Saz neyləsin, baxıram ki, iş işdən keçib,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Çeşmə coşur, çay hönkürür, bulaq oxuyur,
Könül dinir, dil tərpənir, dodaq oxuyur,
Kökün şirin nəğməsini budaq oxuyur,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Dumana bax, qəlbim onu qalxan ah bilər,
Şah Xətai nələr çəkib, onu şah bilər.
Bu saz nədi, bəndə bilməz, bir Allah bilər,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Tanrı bizə bu dünyanı tamaşa verib,
Eşq odunu gah ürəyə, gah başa verib.
Heç kəs mənim dərdim ilə baş-başa verib,
Bu saz kimi göz yaşları axıda bilmir,
Heç nə məni bu saz kimi oxuda bilmir.

XATİRƏLƏR

İlk eşqimiz, sevdamız təbiətin nəşəsi,
Bizə gəl-gəl deyərdi dağı, daşı, meşəsi.
Güldürüb ağlatmaqdı yaradanın peşəsi,
Çiçəklər ətir saçar, ulduzlar nur ələrdi,
Bugünkü qazancımız ancaq xatirələrdi.

Zirvədə bir qartalın sorağını alınca,
Zirvələrə çıxardıq son gücümüz qalınca.
Arzumuz, istəyimiz gözəlliyin dalınca,
Ceyran kimi sıçrayar, quzu kimi mələrdi,
Bugünkü qazancımız ancaq xatirələrdi.

İsti arandan qaçıb göy yaylağa çıxardıq,
Daşdan-daşa dırmaşar, dağdan-dağa çıxardıq.
Bir küncə çəkilərdik, bir qırağa çıxardıq,
Xəlvəti görüşlərə şux gözəllər gələrdi,
Bugünkü qazancımız ancaq xatirələrdi.

Nə qəlbini inildət, nə ruhunu əz daha,
Nə soruş, nə soraqlaş, nə axtar, nə gəz daha.
Getdi cavanlığımız, geriyə dönməz daha,
Nərəmiz, harayımız dağı-daşı dələrdi,
Bugünkü qazancımız ancaq xatirələrdi.

Ömür adlı sapdakı gənclik adlı incini,
Uşaqlığı, gəncliyi, gəncliyin sevincini,
Bir nəslin neçə-neçə qocasını, gəncini,
Gör nələr itirmişik, əldən gedən nələrdi,
Bugünkü qazancımız ancaq xatirələrdi.

Çəkənlərin çiyninə dərd adlı şələ düşdü,
Ürəyə qəm, cana od, ruha vəlvələ düşdü.
Allahın bölgüsündə bizimki belə düşdü,
İlk payımız sevincsə, son payımız kədərdi,
Hər şey keçib gedəcək, qalan xatirələrdi!

ŞAİRİN

Qibləsi fikirdi, tanrısı sözdü,
Allaha doğrudu yönü şairin.
Ürəkdən su içər kövrək arzular,
Sünbülə çevrilər dəni şairin.

Götürər mayanı kökdən, budaqdan,
Sözü zaman-zaman düşməz dodaqdan,
Zaman kar olanda iki qulaqdan,
Batar öz içində ünü şairin.

Qəlbinə dünyanın çökər zülümü,
Daşıyar qayğını, çəkər zülümü.
Yalan qənimidi, böhtan ölümü,
Ancaq həqiqətdi dini şairin.

Onun çəkmədiyi ağrı-acı yox,
Sözündən bahalı başın tacı yox.
Göydəki Günəşə ehtiyacı yox,
İlhamından doğar günü şairin.

Yanğıdan yaranıb, sevgidən qopub,
Könül yandırmayan bayatı yoxdu.
Sevgisiz, ilhamsız, sözsüz, nəğməsiz,
Şairin bircə gün həyatı yoxdu.

İSTƏK

Məndən nə istərsən desə Allahın,
Sevməyə, duymağa istedad istə.

Yerləri gəzməyə yorulmaz ayaq,
Göyləri qucmağa qol-qanad istə.

Zəncirdən aralı, qəfəsdən uzaq,
Coşan duyğuları sən azad istə.

Acılıq heç kəsə qismət olmasın,
Şirin nemət istə, şirin dad istə.

Təmizlik içində allahlıq yaşar,
Tanrıdan istəsən, təmiz ad istə.

GƏLDİM

Mən yerin altdan çıxdım,
Mən yerin üstdən gəldim.
Bir ucu göyə bağlı,
İlahi səsdən gəldim.

Ruhum halal mayadan,
Mayam nurdan, ziyadan.
Dağdan, daşdan, qayadan,
Dəmirdən, misdən gəldim.

Haray sazı, ün sazı,
Ömür sazı, gün sazı,
Sinəmdə türkün sazı,
Dilimdə dastan gəldim.

Mənəm haqqın aşığı,
Söz haqqın yaraşığı.
Eşqim Allah işığı,
Haqq adlı dostdan gəldim.

Gözüm nəmin yuvası,
Könlüm qəmin yuvası,
Can sitəmin yuvası,
Ələmdən, yasdan gəldim.

Suya döndüm içildim,
Yola döndüm keçildim,
Gülə döndüm açıldım,
Oldum gülüstan, gəldim.

Buludlardan üzüldüm,
Çiçəklərə düzüldüm,
Füzulidən süzüldüm,
Axdım Yunusdan, gəldim.

HAQQIN DİLİ

Dilim-dilim dillər açır,
Ocağın ocaq dili var.
Ağacın ağac ləhcəsi,
Torpağın torpaq dili var.

Könüllərin eşqinə bax,
Duyğuların məşqinə bax,
Sinələrdə daşqına bax,
Sevginin bulaq dili var.

Dərd danışar ah dilində,
Zor danışar şah dilində.
Danışaq Allah dilində,
Yaradanın haqq dili var.

ARZU

Nə ömür tükənə, nə yol tükənə,
Yeriyib gedəsən dağlara doğru.
Zaman əllərində yumağa dönə,
Keçəsən çağlardan çağlara doğru.

Aşılmaz sədləri bir-bir aşasan,
Bir gün qaynayasan, bir gün daşasan.
Getdikcə özünə yaxınlaşasan,
Yatasan köklərə, tağlara doğru.

Təzə cığır sala, iz tuta insan,
Yolu da yol kimi düz tuta insan,
Üz qoya, Allaha üz tuta insan,
Gedə dirilərə, sağlara doğru.

GEDƏRSƏN

İnsan oğlu, iki yol var qarşıda,
Bir gün toya, bir gün yasa gedərsən.
Səhərindən axşamına dünyanın,
Gözdə eynək, əldə əsa gedərsən.

Səksən yaşa, doxsan yaşa, yüz yaşa,
Bitər bir gün sən baxdığın tamaşa.
Yer üzünü dolansan da baş-başa,
Qəbir evinə yolu qısa gedərsən.

ZARAFAT EYLƏMƏ

Zarafat eyləmə, qurbanın olum,
Bu dünya zarafat meydanı deyil.
Qarışqa yerişi rahat yerişdi,
Bu meydan köhlən at meydanı deyil.

Oynadıb çox şeyi umar, oynama,
Etsə də ruhunu xumar, oynama,
Sən bu qumarbazla qumar oynama,
Zarafat gəlməsin sənə bu dünya.

Çox yerdə qəbrini qazan olacaq,
Başın qaynamaqdan qazan olacaq,
Sanma yaşamağın asan olacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Yoxsulluq yoxsulun bağrına oxdu,
Mədəsi toxların məzəsi toxdu.
Fil var, qarışqaca hörməti yoxdu,
Zarafat gəlməsin sənə bu dünya.

Çox yerdə məkrli oyun olacaq,
Şir, pələng çevrilib qoyun olacaq,
Hələ neçə dəfə toyun olacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Ömrünü qar yeyib, qış aparacaq,
Xırmandan dənini quş aparacaq,
Dünyadan əlini boş aparacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Qeybətin quyusu, hiylənin toru,
Sənə diri-diri göstərər goru.
Başın var, başsızdan başını qoru,
Zarafat gəlməsin sənə bu dünya.

Şeytan dura-dura şərlənər dəvə,
Qatır quyruğunda hərlənər dəvə.
Kinindən yıxılar, tirlənər dəvə,
Zarafat gəlməsin sənə bu dünya.

Muğamı ağlamaq, valı ağlamaq,
Valın da qırılmış halı ağlamaq.
Fışqırıq çalmağın dalı ağlamaq,
Zarafat gəlməsin sənə bu dünya.

Yasın yeddisi var, üçü, qırxı var,
Qəbir yerinin də haqqı, nırxı var,
Ölümdən sonra da min cür qorxu var,
Zarafat gəlməsin sənə bu dünya.

Ürəyə çəkilən dağdı, düyündü,
Hər gün xırdalanan ömürdü, gündü,
Gör bu dəyirmanda kimlər üyündü,
Zarafat gəlməsin sənə bu dünya.

Zəlimxan, günahın yeddi qat olar,
Həyatın qan dolu bir həyat olar.
Zarafat eyləsən, şahın mat olar,
Zarafat gəlməsin sənə bu dünya!

1996, 26 may

ŞİLLƏNİN SƏSİ

Qanımda anamın qaynar nəfəsi,
Qəlbim oğulların sırasındadı.
Atamın vurduğu şillənin səsi,
Şeirimin ən güclü misrasındadı.

DÖYÜŞƏN TÜRK, OYANAN TÜRK, QALXAN TÜRK

Ayaz nədir, şaxta nədir, bürkü nə,
Nə qorxudar haqq yolunda türkü, nə?
Birə düşsün düşmənlərin kürkünə,
Dəniz kimi dalğalan, türk, çalxan, türk,
Döyüşən türk, oyanan türk, qalxan türk!

Silkələdin göyün yeddi qatını,
Qucaqladın doğu ilə batını.
Dur yəhərlə ərənlərin atını,
Dəniz kimi dalğalan, türk, çalxan, türk,
Döyüşən türk, oyanan türk, qalxan türk!

Sabaha bax, əsr səni gözləyir,
Qala səni, qəsr səni gözləyir.
Məhkum səni, əsir səni gözləyir,
Dəniz kimi dalğalan, türk, çalxan, türk,
Döyüşən türk, oyanan türk, qalxan türk!

Qılınmasa başımızın çarası,
Silinərmi üzümüzün qarası,
Altay ilə Anadolu arası,
Dəniz kimi dalğalan, türk, çalxan, türk,
Döyüşən türk, oyanan türk, qalxan türk!

Döyüşdədir ağlın, huşun yolları,
Döyüşdədir uçan quşun yolları,
Döyüşdədir qurtuluşun yolları,
Dəniz kimi dalğalan, türk, çalxan, türk,
Döyüşən türk, oyanan türk, qalxan türk!

Əritmisən əriyəntək qar suda,
Romanı da, Bizansı da, Farsı da.
Qala kimi təzədən qur Qarsı da,
Dəniz kimi dalğalan, türk, çalxan, türk,
Döyüşən türk, oyanan türk, qalxan türk!

Gilqamışdan, Alpamışdan, Manasdan,
Geri qalmaz dastan olsun bu dastan.
Qurtar bizi bu həsrətdən, bu yasdan,
Dəniz kimi dalğalan, türk, çalxan, türk,
Döyüşən türk, oyanan türk, qalxan türk!

Hardan hara getdiyini bilən yol,
Üfüqlərə qovuşanda gülən yol,
Atilladan Atatürkə gələn yol,
Qalxan olsun, başın üstə, qalxan, türk!
Çanaqqala Malazgirdin davamı,
Türk deyil ki, öz qanından qorxan türk!
Təmiz süddən mayalansın, doğulsun,
Mete kimi, Oğuz kimi bir xan, türk!
Yaddaşında sıralansın, anılsın,
Ərtoğrul bəy, Osman Qazi, Orxan türk!
Yenə tanrı dağlarını qucaqla,
Dağlar olsun səngərin, türk, arxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!

HƏR İNSAN BİR PARÇA QUM DƏNƏSİDİR

Dünyada bir nəfər insan qalmasa,
Demə, kim danışıb, kim dinəsidir.
İnsanın dərdini danışmaq üçün,
Qaya dillənəsi, qum dinəsidir.

Qat-qat bürünsə də dağlar dumana,
Dərdini çatdırır zaman zamana.
Qarğı neyə dönər, qamış kamana,
Pərdə dil açası, sim dinəsidir.

Vaxt bir ovçudursa, ov olar insan,
Vaxtın çaxmağında qov olar insan.
Zamanın ovcunda ovular insan,
Hər biri bir parça qum dənəsidir.

AĞDAM QARABAĞIN TOY OTAĞIYDI

I

Hər şirin zəngulə, hər şirin nəfəs,
Yeni bir dünyaydı, təzə bir həvəs.
Arifin içindən gəlirdi bu səs,
Ağdam Qarabağın toy otağıydı.

Coşar bəstəçilər, dinər bəstələr,
Nə muğam susardı, nə şikəstələr.
Kəmərə sığmadı kəmərbəstələr,
Ağdam Qarabağın toy otağıydı.

Qədirin dəryada gəmisi vardı,
Hələ biçilməmiş zəmisi vardı.
Hamı atalıydı, hamı arxalı,
Hamının dayısı, əmisi vardı,
Ağdam Qarabağın toy otağıydı.

Tək-tək yox, coşardı hər adam belə,
Közə çevrilərdi qar adam belə.
Xan qızı dinəndə, Xan oxuyanda,
Saraya dönərdi qaradam belə,
Ağdam Qarabağın toy otağıydı.

Sevənlər dodağa söz əridərdi,
Qızlar oda dönər, buz əridərdi.
Baharın günəşi əritməyəni,
Bircə baxışıyla qız əridərdi,
Ağdam Qarabağın toy otağıydı.

II

Nə qızıl üzəngi, nə gümüş yəhər,
Nə çapan oğul var, nə qaşqa kəhər.
Yediyi zəhrimar, içdiyi zəhər,
Ağdam Qarabağın yas otağıdı.

Ocağı alışmır, odu görünmür,
Qavalı, kamanı, udu görünmür.
Zeynal yaman küsüb, Xudu görünmür,
Ağdam Qarabağın yas otağıdı.

Yığılın bir səmtə, araya gəlin,
Bir məlhəm axtaraq yaraya gəlin.
Ay Famil, ay Şahmar, haraya gəlin,
Ağdam Qarabağın yas otağıdı.

Bəxt tərsə fırlanan təkərə dönüb,
O boyda məmləkət şikara dönüb,
Şahbulaq şaha yox, nökərə dönüb,
Ağdam Qarabağın yas otağıdı.

Qəlbimə bir qəmli dastan gəlibdi,
Ağrısı düşməndən, dostdan gəlibdi,
Hələ ki, bizimki yasdan gəlibdi,
Ağdam Qarabağın yas otağıdı.

Min-min qonağının biri Zəlimxan,
Seçmir öz gözündə tiri Zəlimxan.
Bu ağır həsrətdən utanıb ölmür,
Hələ də diridi, diri Zəlimxan,
Ağdam Qarabağın yas otağıdı.

UNUTMA

Ovçu, ova çıxırsan,
Silahını unutma!
Bir damla qan axıtsan,
Günahını unutma!

Dərvişəm deyən kişi,
Dərvişlik paltarını
Əyninə geyən kişi,
Hara gedirsənsə, get,
Yaradanın, tanrının
Dərgahını unutma!

Axşamdan yatan oğul,
Bal kimi yuxuların
Ətrinə batan oğul,
Elə ayıl, elə yat,
Zülmət gecələrdə də
Davam eyləsin həyat.
Axşamını fikirləş,
Sabahını unutma!

Ey dilində həmişə,
Dedi-qodu gəzdirən,
Qəlbində iblis məkri,
Şeytan odu gəzdirən,
Danışanda həmişə
Başının üstünə bax,
Nəyi unutsan, unut,
Allahını unutma!

İÇİNDƏ ÇƏK BU DƏRDİ

"Dərdim, odum var", – deyib,
Haylama, haraylama.
İçində çək bu dərdi,
Heç bir kəsə paylama.

Söykə qəmli başını
Bir divarın daşına.
Qəlbindən keçənləri
Söyləmə sevgilinə,
Danışma qardaşına.

Hamıya vermir Allah,
Dərdi çəkənə verir.
Sevdiyinə Yaradan
Dərddən başqa nə verir,
İçində çək bu dərdi.

Min dərdin əvəzidi,
Baxma ki, birdi dərdin,
Sirri Allah açmayıb,
Sən açma, sirdi dərdin.
Torpaqdı son əlacı,
Sonu qəbirdi dərdin,
İçində çək bu dərdi.

Son dəfə ah çəkəndə,
Ahından haqq biləcək.
Bilən bircə sən idin,
Bir də torpaq biləcək,
İçində çək bu dərdi.

TANRIM,
MƏNİ ŞƏHİD EYLƏ

Yazma mənim qismətimə nəs taleyi,
puç günüm,
Güllələrdən qaçan günü – günah günüm,
suç günüm.
Ölüm nədir – yer üstündən yer altına
köç günüm,
Tanrım, məni şəhid eylə bu torpağın
yolunda!

Ürəyimdə şimşək çaxsın, gözlərimdə
ildırım,
Nəfəsimlə toza dönsün uçrum, yarğan,
sıldırım.
Qayaları bayraq kimi başım üstə
qaldırım,
Tanrım, məni şəhid eylə bu torpağın
yolunda!

Ac qurd kimi daraşdılar, o soxuldu,
bu cumdu,
Bilmədilər insan mənim Allahımdı,
gücümdü.
Son saatım, son xilasım, son əlacım
hücumdu,
Tanrım, məni şəhid eylə bu torpağın
yolunda!

Üç yüz ildi aralanmır məni tapan
bir bəla,
Yezid, Şümür hökmündədir göydən yağan
hər bəla.
Kərbəlanın adı çıxıb, mənəm əsil
Kərbəla,
Tanrım, məni şəhid eylə bu torpağın
yolunda!

Özümə bir dən olmuşam, özgəsinə
bir zəmi,
Qorxum yenə əsarətdir, yerim yenə
zirzəmi.
Çaşdırıblar tariximi, tarixçimi,
mirzəmi,
Tanrım, məni şəhid eylə bu torpağın
yolunda!

Qəzəbimi şəhid eylə qeyrət kimi
cücərsin,
Gəncliyimi şəhid eylə, şəhidliyi
becərsin.
Oğul gərək varlıq üçün yox olmağı
bacarsın,
Tanrım, məni şəhid eylə bu torpağın
yolunda!
Bu məsləkin, bu millətin, bu bayrağın
yolunda.

DÜNYA VƏ BİZ

Qoca dünya dolaşdırır addımbaşı,
Əvvəl-əvvəl sığal çəkir, öyür bizi.
Kişiləşib, dizlərimiz bərkiməmiş,
Zopasıyla, şallağıyla döyür bizi.

Həyat dəniz, ömür qayıq, can avardı,
Nə dərd varsa, canı tapdı, cana vardı.
İnsan quzu, vaxt kəmfürsət canavardı,
Kəsir-tökür, loğma-loğma yeyir bizi.

Gəlişimiz işıq verdi bu dünyaya,
Gedişimiz döndü yasa, döndü vaya.
İnsanların biri palıd, biri qaya,
Əyilmirik, zaman özü əyir bizi.

HARAY

Könül açan, göz oxşayan gölə nə var,
Göz yaşından meydan quran göllər haray.
Dağ başından axıb gedən selə nə var,
İçimizdən axıb gedən sellər haray.

Ömrün-günün yüz bərəsi, yüz bəndi var,
Hər havanın öz misrası, öz bəndi var.
Saz qırılsa, bağlamağa sazbəndi var,
Könlümüzdə kökdən düşən tellər haray.

Andır qalsın ayrılıqdan gələn dərdi,
Bizi nəmli paltar kimi yudu, sərdi.
Saça sığal çəkən günü bəxtəvərdi,
Yas günündə saçlar yolan əllər haray.

Çox arzular çıxa bilmir qışdan yaza,
Yolu kəsir vaxtsız ölüm, qəfil qəza.
Gül bitirir bağçamızı qaza-qaza,
Qəbrimizi qazıb-tökən bellər haray.

ÖLÜMƏ SƏFƏRBƏR OLMAYAN KİŞİ

Ölümə səfərbər olmayan kişi,
Ölüm öz işini görəndə necə?
Özü istədiyi gündə, saatda,
Gəlib öz barını dərəndə necə?

Qaça bilirsənmi bircə günündən?
Qaça bilirsənmi bircə anından?
Qaça bilirsənmi vaxtın, zamanın
Ən ağır, ən çətin imtahanından?

Sorğuya-suala hazır olmasan,
Vaxt sənin üstündən qara xətt çəkər.
Ölümə səfərbər olmayan kişi,
Ölüm qarşısında xəcalət çəkər.

Tale bu milləti çəkir sınağa,
Sözünü kim ötkəm, kim yavaş deyir.
Hərə bir arzunun sevdasındadı,
Kim barış istəyir, kim savaş deyir.

Savaş istəyənin içində hünər,
Barış istəyənin içində qorxu.
Qələbə hansının payına düşər,
Görək kim birinci hoppanır arxı.

Ölümə hazır ol, çəkilsin geri,
Əzrayıl yaxına gələ bilməsin.
Ölümə hazır ol, yağı tamahı
Gəlib torpağını bölə bilməsin.

Ölümə hazır ol, çax şimşək kimi,
İçində qəzəbin selləri daşsın.
Göylər elə yansın, elə parlasın,
Heyrətdən düşmənin gözü qamaşsın.

Vicdanın əzabı şırımlar açar,
Ürəkdə, beyində, üzdə, sifətdə.
Ölümə səfərbər olmayan kişi,
Gərək yaşamasın bu məmləkətdə.

HEYİF GÖY ÜZÜNƏ, HEYİF GÖYLƏRƏ

Göylərin bakirə vaxtı var idi,
Göyün də göy kimi baxtı var idi.
Allahın yanında xətri-hörməti,
Peyğəmbər yanında taxtı var idi.
İbrahim dilində, İsa dilində,
Məhəmməd dilində, Musa dilində
Göydən "İncil" gələr, "Tövrat" gələrdi,
Quran ayəsinin hər gəlişiylə,
Dünyaya təzə bir həyat gələrdi.
Hələ göy üzünə insan oğlunun,
Raket zərbələri tuşlanmamışdı.
Hələ göy üzünə allahsızların,
Qəfil hücumları başlanmamışdı.

"Ağılsız köpəklər ulduza hürüb",
Göy üzü bu qədər daşlanmamışdı.
Min il gözləsən də, bu yer üzünə
Daha göy üzündən bir ayə gəlməz.
Tək bircə nöqtəsi, vergülü belə,
Bir günə, həftəyə, bir aya gəlməz.
Nahaqdan Allahı çağırmaq əbəs,
İnsanı şeytandan ayırmaq üçün,
Allahın özü də haraya gəlməz.
Şeytanın fitvası tutub dünyanı,
Çirkab olan yerdə Allah görünməz.
İnsanın başına öz əməlləri,
Corab olan yerdə Allah görünməz.
Şeir də, ayə də, nəğmə də, söz də,
Göylərin durulan yerindən gələr,

İnsanın ilahi bir məhəbbətə,
Göylərə vurulan yerindən gələr.
Heyif, göylərdəki büllur saflığa,
Heyif, ləkələnmiş bu şəffaflığa.
Bir dəfə deməklə qəlbim soyumaz,
Bəlkə, milyon kərə,
bəlkə, min kərə,
Heyif, göy üzünə,
heyif göylərə.

ALLAHLARIN DAVASI

Allah baxır yuxarıdan,
Bəndə baxır aşağıdan.
Min illərdi azad olmur,
Su zəhərdən, aş ağıdan.

Allah baxır bəndələrə,
Bəndələr Allaha baxmır.
Dünən bir az baxan vardı,
Bu gün dönüb daha baxmır.

Bu gün kimi dindirirsən,
Öz-özümə şaham deyir.
Göydə unudub Allahı,
Mən özüm Allaham deyir.

Odumuz da, havamız da,
Suyumuz da zəhərlənib.
Yasımız da çirkab olub,
Toyumuz da zəhərlənib.

Bu gün hər bir kəsin başı,
Bir vəzifə havasında.
Allah özü yaddan çıxıb,
Allahların davasında.

GİROV

“Gir” ovla deməkdir, bəlkə də, bu söz,
Girdilər dağ vurub, daş ovlamağa.
Sərhədçi mürgüdə, gözətçi kefdə,
Nə var bu yerlərdə quş ovlamağa.

Düyüsü bizimki, yağı bizimki,
Zəhəri səpdilər aşımız altda.
Başımız üstündə baş olmaq üçün,
Balıncı qoydular başımız altda.

Ovuna çıxdılar qeyrətimizin,
Ovuna çıxdılar şərəfimizin.
Bizim tərəflərin bir yanı getdi,
Sağ yeri qalmadı tərəfimizin.

Ceyran bulağım da, Taxta düzüm də,
Ovçular əlində bir ovdur hələ.
“Külli-Qarabağın abi-həyatı”,
Hiylələr torunda girovdur hələ.

Min aqil kişinin belini qırdı,
Bir xamın meydanda gədələnməsi.
Batmış bir şəhərdən daha ağırdı,
Millətin ruhundan zədələnməsi.

Arxa çevirmişik ocaq yerinə,
Özgə havalara uyub gedirik.
Gələn nəsillərə torpaq yerinə,
Bir torpaq davası qoyub gedirik.

Hələ Naxçıvana qatar işləmir,
Hələ Naxçıvanın yolları bağlı.
Hələ arzusunun yolu çəpərli,
Hələ ümidinin qolları bağlı.

Yerdə yerimizi dar eylədilər,
Bu gün Naxçıvana göynən gedirik.
Karvanlar gedərdi, köçlər gələrdi,
İlahi, gör indi nəynən gedirik.

Gözümüz çox şeyi görə bilmədi,
Zamanın koruyuq, qarovlarıyıq.
Girovumuz təkcə Qarabağ deyil,
Aranlı-yaylaqlı, elli-obalı,
Hamımız düşmənin girovlarıyıq.

GÜLMƏZ

Qəlbinə qan damanların üzləri gülməz,
Axşamları, gecələri, gündüzləri gülməz.

Ovçuya ov, qurda quzu, yemsizə yem olanların,
Güləni tək-tək olar, minləri, yüzləri gülməz.

Heç kəsin torpağı inləməsin kafər əlində,
Dağları dağ-dağ olan xalqın düzləri gülməz.

Siyasətin, xəyanətin qurbanı olan kəslər,
Özgələri güldürər üstünə, özləri gülməz.

İllər boyu içərisi çürüyən kimsələrin,
Kirpikləri qan-yaş tökər, gözləri gülməz.

BİR NİHİLİSTƏ

Gündüzə gecə de, səhərə axşam,
Nurlu dan yerini dan, inkar eylə.
Geniş üfüqlərə qoz qabığı de,
Yeri də, göyü də, bizə dar eylə.

Böyüyə iblis de, kiçiyə şeytan,
İblislər içində mələyi görmə.
Ölümlə ticarət sevdasına gir,
Kəfəni görsən də, mələyi görmə.

Qızıl günəşə də qara bulud de,
Qaradan danışmaq adətin oldu.
Yaman danışmağın kamil ustası,
Yaxşı danışmağın çox çətin oldu.

Dilinin əzbəri şər ilə böhtan,
Yaxşını görməyə gözün kor olub.
Ancaq unutma ki, hər şeyi danan,
Axırda həmişə gorbagor olub.

Təkcə qanqal deyil torpaqda bitən,
Qanqalın yanında gül də var, axı.
Çınqıllar içində, daşlar dibində,
Yamyaşıl məxmərdən tül də var, axı.

Bir qanmaz olsa da, minbir qanan var,
Bilənlər bilir ki, sən şər oğlusan.
İnana bilmirəm ata-anan var,
İnana bilmirəm bəşər oğlusan.

İTKİ – QAZANC

Səsi qulaqdan itirdik,
Sözü dodaqdan itirdik,
Suyu bulaqdan itirdik,
Közü ocaqdan itirdik.
Gəldik itirə-itirə,
Bir az Vətəndən itirdik,
Bir az torpaqdan itirdik.
Gözümüzü açıb gördük,
Qəzəb, nifrət qazanmışıq.
Bir-birimizi yemək üçün,
Kin-küdurət qazanmışıq.
Həm kölələk, təslimçilik,
Həm əsarət qazanmışıq.
Yarı illət, yarı zillət,
Yarı töhmət qazanmışıq.
Xəstə sevgi, ölü həsrət,
Yetim millət qazanmışıq.

QARĞAMA

Cavan bir gəlin qoca bir kişiyə "Allah səni döysün" deyib qarğış elədi, ikiəlli başına qaraladı.

Bu qarğışı nahaq aldın dilinə,
Hahaq çıxdın qarğışların zilinə.
Ömür keçib əzabların əlinə,
İçəridən yeyilmişə qarğama.

Gəlib çatıb matəm vaxtı, yas anı,
Yetimlikdən qocalıqtək yas hanı.
Görmürsənmi əlindəki əsanı,
Yeddi yerdən əyilmişə qarğama.

Tanrı döyüb, Allah döyüb, haqq döyüb,
Dövran döyüb, zaman döyüb, vaxt döyüb,
Tale döyüb, qismət döyüb, baxt döyüb,
İlahidən döyülmüşə qarğama.

HARA BELƏ TƏLƏSİRDİN

Körpəlikdən ölüsüydüm qocaların,
Deyirdim kaş mənim də ağ saçım ola.
Nə bilirdim ağ saçların gətirdiyi,
Bir bu qədər ağrım ola, acım ola.

Qəmsiz aşmır ömrün bircə bələni də,
Hər ağrıdan telimizə bir dən düşür.
Yaz da, yay da gəlib keçir yavaş-yavaş,
Payız ötür, şaxtalı qış birdən düşür.

Bu gün dönüb qara saça aşiq olub,
Dünənki gün ağ saçları sevən könlüm.
Nə görmüşdün zirvələrin ağlığında,
Hara belə tələsirdin, cavan könlüm?

YARIŞ

Yenə bu yollarda tozanaq qopub,
Bilinmir atlı kim, piyada kimdi.
Kim hansı mənzilə dikib gözünü,
Dağda kim, daşda kim, qayada kimdi.

Çoxları yollarda tökülüb qalar,
Azı bu yarışdan diri çıxacaq.
Xələt götürməyə, nəmər almağa,
Minlərin içindən biri çıxacaq.

İstər arxada qal, istər önə çıx,
Ömür döyüşlərin, talanlarındı.
Birinci gedənin sevinci bəlli,
Müsibət arxada qalanlarındı.

TƏHLÜKƏ

Gözlərin kor olmaq təhlükəsi var,
Qulağın kar olmaq təhlükəsi var,
Əllərə titrəmək, başlara əsmək,
Dizlərə zor olmaq təhlükəsi var.
Çəksin cilovunu at oynadanlar,
Meydanın dar olmaq təhlükəsi var,
Yolların qar olmaq təhlükəsi var.

Heç kəs aldanmasın pıçıltılara,
Dənizin qabarmaq təhlükəsi var.
Qabaran dənizin sal qayaları
Ovcunda aparmaq təhlükəsi var.
Səssiz küləklərin, sakit suların,
Qiyamət qoparmaq təhlükəsi var.

Vicdanın, Allahın, ruhun, nəfəsin,
Qəfəsdə boğulmaq təhlükəsi var.
Bütün pisliklərin, əclaflıqların,
Yenidən doğulmaq təhlükəsi var.
Tauna çevrilib, vəbaya dönüb,
Dünyaya dağılmaq təhlükəsi var.
Bəndə üz çevirib bəndəliyindən,
Allaha ağ olmaq təhlükəsi var.

DÜNYANIN

Biz ki üzümüzü dünyaya tutduq,
Bizdən niyə dönsün üzü dünyanın.
Qızdırmaq istədik nəfəsimizlə,
Ərimək bilmədi buzu dünyanın.

Qaralır Günəşi, tutulur Ayı,
Allahdan kəsilmir bəndənin payı.
Duzsuz adamların azalır sayı,
Getdikcə azalır duzu dünyanın.

BƏRBƏZƏK GÖTÜRMÜR TARİXİN DİLİ

Eyfel qülləsindən Parisə baxdım,
Həqiqət donunda nağıl göründü.
Hansı gözəlliyə gözüm baxdısa,
Orda bir istedad, ağıl göründü.

Tanrıdan belə bir şəhər istəsin,
Hər kim Yaradana ərk edə bilsə.
Mən Allah deyərdim böyüklüyünə,
Kim bu möcüzəni dərk edə bilsə.

Misir ehramları, Çin xaqanları,
Yunan heykəlləri burda görüşür.
Leonardonun da, Pikassonun da
Sehrkar əlləri burda görüşür.

Hüqo da burdadı, Balzak da burda,
Ölü yox, diritək gördüm onları.
Qılınc da tarixdi, qələm də tarix,
Yazıb yaddaşına Napolyonları.

Dilmancın özün ol, bacara bilsən,
Dil üçün heç kəsdən istəmə yardım.
Fransız dilində danışa bilsəm,
Luvru fırça-fırça danışdırardım.

Bərbəzək götürmür tarixin dili,
Sən ki bu gedişdən bir az halısan!
Parislə dil tapıb danışmaq üçün,
Allahın dilində danışmalısan!!!

1999
Paris

TORPAQ SEVGİSİ

Qalxır təyyarəmiz göyün üzünə,
Uçuruq Parisdən Bakıya sarı.
Qaldırır buluda, endirir yerə,
İnsanı insanın yaratdıqları.

Sayıram qəlbimdə saniyələri,
Keçir hər dəqiqəm bir saat kimi.
Uçmaq istəyirəm uçaqdan qabaq,
Gərilir qollarım cüt qanad kimi.

İlahi, qəriblər nə çəkir görən,
Mən ki yeddicə gün qürbət görmüşəm.
Ürəyim sıxılır Vətəndən ötrü,
Nə olsun qürbətdə cənnət görmüşəm.

Yaxşı ki, üz tutub, yön çevirməyə,
Yuva var, ocaq var, ev var, eşik var.
Gəl deyib insanı bağrına basan,
Şirin bir layla var, isti beşik var.

Heç ola bilərmi yananda insan,
Yadına çay gəlib, bulaq düşməsin?
Gəzib-dolansa da uzaq elləri,
Heç kəs öz elindən uzaq düşməsin.

1999
Paris

ŞAİRLƏRİN QİSMƏTİ

Sinəsi dağ-dağ olmaq şairlərin qisməti,
Sinəm üsyan meydanı, qızarmış şişə qarşı.
Zərbələrim hazırdı buynuzları qırmağa,
Yumruqlarım qayadı qıcanmış dişə qarşı.

Neçə hiylə, neçə tor, neçə qarmaq, tilov var,
Təpəmizdən od çıxır, canımızda alov var.
Dünya geniş olsa da, min-min əsir, girov var,
Şər oynadır atını hər xeyir işə qarşı.

Canda qeyrət yoxdusa, heyif boya, duruşa,
Qeyrətsiz keçən ömür dəyməz bircə quruşa.
Şair Don Kixot deyil dəyirmanla vuruşa,
O vuruşur tərs gələn çərxə, gərdişə qarşı.

HAQLISAN ŞAİRDƏN GİLEYLƏNMƏYƏ

Söz güllə, söz mərmi, söz qurşun gərək,
Söz millət, söz ordu, söz qoşun gərək,
Qoruya göyləri yad nəfəsindən,
Burnu qanamaya bir quşun gərək.
Xalqın namusuna göz dikənlərin,
Şair cəsarəti, şair qeyrəti,
Tökə boğazına qurğuşun gərək.
Göz yaşı, el dərdi, ana fəryadı
Dönməsə qəlbində sızlayan neyə,
Haqlısan, min dəfə haqlısan, anam,
Haqlısan şairdən gileylənməyə.

Bu necə şairdi, şəhid olmadı?
Bu necə şairdi, əsgər olmadı?
Əlindən torpağın yarısı getdi,
Qocası, cavanı, qarısı getdi.
Sözü çevrilmədi qızıl gülləyə,
Masası çevrilib səngər olmadı.
Yağı tapdağına dönəndə torpaq,
Niyə bir çaxnaşma salmadı yerə?
Niyə bir titrəmə salmadı göyə?
Haqlısan şairdən gileylənməyə.

Füzuli sultanım, Xətai şahım,
Nəsimi inadı "mənim Allah"ım.
Sözün qılıncını saldıq kəsərdən,
İçimi göynətdi amanım, ahım.
Şeirin qibləsinə gətirəmmədik,
Kim səyə üz tutdu, kimi də bəyə,
Haqlısan şairdən gileylənməyə.

Başda qapaz ola, yanaqda şillə,
Dildə xəncər ola, dodaqda güllə.
Sərhəddə dağ ola, torpaqda qaya,
Canda təpər ola, qeyrətdə maya.
Tərpədə dünyanı tufan gücündə,
Qabara, çəkilə ümman gücündə.
Söz gərək düşmənin qəddini əyə,
Əyə bilmədisə namərd qəddini,
Haqlısan şairdən gileylənməyə.

Demək, sözümüzdə el gücü yoxmuş,
Demək, səsimizdə sel gücü yoxmuş.
Obalar çökdüsə düşmən önündə,
Demək, dilimizdə fil gücü yoxmuş.
Döyüş meydanına çıxarmaq üçün,
Nə pələng var imiş, nə şir var imiş.
Vətənin gözünə kül üfürməyə,
Yalançı bir haray, həşir var imiş.
Baqqallar, darğalar daha çox imiş,
Tülkülər, qarğalar daha çox imiş.
Oğlun əsirdisə, günahkar mənəm,
Qızın girovdursa, günahkar mənəm.
Torpağın ən böyük faciəsinə,
Gözü kor, beyni küt, qəlbi kar mənəm.
Şair harayına, şair səsinə,
Ordular ayağa qalxa bilmədi.
Şair güvənmədi öz imkanına,
Milləti özünə arxa bilmədi.
Bu gün bir millətin yurdu, yuvası,
Olubsa çamırlıq, olubsa dəyə,
Haqlısan, min dəfə haqlısan, anam,
Haqlısan, min dəfə haqlısan, atam,
Haqlısan şairdən gileylənməyə,
Haqlısan şairdən gileylənməyə!

CÖVHƏRQALADA GÖRÜŞ

Düşmən gülləsinə sipər yeridi,
Gərir sinəsini dərdə, bəlaya.
Hünər beşiyidi, təpər yeridi,
Cövhəri çevirib Cövhərqalaya.

Nə hücum, nə qorxu, nə güc, nə hədə,
Nə ölüm çeçenin beyninə batdı.
Şəhəri min yerdən zədələsə də,
Namusu, qeyrəti sağ-salamatdı.

Şimşək baxışında, qəzəb gözündə,
Şəri öz qanında boğdu bu millət.
Təzədən doğuldu bu yer üzündə,
Şamili təzədən doğdu bu millət.

Hər oğul bu xalqın igidi, əri,
Andı boş-boşuna içən görmədim.
Qeyrət silahıdı, məslək səngəri,
Silahsız, papaqsız çeçen görmədim.

1999

ALLAHLIQ

Xəyalımda at oynadır fikirlər,
Şər qarışır, gecə düşür, dan atır.
Allah dönüb bəndə olmaq istəmir,
Bəndə hər gün allahlığa can atır.

Allah enə allahlıqdan aşağı,
Gələ biznən çörək yeyə, çay içə.
Bəndə qalxa üfüqlərin fövqünə,
Su yerinə ulduz içə, Ay içə!

Yox, yox, Allah, qəbul etmə sözümü,
Sən zəmisən, bəndə sünbül, bəndə dən.
Uçurmamış koma qoymaz dünyada,
Allahlığı uzaq eylə bəndədən.

ZAMAN

Zamana nə var ki, vaxta nə var ki,
İstəsə, tökəcək gözlərimizi.
İstəsə, göz üstə qaş düzəldəcək,
Bu daşı bir zaman quma döndərib,
Bu qumdan bir zaman daş düzəldəcək.

Bir də görəcəksən, dönüb geriyə,
Kotan düzəldəcək, xış düzəldəcək.
Bir də görəcəksən, çıxıb qabağa,
Dəmirdən düşünən baş düzəldəcək.

Huşu yerindədi, huşsuz qalmaz o,
Yeyər nəsilləri, dişsiz qalmaz o.
İşini biləndi, işsiz qalmaz o,
Yox yerdən özünə iş düzəldəcək.

MƏRDİMİZ – DƏRDİMİZ

Qurd yedi, taladı bu ağacları,
Nə qədər ağac var qurdun içində.
Çaqqal var, tülkü var, it var, pişik var,
Didir bir-birini yurdun içində.
Kökünü qazıdı dərd adamların,
Nə qədər adam var dərdin içində.
Həyatdan küsən var, candan bezar var,
Nə qədər ağrı var, dərd var, azar var,
Kimsəsiz ölü var, qərib məzar var.
Mərdin sinəsini açın, göstərin,
Nə varsa, aydınca görəcəksiniz,
Nə varsa, yer salıb mərdin içində!

KİMDİ SƏNİ BU QAPIDAN BURAXAN

Bir nazirliyin qapısında gözünün yaşını yağış kimi yağdıran qoca bir kişi gördüm. Şikayəti Allahın yanına çıxsa da, yuxarıda oturanın yanına çıxa bilmirdi.

Bu qapıdan yollar gedir, ay qoca,
Süd arxından qollar gedir, ay qoca,
Zər daşınır, pullar gedir, ay qoca,
Kimdi səni bu qapıdan buraxan?

Bu bazarda nə işi var lütlərin,
Yeri deyil "maymaqların, kütlərin".
Qulluğunda durammasan bütlərin,
Kimdi səni bu qapıdan buraxan?

Bu qapının gədələri bəylənər,
Kişiləri harınlaşar, səylənər.
Gündə burda neçə karvan əylənər,
Kimdi səni bu qapıdan buraxan?

Nə olsun ki, qəlbin qəmnən oyuqdu,
Nə olsun ki, bəxtin batan qayıqdı.
Görmürsənmi, mərmər buzdan soyuqdu,
Kimdi səni bu qapıdan buraxan?

Sünbül eylə, dənnən keçir dərdini,
Tanrıya bax, dinnən keçir dərdini.
Bura gəlmə, gennən keçir dərdini,
Kimdi səni bu qapıdan buraxan?

Düyməsi var, tilsimi var, zəngi var,
Bir deyil ki, yetmiş yeddi rəngi var.
Talelərlə qovğası var, cəngi var,
Kimdi səni bu qapıdan buraxan?

Ağlar gəlib, ağlar qalıb gedən var,
Dağəridən, daşüyüdən bədən var.
Cangüdənin özünü də güdən var,
Kimdi səni bu qapıdan buraxan?

Pusqular var, pusduran var, pusan var,
Qan axıdan, qusduran var, qusan var.
Qorxusundan ömrü boyu susan var,
Kimdi səni bu qapıdan buraxan?

Silahı var, polisi var, postu var,
Rüşvət adlı bir canciyər dostu var.
Bu qapının bu millətə qəsdi var,
Kimdi səni bu qapıdan buraxan?

Get özünə ayrı iş tap, ay qoca,
Ayrı dil tap, ayrı diş tap, ay qoca.
Xaçpərəst ol, bir keşiş tap, ay qoca,
Kimdi səni bu qapıdan buraxan?

SUAL

Biz niyə can deyib, can eşitmirik,
Biz niyə qaçırıq bir-birimizdən.
Ayıra-ayıra alır qisası,
Ayı birimizdən, şir birimizdən.
Axırıq, bulağa çevriləmmirik,
Yanırıq, ocağa çevriləmmirik.
Sevgi də soyuyur biz soyuduqca,
Ayrılıb axırda düşür uzağa,
Ocaq birimizdən, pir birimizdən

GƏTİRƏCƏKSƏN

Könül, nə yanırsan, nə yandırırsan,
Xalqı bir yönəmi gətirəcəksən?
Dilsiz qayaları, səssiz daşları,
Səsəmi, ünəmi gətirəcəksən?

Aldılar əlindən yağlı, yavanı,
Çəkdilər canından suyu, havanı.
Yerinə qaytarıb yurdu, yuvanı,
Dağlara binəmi gətirəcəksən?

Nə ad düşündürür, nə san milləti,
Çoxalır asdıran, asan milləti.
Qayğılar başından basan milləti,
Kölgədən günəmi gətirəcəksən?

Yaşadın dərd yeyib, qəm uda-uda,
Çağırdın, dadına çatmadı xuda.
Yağışsız buludda, axarsız suda,
Sünbülü dənəmi gətirəcəksən?

Ürək min parçadı, könül min para,
Qarışıb, seçilmir ağ ilə qara,
Allahdan danışıb allahsızlara,
Dinsizi dinəmi gətirəcəksən?

Bir dərdin həyatda min yazarı var,
Dünyanın nə behi, nə bazarı var.
Taleyin nə qədər dərd-azarı var,
Yığışıb mənəmi gətirəcəksən?

RAHAT ÖLÜM

Bu gün bir xəstə gördüm, xəstəlik, nə xəstəlik,
İynələrin ucunda bədəni dəlik-dəlik.
Durmaq olmur yanında fəryadından, ahından,
Asan ölüm istəyir ölümsüz Allahından.
Ölüm hələ yoldadır, dərə keçir, düz gəlir,
Əcəl istəyən kəsə əcəl könülsüz gəlir.
Gözəl olan şeyləri bir-bir salıram yada,
Rahat ölümdən gözəl heç nə yoxdu dünyada!

ARTIQ ADAM

Malsan mələ, atsan kişnə, itsən hür,
Yox olmağın, var olmağın bilinsin.
Nə deməkdi yaşadığın bu ömür,
Eşitməyin, kar olmağın bilinsin.

Yollar uzun, ömür gödək, fürsət az,
Cır ağaclar dadlı meyvə bitirməz.
Sən qalmaqla dünya heç nə qazanmaz,
Sən getməklə, dünya heç nə itirməz!

QANADLAR

Baxdıqca insanı qanadlandırır,
İncə gözəllərin naz qanadı var.
Zərif fikirlərin, kövrək hisslərin,
Könüllər güldürən saz qanadı var.

Ömrün bağçasında əssə küləklər,
Yerdə qızlar küsər, göydə mələklər.
Payızda saralıb solar çiçəklər,
Yaşıl arzuların yaz qanadı var.

Qanadsız dünyanı qucmaq çətindir,
Gül olub təravət saçmaq çətindir,
Özgə qanadıyla uçmaq çətindir,
Yaxşı ki, hər kəsin öz qanadı var.

DÜŞDÜ

Gülə döndüm, güllər kimi açım dedim,
Yaz olmamış payız gəldi, sazaq düşdü.
Ağac oldum, yeri-göyü qucaqladım,
Budağımdan gündə neçə yarpaq düşdü.
Kitab kimi öz ömrümü varaqladım,
Kötüyündən silkələndi, varaq düşdü.
Dedim, durum saçlarıma sığal çəkim,
Telim getdi, əllərimdən daraq düşdü.
Mən dünyaya gör nə qədər yaxın oldum,
Dünya məndən gör nə qədər uzaq düşdü!

HƏYƏCAN

Ürək yazıq neyləsin!
Əbədi yükə dönür bir anın həyəcanı.
Dərin dərələr salır, qara yarğanlar açır,
Zəlzələnin, zərbənin, tufanın həyəcanı.
Dərddən betər öldürür xəstənin ümidini,
Gəzdikcə tapılmayan dərmanın həyəcanı.
Ağrı külək, ömür şam, əsən kimi söndürür,
Zamanlara sığışmır zamanın həyəcanı.
Qanlı təpə, qanlı düz, qanlı meydan görmüşük,
Getməz gözdən, könüldən bu qanın həyəcanı.
Bitib-tükənən deyil ömrün sonuna qədər,
Duyan, görən, düşünən insanın həyəcanı!

AĞRILAR

Qardaş, ürək polad deyil,
Qardaş, ürək dəmir deyil.
Biz çəkəni it çəkməsin,
Ömrümüz bir ömür deyil.
Bir az candı, bir az nəfəs,
Bir az ruhdu, bir az qəfəs.
İnsan oğlu necə dözsün?
Qaya deyil, mamır deyil.
Baş qaldırır min ağrının,
Min tələşın ağrıları.

Dərd əlindən açmaq olmur,
Ürəkləri qəm yandırır.
Kirpikləri yaş isladır,
Yanaqları nəm yandırır.
İnsanı baş-başa verib,
Zülm ilə sitəm yandırır.
Min ürəyə zərbə vurur,
Bir insanın gözlərindən,
Axan yaşın ağrıları.

Yük götürdüm, qəm yüklədim,
Dərd daşıdım, kədər çəkdim.
Bəlkə də lap nahaq imiş,
Çəkdiyimi hədər çəkdim.
Qardaş, nələr çəkmişəmsə,
Qırx altıya qədər çəkdim.
Hələ mənə tanış deyil,
Əlli yaşın ağrıları.

AY KƏRƏM

Səni od yandırdı, Əsli dağladı,
Mən suyun odunda yandım, ay Kərəm.
Allahım, vallahım çıxdı yadımdan,
Yeri də, göyü də dandım, ay Kərəm.

Alışan odlara dil olmaq nədi,
Dərdin havasında zil olmaq nədi,
Mən indi bildim ki, kül olmaq nədi,
Ah çəkib, adını andım, ay Kərəm.

Zəlimxan neyləsin, qismətdə qəm var,
Gözdə qığılcım var, kirpikdə nəm var.
Niyə sazımızda "Yanıq Kərəm" var,
Yanmaq nə deməkdi, qandım, ay Kərəm.

YAŞA BU MÖHLƏTİ

Su məni yandırdı, su məni yaxdı,
Yandım dodağımdan dilimə qədər.
Göynədim, gözümdə göllər titrədi,
Yandım içərimdən çölümə qədər.

Həyat baldan şirin, bahadan baha,
Büründüm tüstüyə, bələndim aha.
Yanmaq sınağından çıxmışam daha,
Görmüşəm közümdən külümə qədər.

Buzda don, qarda don, donmağı birmiş,
Suda yan, odda yan, yanmağı birmiş,
Ömrün çöpə dönüb sınmağı birmiş,
Hamı yol gedirmiş zülümə qədər.

Bir sözü deməyə dilim gəlmədi,
Bir gülü tutmağa əlim gəlmədi.
Zəlimxan, hələ ki, ölüm gəlmədi,
Yaşa bu möhləti ölümə qədər.

TANIDI YÜZ YAŞLI QOCALAR MƏNİ

Karvan yollarına çıxdı köhlənim,
Gördü bəzirganlar, xocalar məni.
Dərin dərələrdə itib-batmadım,
Qoynuna səslədi ucalar məni.

Ayağım daşları qum kimi əzdi,
Ürəyim dedi ki, gəzdikcə gəz, di.
Mən onu axtardım, o məni gəzdi,
Tapdı qafiyələr, hecalar məni.

Şirin arzuların sinəmə yatdı,
Yandım ocaq kimi, ocaq həyatdı.
Göylərə qaldırdı, buluda qatdı,
Yaşatdı tüstülü bacalar məni.

Ömrə axşam düşür, ömrə dan gəlir,
Qəlbə xal düşəndə, gözə qan gəlir.
Gördü əlli yaşlı Zəlimxan gəlir,
Tanıdı yüz yaşlı qocalar məni.

ŞAİRLƏR KÜSƏYƏN OLUR

Şair ömrü bənövşədi,
Dərdə boyun əyən olur.
Bostanına daş atsalar,
Tez qəlbinə dəyən olur.

Göy üzündə bulud görsə,
Yer üzündə sükut görsə,
Bir qapıda tabut görsə,
Qəmdən libas geyən olur.

Çiçəyini dərə-dərə,
Sözlərini tutun zərə.
Daş atmayın şairlərə,
Şairlər küsəyən olur.

DOST – TORPAQ

Nə yaman soyuqmuş torpağın üzü,
Canında bir zərrə isti yoxuymuş.
Qoynuna çəkdisə qurtardı, getdi,
Od-ocaq kəsildi, tüstü yoxuymuş.

Göz yaşı, dərd-nalə, ah-zar aparır,
Bizi ölüm çəkir, məzar aparır.
Hərəni bir cürə azar aparır,
Allahın heç kəslə qəsdi yoxuymuş.

İnsanın zülmünə, bəxtinə baxın,
Dərd dalğa-dalğadı, qəm axın-axın.
Yenə də insanın torpaqdan yaxın,
Torpaqdan istəkli dostu yoxuymuş.

SAXLA

Qocalıb gedirəm aran yerində,
Yaylaq, məndən ötrü dağ yeri saxla.
Çəkim sığalımı körpə güllərə,
Bağbanlıq eşqinə bağ yeri saxla.

Sellərə yem olar sümüyüm, ətim,
Vətənsiz qəribəm, torpaqsız yetim.
Qoy sənin qoynunda bərkiyim, bitim,
Kökündən üzülməz tağ yeri saxla.

Yeriyir üstümə dərd qucaq-qucaq,
Solan bir yarpağam, sönən bir ocaq.
Qəbrimi qazmağa bir parça torpaq,
Kəfənim olmağa ağ yeri saxla.

YANĞI ÜSTƏ BƏSTƏLƏNƏN SƏTİRLƏR

Yarıb çıxıb cövhərindən, canından,
Dodağında istilənən sətirlər.
Bir az oddu, bir az közdü, bir az qor,
Yanğı üstə bəstələnən sətirlər.

Gödək ömrü qəlbin qəmi yandırır,
Dərdin çoxu, bəxtin kəmi yandırır.
Gah dəftəri, gah qələmi yandırır,
Varaq-varaq dəstələnən sətirlər.

Keçib gedir baharımdan, qışımdan,
Keçib gedir taleyimdən, yaşımdan.
Duman kimi qalxır mənim başımdan,
İçərimdə tüstülənən sətirlər.

BİR AZ TORPAQ,
BİR AZ VƏTƏN CANIMIZ

Vaxtsız əcəl qapımızı tanıyıb,
Yaxamıza əl uzatmaz olaydı.
İnsan elə ucalaydı göylərə,
Dərdin-qəmin əli çatmaz olaydı.

Qaya qalxıb öz kökündən qopanda,
Çapılan da peşman olur, çapan da.
Ölüm bizi bir gün qoyub sapanda,
Daş yerinə dağdan atmaz olaydı.

Bir az ölən, bir az itən canımız,
Bir az torpaq, bir az Vətən canımız,
Odda yanan, suda batan canımız,
Odda yanmaz, suda batmaz olaydı.

ZAMAN ADLI YUMRUĞU VAR DÜNYANIN

Qış vaxtında budaqlarda bar qalmaz,
Əncir nədi, alma nədi, tut nədi?
Hünəri var saralmasın payızda,
Çiçək nədi, sünbül nədi, ot nədi.

Qoyma ömrü çürütməyə nəm olsun,
Nə gözdə yaş, nə könüldə qəm olsun.
Torpaq üçün təki yaxşı yem olsun,
Sümük nədi, dəri nədi, ət nədi?

Qazi, şəhid, alim, şair, əfəndi,
Tuta bilməz nə bərəni, nə bəndi.
Hər birinin son qisməti kəfəndi,
Varlı nədi, yoxsul nədi, lüt nədi?

Uzun olan quyruğu var dünyanın,
Quyruqlara buyruğu var dünyanın.
Zaman adlı yumruğu var dünyanın,
Qaya nədi, heykəl nədi, büt nədi?

OZAN OLDUM, OZANLARA QARIŞDIM

Tale məni bir söz üstə köklədi,
Ozan oldum, ozanlara qarışdım.
Bir çiçəyi vaxtsız solan görəndə,
Xəzəl oldum, xəzanlara qarışdım.

Yaxınıma buraxmadım qərəzi,
Qərəz qəlbin xəstəliyi, mərəzi.
İçərimdə qurdum mizan-tərəzi,
Qurğulara, mizanlara qarışdım.

Aylar gəldi, illər keçdi aradan,
Ağ üstünə xəttim düşdü qaradan.
Bir qələm də mənə verdi Yaradan,
Yazı yazdım, yazanlara qarışdım.

Bir kök üstə şaxələndim, min oldum,
Bir sünbülün taleyində dən oldum.
İnsaf oldum, iman oldum, din oldum,
Dualara, əzanlara qarışdım.

YATIR

Gecə keçmiş gecədən, büsbütün şəhər yatır,
Şəhərin qucağında xeyir yatır, şər yatır.
Yatmasa dincələrmi insan oğlu həyatda?
Sığınıb qaranlığa bu boyda şəhər yatır.
Xoşbəxtin gözlərində xoş duyğular uyuyur,
Bədbəxtin gözlərində qəm yatır, kədər yatır.
Dünya hazırlıq görür sabaha qovuşmağa,
Səsi səhər çıxacaq nə qədər xəbər yatır.

GİZLİDİ

Aşkar olan heç nə yoxdu,
Həyatda hər şey gizlidi.
Baxdığın göylər qapalı,
Yer gizlidi, göy gizlidi.

Qaranın üzü sürtülü,
Hara gəldi hey dürtülü.
Yaşılın üstü örtülü,
Mavi gizli, göy gizlidi.

Doğranan, dəlinən deyil,
Kəsilən, bölünən deyil.
Dodaqda çalınan deyil,
Könüldəki ney gizlidi.

"Bağ"dan "Boq"a yol gəlmişik,
Tərs yeriyib, sol gəlmişik.
Dərddən əli bol gəlmişik,
Sevinc gizli, toy gizlidi.

Bağdaddadı, Misirdədi,
Təbrizdəki qəsrdədi.
Köküm hansı əsrdədi?
Nəsil gizli, soy gizlidi.

Kimlər getdi, kimlər gəldi?
Qayaları kimlər dəldi?
Dədəm Qorquddan əvvəldi,
Dastan gizli, boy gizlidi.

Demə, şeirin zərifiyəm,
Demə, elmin arifiyəm.
Demə, sufi, hürufiyəm,
Əlif gizli, bey gizlidi.
Aşkar olan heç nə yoxdu,
Həyatda hər şey gizlidi.

ÖLÜMDƏN SONRA HƏYAT VAR

Dilim sözümdən başlanıb,
Sözüm dilimin davamı.
Qələm əldən sonra gəlir,
Barmaq əlimin davamı.

Çeşməyə nur, arxa suyam,
Səsəm, sözün arxasıyam.
Bəmdən zilə qalxasıyam,
Bəmdi zilimin davamı.

Ölənləri kim yaşadıb,
Pərdə dinib, sim yaşadıb.
Çölümü içim yaşadıb,
İçim çölümün davamı.

Kimi cılız, kimi şişman,
Gedən peşman, qalan peşman.
Qara gün ağ günə düşmən,
Ağ gün zülümün davamı.

Qat içində neçə qat var,
Yer var, göy var, Kainat var.
Ölümdən sonra həyat var,
Həyat ölümün davamı!

ADAM KİMİ

Gün necə doğursa, elə doğasan,
Ay necə batırsa, elə batasan.
Çaylar dənizlərə necə çatırsa,
Sən də öz arzuna elə çatasan.

Dəmir sərhədləri vurub keçəsən,
Keçilməz, aşılmaz səddin olmaya.
Qayatək şax durub, şux yeriyəsən,
Əyilən, bükülən qəddin olmaya.

Şığıya biləsən qartallar kimi,
Çən kimi torpaqda sürünməyəsən.
Üzdə işıq olub dalğalanasan,
Gözə duman kimi görünməyəsən.

Dərə dərinlikdə, dağ ucalıqda,
Üfüq genişlikdə ürəyin ola.
Elə güvənəsən bu genişliyə,
Bütün ömrün boyu gərəyin ola.

Nə kimsə əmr edə, göstəriş verə,
Nə də sən kiməsə əmr eyləyəsən.
Başsız külək kimi, axar su kimi,
Bir söz... adam kimi ömr eyləyəsən.

AYDIN ÜFÜQLƏRƏ BAX, DURUL, DEDİ

Nəyi istəyirsən, hər şeyi verdi,
Dünyaya baxmağa göz verdi Allah.
Bizim əlimizdə qələm işlədi,
Bizim dilimizdə söz verdi Allah.

Ocaq bir yerimiz, su bir yerimiz,
Bu dağlar, bu daşlar səbir yerimiz.
Öləndə hazırdı qəbir yerimiz,
Kəfənə bükməyə bez verdi Allah.

Nəfsə, iştahaya olma qul, – dedi,
Nəfs edər adamı qara qul, – dedi.
Aydın üfüqlərə bax, durul, – dedi,
Nur verdi, od verdi, göz verdi Allah.

Köhlən havalandı, meydan dar oldu,
Bəzən baharda da yağan qar oldu.
Bir az gəncliyimiz tezbazar oldu,
Bir az ağrıları tez verdi Allah.

Meydan əllinin yox, yüzün olaydı,
Uzun yaşamağa izin olaydı.
Ömrümüz bir az da uzun olaydı,
Heyif ki, möhləti az verdi Allah.

HƏSRƏT

Köhnələr yaddan çıxıb,
Təzə qəbirlər üstə
Təzə güllər əkillər.
Hansı qəbrə baxırsan,
Sinə üstə yazılar,
Başdaşında şəkillər.
Baxıram şəkillərə,
Qəmli sükutdan bezib,
Boylanmağın, baxmağın,
Həsrətini çəkillər!

BAŞSIZLAR

Kəsdi əjdahalar sular başını,
Balıqları yedi, quşları yedi.
Nə qədər kəllələr bişdi qazanda,
Nə qədər iştahlar aşları yedi.

Vaxtında dənliyə çatmadı dənlər,
Pərişan qayıtdı dən üyüdənlər.
Məqam axtaranlar, fürsət güdənlər,
Dəyirman qarışıq daşları yedi.

Dərd verdi millətə naşı olanlar,
Ağladı gözünün yaşı olanlar.
Bilər baş qədrini başı olanlar,
Başsızlar həmişə başları yedi.

DAĞ ÖMRÜ

Saysız əsrlərin şahidiyəm mən,
Şahid olacağam neçə əsrə də.
Boyumdan boy verdim, ömrümdən ömür,
Məğrur qalaya da, uca qəsrə də.

Zaman da məndədi, əsr də məndə,
Qala da məndədi, qəsr də məndə.
Dünyada nə qədər bağlı kitab var,
Onların açarı, hər sirri məndə!

VAXT

Qədrini bilməsən səninki deyil,
Vaxt əldən sürüşüb çıxan balıqdı.
Hərəkət səndəndi, bərəkət ondan,
Qəlbi də, ruhu da verən xalıqdı.
Düşünməsə beyin, yaratmasa əl,
Ömür başdan-başa xarabalıqdı!

ÖMÜR MİN SORĞUDAN-SUALDAN KEÇİR

Ömür neçə dəfə sınaqdan keçir,
Yaz dövrü, yay dövrü, qış dövrü varmış.
Əkən də, səpən də, biçən də insan,
Hər kəsin dən dövrü, xış dövrü varmış.

Bir tərəfdə sevinc, bir tərəfdə qəm,
Gözlərdə alov var, kirpiklərdə nəm.
Hər gün əlimizdə işləmir qələm,
Onun da bir qızğın iş dövrü varmış.

Bir gün dilli gəlir, bir gün lal gəlir,
Hər dərddən adama bir zaval gəlir.
Bədbəxtlik gələndə dalbadal gəlir,
Qəlbin əzablara tuş dövrü varmış.

Quşdu, havalanıb gəzəndə insan,
Daşdı, daşlığını sezəndə insan.
Sevgidən əlini üzəndə insan,
Taleyin buz dövrü, daş dövrü varmış.

MƏNİM SÖZLƏRİMİN YALAN YERİ YOX

Dünyanın suyunu bulandırmışıq,
Bir qarış salamat qalan yeri yox.
Sazını o qədər kökdən salmışıq,
Köklənən yeri yox, çalan yeri yox.

Haram toxumlarla gəldik baş-başa,
Oğulsan tab gətir, kişisən, yaşa.
Ağzımız pis yerdə dirənib daşa,
Döngə yeri yoxdu, dalan yeri yox.

Çox vaxt dən yerinə daş əkdi dünya,
Nə qədər baş yedi, baş əkdi dünya.
Quyruqsuz, qulaqsız eşşəkdi dünya,
Noxta yeri yoxdu, palan yeri yox.

Üsyanam, fəryadam, ağrıyam elə,
Yanan insanların bağrıyam elə.
Doğrular bilir ki, doğruyam elə,
Mənim sözlərimin yalan yeri yox.

SU GÖZÜNƏ ÇÖP YIĞILIB

İşığı söndü şamların,
Kərəni yatdı damların.
Zülmət olan adamların,
İçi suyu bulandırıb.

Piyləndikcə şişib harın,
Başa qədər qalxıb qarın.
Neçə-neçə günahkarın,
Suçu suyu bulandırıb.

Zəhəri çox ilanların,
Sərhədi yox yalanların.
Karvan-karvan talanların,
Köçü suyu bulandırıb.

Köpük qalxıb, köp yığılıb,
Su gözünə çöp yığılıb.
Dəcəl, çolaq, çəp yığılıb,
Üçü suyu bulandırıb.

Düşən şehdi, axan sudu,
Saflıq gözümün nurudu.
Qaynar çeşmə dumdurudu,
Keçi suyu bulandırıb.

İTİRDİYİM "DOSTA" ƏRMƏĞAN

Yoxsulluq əlindən göz açmayaydım,
Kasıb doğulaydım, kasıb öləydim.
Gəlməsə Allahın ucuz ölümü,
Qeyrət damarını kəsib öləydim,
Kaş sənə həyatda rast gəlməyəydim!

Heç nəyi zamandan gizlətmək olmur,
Vaxtın üzü belə, astarı belə.
Çəkir imtahana, salır sınağa,
Bax, belə tanıdır dostları, belə!

Un kimi, dən kimi dost da, düşmən də,
Ələnir xəlbirdən, keçir ələkdən.
Həqiqi məhəbbət, həqiqi sevgi,
Beləcə ayrılır küydən, kələkdən.

Mən haqqı tanıyan adamam, qardaş,
Yersiz nə küyüm var, nə kələyim var.
Zamanı gələndə, vaxtı çatanda,
Mənim öz şadaram, öz ələyim var.

Sən şeytan yoluyla qazandığını,
Mən Allah yoluyla çoxdan almışam.
Boynumda heç kəsin minnəti yoxdur,
Mənə nə verilib, haqdan almışam!

Otuz il əlimdə qələm işlədi,
Varağa bir kəlmə qeybət düşmədi.
Əsdi mən tərəfdən sevda yelləri,
Heç kəsin payına nifrət düşmədi.

Deyərəm, Allahın öz işləridi,
Göynəsə ürəyim, sızlasa yaram.
Sənin pisliyinlə enib zirvədən,
Qələmi çirkaba bulaşdırmaram!

Dostluğun sarayı neçə pillədi,
Kim taxta ucaldı, kim endi taxtdan.
Kiminki sevgidi, kiminki tamah,
Qoy Allah ayırsın haqqı nahaqdan.

Mən elə bilirdim sənsən sirdaşım,
Ruhuma doğmasan, könlümə yarsan.
Mən sənə dağlardan nəğmə gətirdim,
Dedim dağlar kimi uca durarsan!

Ən böyük düşmənsən özün-özünə,
Suçu nə məndə gör, nə də xalıqda.
Bir zirvə vermişdi Yaradan sənə,
Dayana bilmədin o ucalıqda!!!

ƏLİNİ ÜZMƏ MİLLƏTDƏN

Düşəcək düşmən başına,
Bu daş iridi, qardaşım.
Səsimiz gur çıxan kimi,
Çoxu kiridi, qardaşım.

İstisi var nəfəslərin,
Qanadı var həvəslərin.
Mənim səsim bu səslərin,
Mində biridi, qardaşım.

Yoxdu içində hikkəsi,
Sevgidi pulu, sikkəsi.
Hər kənd bu xalqın Məkkəsi,
Hər ev piridi, qardaşım.

Bəd söz çıxar bədniyyətdən,
Uzaq qaçar qətiyyətdən,
Əlini üzmə millətdən,
Bu xalq diridi, qardaşım.

NARAZI

Neyləsin boz səhrada dəvəsi ölmüş ərəb?
Kimi ölmüş dəvədən, kimi atdan narazı.
Biri gözündə nisgil, biri gözündə giley,
Tərs gələn, bəd gətirən bir saatdan narazı.
Fələklərə əl açan yetişmir muradına,
Olur göy üzündəki yeddi qatdan narazı.
Fikri üst-üstə düşmür oğul ilə atanın,
Zat əsildən narazı, əsil zatdan narazı.
Dözə bilmir zamanın zərbəsinə, zülmünə,
Çat ürəkdən narazı, ürək çatdan narazı.
Barmaq ilə sayılır Allahından razılar,
Hamı bir nəfər kimi bu həyatdan narazı!

BƏLƏKDƏN TƏZƏCƏ AÇILAN UŞAQ

Bələkdən təzəcə açılan uşaq,
Allahın bir parça işığı, nuru.
Varlığı kök üstə yaşıl bir budaq,
Baxışı çeşmənin gözündən duru.

Bələkdən təzəcə açılan uşaq,
Dumduru arzudu, tərtəmiz dilək.
Qanında qorxu yox, canında sazaq,
Qüsursuz xilqətdi, günahsız mələk.

Əlləri bənzəyir körpə quşlara,
Hələ əllərinə tikan batmayıb.
Ağzı dirənməyib sərt yoxuşlara,
Hələ ayağını daş qanatmayıb.

Bozarmış üzləri görməyib hələ,
Yanaq tül kimidi, dodaq gül kimi.
Məkrli gözləri görməyib hələ,
Çırpınır sevdalı bir könül kimi.

Qanqala dönəcək gözündə güllər,
Nə zaman görsə ki, tapdandı haqlar.
Hələ cənnətdədi, zaman gələcək,
Cəhənnəm odunda yandıracaqlar!

BAZAR YOLU

Bir məzar yoludu bu bazar yolu,
Yoxsullar bu yolla ölümə gedir.
Cibi boş, ürəyi dərd ilə dolu,
Alverə getmir ki, zülümə gedir.

İnsandı, onun da nəfsi, tamahı,
İnsandı, onun da iştahası var.
Yerdə arxası yox, göydə pənahı,
Elə yeriyir ki, sanki, yası var.

Evinə qayıdır əl boş, üz qara,
Nisgildən, ağrıdan, azardan gəlir.
Könül tikə-tikə, can para-para,
Xortdamış ölüdü, məzardan gəlir.

KÖNÜLSÜZ DƏRVİŞ

Yoxsul bir həsirdi, bir Məmmədnəsir,
Nə atı, nə də ki, arabası var.
Könülsüz dərvişdi, düşər yollara,
Bir dəmir çarığı, bir əbası var.

Allahım, mən deyim kimə bağışla,
Bağışla, hər bəxti kəmə bağışla.
Bədbəxtə bir uçuq kümə bağışla,
Desinlər onun da xarabası var!

HAQQA ARXA ÇEVİRSƏN

Yaradanın yanında günahımız olmasa,
Başımıza bu qədər qan gəlməz, qada gəlməz.
Tərəzinin gözündə savaba yer qalmadı,
Ruhumuz zəhərlənib ağzımız dada gəlməz.

Varlığından qanad tax əsib keçən mehlərin,
Saflıq götür nurundan səhər düşən şehlərin.
Haqqa yolu açıqdı əməlisalehlərin,
Dostu şeytan olanın Allahı yada gəlməz.

Haqqa arxa çevirsən, yeyərsən kötəyindən,
Dada bilməzsən eşqin balından, pətəyindən.
Nahaq yerə yapışma tanrının ətəyindən,
Allahı çağırarsan, Allahdan səda gəlməz!

ARSIZ-ARSIZ
YAŞAYIRAM DÜNYADA

Canım çıxdı quraqlığın əlindən,
Yaylağım yox, yağışım yox, qarım yox.
Kölgəsində sərinlənib qalmağa,
Ağacım yox, yarpağım yox, barım yox.

Tanrım, mənə nələr yazdı qismətim,
Zərrədən də min qat azdı qismətim.
Bir təhqirdi, bir qapazdı qismətim,
Bundan özgə xeyirim yox, karım yox.

Torpağımı kəsən, tökən qayçı var,
Bir payımdan, min pay çıxan payçı var,
Düdükçü var, zurnaçı var, züyçü var,
Şuşam yoxdu, muğamım yox, tarım yox.

Çaqqal çöldən çəkdi yedi, it evdən,
Çılpaq qaldı, çıxammadı lüt evdən.
Nəyim qaldı bölünməzdən, bütövdən?
Yarım varsa, yarım yoxdu, yarım yox.

Nələr salır haray yada, ün yada?
Qarabağda işıq verir gün yada.
Arsız-arsız yaşayıram dünyada,
Arım yoxdu, arım yoxdu, arım yox!

GÜNAHSIZ GƏLİRİK

Dünyanı min dəfə dağıtmaq olar,
Bu qədər qan tökən silahlar ilə.
Həyatda hər şeylə bacardı insan,
Bacara bilmədi tamahlar ilə.

Gedir insan oğlu, yolu çaş gedir,
Üzdən qan süzülür, gözdən yaş gedir.
Bu torpaq üstündə hey savaş gedir,
Dil tapa bilmirik timsahlar ilə.

Zamanın ovcunda mum olur qaya,
Qum olub dağılır çeşməyə, çaya.
Günahsız gəlirik qoca dünyaya,
Dünyadan gedirik günahlar ilə.

Kimdi fikir verən amana, aha,
Ölüm ucuz olub, yaşamaq baha.
Allahın özü də bacarmır daha,
Özü yaratdığı "allahlar" ilə.

BÖYÜYÜR

Tanrı sevib xoş nəzərlə baxanda,
Hər nəsildə neçə dahi böyüyür.
Bəndələri bir-birini yıxanda,
Nə bir bəndə, nə ilahi böyüyür.

DƏRD

Hər çiyin tab gətirməz,
Ağır yükdü dərd daşı.
Daşıyırsan, həyatda
Kişi kimi dərd daşı.

Enər gözə çən kimi,
Düşər saça dən kimi.
Damla daş dələn kimi,
Dəlib deşər dərd daşı.

Əzər-tikər qum eylər,
Kotan çəkər, şum eylər.
Dərd əridər, mum eylər,
Sərt qayanı, sərt daşı.

Mərd yaşamaq gərəkdi,
Sərt yaşamaq gərəkdi,
Dərd daşımaq gərəkdi,
Möhkəm dayan, mərd daşı.

CANIMIZ

Ömür-gün səhrasında,
Səfil olan canımız.
Qəzası, müsibəti,
Qəfil olan canımız.

Həyat bir udum nəfəs,
Dünya beşgünlük həvəs.
Hər yanı zindan, qəfəs,
Qıfıl olan canımız.

Enib dərdin şəhrinə,
Düşüb qəmin qəhrinə,
Sehrbazlar sehrinə
Tifil olan canımız.

Ölüm ahıl, biz çağa,
Boğaz yemdi bıçağa.
Axır beş arşın ağa,
Təhvil olan canımız.

ARASINDASAN

Ey insan, hayana qaçırsansa, qaç,
Savabla günahın arasındasan.
Sağında gündüz var, solunda gecə,
Axşamla sabahın arasındasan.

Gündə bir qorxu var, gündə bir hədə,
Hər gün dərinləşir ürəkdə zədə.
Həyatla döyüşdə, mübarizədə,
Səngərlə silahın arasındasan.

Nəfsidir, insanı döndərir ova,
Kimin hünəri var qapıdan qova?
Oğulsan əl atma yağlı plova,
Aş ilə tamahın arasındasan.

Vaxt səni döndərər ota, alafa,
Ha yalvar, yırtıcı gəlməz insafa.
Mədəsi dəyirman, ağzı kalafa,
Pələnglə timsahın arasındasan.

Açdılar, açılmaz sirrin yox sənin,
Soydular, soyulmaz dərin yox sənin.
Allahdan yuxarı yerin yox sənin,
Bəndəylə Allahın arasındasan.

AYRIDI

Vaxtın ancaq bir adı var, zamandı,
Keçmişləri, indiləri ayrıdı.
Beşik birdi, tabut birdi, taxta bir,
Baltaları, rəndələri ayrıdı.

Öz kökündən birdəfəlik qopan var,
Öz kökünü həmişəlik tapan var.
Tanrı adlı yoğuran var, yapan var,
Xəmir birdi, kündələri ayrıdı.

Aldanırıq bu rütbəyə, o çinə,
Yem olmuşuq tamahların köçünə.
Şeytan girib adamların içinə,
Allah birdi, bəndələri ayrıdı.

BİR ŞUŞALI GÖRDÜM

Bu şeirin qəhrəmanı Şuşa həsrətli qardaşım Novruz müəllimə

Bir şuşalı gördüm, kaş görməyəydim,
Əsirdi çənəsi, əsirdi əli.
Mən necə görmüşdüm onu Şuşada,
Yadıma gətirdim on il əvvəli.

Ruhunda Şuşanın şuxluğu vardı,
Qaya arxasıydı, daş yaxasıydı.
Eşqinin gücünə daş aşırası,
Qolunun gücünə dağ yıxasıydı.

Çaylardan güc alan gur səsi vardı,
Enli kürəyində nər gizlənərdi.
Batardı ətrinə Cıdır düzünün,
Nəfəsi gül olub nərgizlənərdi.

Səhər küləyində, axşam mehində,
Sevinc sellənərdi, axın olardı.
Şuşa dağ başıydı, orda bu kişi,
Allaha bir az da yaxın olardı.

İndi gör nə gündə, gör nə kökdədi,
Allahdan aralı, bəndədən uzaq.
Gözündə, könlündə sönən arzular,
Ruhunda üşütmə, canında sazaq.

Bir şuşalı gördüm, kaş görməyəydim,
Əsirdi çənəsi, əsirdi əli.
Dayandım önündə günahkar kimi,
Üzü tüpürcəkli, gözü kölgəli.

Gizləmək istədi özünü məndən,
Titrəyən əlini cibinə saldı.

Bu görüş – faciə mənim ömrümü
Qırx arşın quyunun dibinə saldı.

Əl necə titrəməz, baş necə əsməz?
Ürək pul-pul olmuş şüşə kimiydi.
Yerinə-yurduna kotan çəkilmiş,
Qovrulub kül olmuş meşə kimiydi.

Əlləri arxada gizləmək olar,
Titrəyən başını harda gizləsin?
Yurdun həsrətini hayana qoysun,
Gözünün yaşını harda gizləsin?

Birdimi, yüzdümü, mindimi, Allah,
Bu gün əli əsən, başı titrəyən?
Ocağı qaralan, çırağı keçən,
Dağı dağ-dağ olub, daşı titrəyən?

Necəsən deməyə dilim gəlmədi,
Gördüm əhvalını, necədi, gördüm.
Cavanca yaşında qoca bir kişi,
Gündüzün içində gecədi gördüm.

Ona sual vermə, ay onu görən,
Sən onun dağ boyda şəhərini ver.
Cıdıra çıxmağa Cıdır düzündə,
Qızıl üzəngili yəhərini ver.

Ona salam vermə, ay onu görən,
Əvvəlki gücünü, qüvvətini ver.
Çatırsa hünərin, çatırsa gücün,
Düşdüyü günlərin qiymətini ver!

Gözüm kor olaydı, şuşalı qardaş,
Sənin gözlərində yaş görməyəydim.
Zəlimxan öləydi mayın birində,
Mayın 9-nu kaş görməyəydim!

1996, 30 noyabr

QƏM GÜNDƏ KÖNLÜMƏ BİR HAVA SALDI

Bir qaçqının dilindən

Sinəmdə elə bir bostan əkdilər,
Dəmir toxum saldı, xış balaladı.
Yaz doğmaz, törəməz bir fəsil oldu,
Bizim qapımızda qış balaladı.

Oda baxa-baxa közərdi didəm,
Yenə də üzümdə qurumadı nəm.
Kövrəldim, qəlbimdə quzuladı qəm,
Ağladım, gözümdə yaş balaladı.

Qəm gündə könlümə bir hava saldı,
Gah sakit yaşadı, gah dava saldı.
Məcnuntək başımda dərd yuva saldı,
O yuva içində quş balaladı.

DƏLİDAĞ BU AXŞAM MƏNSİZ BİR DƏLİ

Yurd yeri çevrilər dərd yerimizə,
Cavanı seyrələr, qocası qalmaz.
Asılmaz qazanı, yanmaz ocağı,
Tüstüsü çəkilər, bacası qalmaz.

Burda qəm əbədi, sevinc ömürsüz,
Qalar ocaq yeri közsüz-kömürsüz.
Gündüzü ötüşər səssiz-səmirsiz,
Gecəyə bənzəyən gecəsi qalmaz.

Yollara baxmaqdan küsər baxışı,
Yağmaz vədəsində qarı, yağışı.
Solar gözəlliyi, gedər naxışı,
İtər qafiyəsi, hecası qalmaz.

Dəlidağ bu axşam mənsiz bir dəli,
Səhrada can verir dağsız dağ kəli.
Torpaqdan qopanda insanın əli,
Alçağı çoxalar, ucası qalmaz.

XOCALIM,
AY XOCALIM

Bu dağların qoynunda yaşıl bir kənd varıydı,
Əlvan saray, güllü bağ, gen aynabənd varıydı.
Neçə dodağı şəkər, söhbəti qənd varıydı,
Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.
Yoxdu daha, nağıldı,
İtdi, batdı, dağıldı.
Mənim şirin qafiyəm, mənim üçcə hecalım,
Xocalım, ay Xocalım!

Ağzından alov saçan silahlar yedi səni,
İştahalar, nəfslər, silahlar yedi səni.
Bağışlanmaz, yuyulmaz günahlar yedi səni,
Göydə Allahı danan "allah"lar yedi səni,
Heç Allah götürərmi qisasımı gec alım?
Xocalım, ay Xocalım!

Neçə ki, yer üzündə yamanlar, pislər yaşar,
İçi dolu qurd olan nankor xəbislər yaşar,
Dumanlı beyinlərdə dumanlı hisslər yaşar,
Neçə ki, bu şeytanlar, cinlər, iblislər yaşar,
Gərək hər gün, hər saat yağılardan öc alım,
Xocalım, ay Xocalım!

Quruyub cadar olmuş dodaqlara nə deyim?
Kəsilmiş biləklərə, barmaqlara nə deyim?
Qar içində buz olmuş ayaqlara nə deyim?
Yaxınlar eşitməsə, uzaqlara nə deyim?
Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,
Xocalım, ay Xocalım!

Nə möcüzə göstərim, nə cürə imkan tapım,
Qan itirən kəslərin damarına qan tapım?
Hansı yolu seçim ki, dərdinə dərman tapım,
Amansız cəmiyyətdə sənə nə aman tapım?
Millətəmi güvənim, torpaqdanmı güc alım?
Xocalım, ay Xocalım!

Sənə yas verənlərə yas dalınca yas gərək,
İgidlərim öyməli, oğullarım xas gərək.
Dəmirdən geyim gərək, poladdan libas gərək,
Ölümə ölüm gərək, qisasa qisas gərək,
Gərək səndən ötəri qala yıxım, bürc alım,
Xocalım, ay Xocalım!

Həyat şirin, yol çətin, ölüm ucuz, can baha,
Baş qaldırıb ağrılar, dözmür ürəklər daha.
Təslim olmaq yaraşmaz bu gün ağrıya, aha,
Yalvarmaq istəyirəm Peyğəmbərə, Allaha,
Haqqımı qaytarmağa bir ömür də borc alım,
Xocalım, ay Xocalım!

Töküldülər üstünə quduz kimi, ac kimi,
Şumladılar yer kimi, qırdılar ağac kimi.
Dağıtdılar çöllərə əsir, yalavac kimi,
Səni qaldırammasam başım üstə tac kimi,
Tarixin yaddaşına çətin qalxım, ucalım,
Xocalım, ay Xocalım!

Bizdən ürək istədin, ürək vermədik sənə,
Bizdən kömək istədin, kömək vermədik sənə.
Bizdən qanad istədin, lələk vermədik sənə,
Aylarla su vermədik, çörək vermədik sənə,
Buraxdıq öz başına əlimizdən cənnəti,
Sənsiz nəyimə gərək Məkkə görüm, Hac alım,
Xocalım, ay Xocalım!

Təzədən yandı xallar muğamın nəvasında,
Bayquşlar ötür bu gün bülbülün yuvasında.
Biqeyrət oğulların şan-şöhrət havasında,
Kəmfürsət övladların vəzifə davasında,
Harayına çatmağa tapılmadı macalım,
Xocalım, ay Xocalım!

Yerbəyer eyləməmiş sevincimi, dərdimi,
Bir-birindən seçməmiş mərdimi, namərdimi,
Əjdahalar əlindən qurtarmamış yurdumu,
Tanrının qırmancına döndərməmiş ordumu,
Qoy gəlməsin ölümüm, qoy çatmasın əcəlim,
Xocalım, ay Xocalım!
XOCALIM, AY XOCALIM!!!

1997, 31 yanvar

QAÇQIN ÇADIRINDA BİR QIZ AĞLADI

İmamverdi İsmayılova

Qaçqın çadırında bir qız ağladı,
Dünyanın ağrısı, acısıydı o.
Qaçqın anaların qəmli balası,
Qaçqın qardaşların bacısıydı o.

Ağrılar ah olub, dildən, ağızdan,
Yanğılar yaş olub gözdən çıxırdı.
Elə hönkürdü ki, bizi görəndə,
Sanki acığını bizdən çıxırdı.

Kirpiyində qrov, saçlarında qar,
Qışın ortasında qarlı qışdı o.
Çadırlar içində bu səkkiz ildə,
Bəlkə də səksən il qocalmışdı o.

Dövr edib at çapır belədən-belə,
Sazaq iliyində, şaxta qanında.
Qalıb qara günün möhürü kimi,
Palçıq topuğunda, kir dabanında.

Solğun baxışları soğulmuş bulaq,
Əlləri bənzəmir qız əllərinə.
Gör torpaq həsrəti nə divan tutub,
Qədim Qarabağın gözəllərinə.

Damlanın dəryaya təsiri varmı,
Yardım gətirmişik, nədir bu yardım.
İmkanım olsaydı, biganələri,
Dişimlə dağıdıb parçalayardım.

Qardaşım, bərk yapış daşdan, qayadan,
Ayağın altında titrəməsin yer.
Yardım əvəzinə, oğulsan ona
İsa bulağından bir ovuc su ver.

Gözünə nur gələr, dizinə taqət,
Ölmüş duyğuları dirilər onda.
Dönüb dağ döşündə tər çiçəklərə,
Sevilər, qoxlanar, dərilər onda.

Sən qovrul, mən yanım, verək baş-başa,
Qarışaq bu dərdin acılarına.
Tüstüyə çevrilək, dumana dönək,
Qalxaq çadırların bacalarına.

Qaçqın çadırında bir qız ağladı,
Dünyanın ağrısı, acısıydı o.
Qaçqın anaların qəmli balası,
Qaçqın qardaşların bacısıydı o.

ARZU

Dəlib-deşir ürəyi dərd ürəkdə qalanda,
Dərdləşmək gözəl işdi, dərdini duyan ola.
Ürəyindən keçəni gözlərindən oxuyan,
Sənə ömrünü verib, vaxtını qıyan ola.

Qayğılar sığal çəkə könül adlı sazına,
Naz satasan dünyaya, dünya dura nazına.
İnsan qibləyə dönə durasan namazına,
Sirrinə yaxşı sirdaş, qəlbinə həyan ola.

Səslər içində səsin, adlar içində adın,
Əzizinə dönəsən həm doğmanın, həm yadın.
İçində boğulmaya arzun, eşqin, muradın,
Hökmünü, qüdrətini ellərə yayan ola.

Yalan – zülmət, qaranlıq, doğru – səhər, doğru – dan,
Danışasan doyunca həqiqətdən, doğrudan.
Nə ruhunu sarsıdan, nə başını ağrıdan,
Nə dediyin söz üstə dərini soyan ola!

Ömür-gün varaqlana qədim bir kitab kimi,
Sevinci sevinc kimi, əzabı əzab kimi.
Duyğular, düşüncələr çözələnə sap kimi,
Fikir fikrə, səs səsə, söz sözə uyan ola!

Hökmü sənə yar ola dəqiqənin, saatın,
Nuruna çevriləsən, bu nurlu Kainatın.
O qədər şirinləşə ömrün, günün, həyatın,
Nə sən doymaq biləsən, nə səndən doyan ola!

GEDƏSƏN

Yatma bu yollarda, yolçu qardaşım,
Gərək bu yerləri görüb gedəsən.
Söz alıb güllərin gül dodağından,
Nəğmələr çələngi hörüb gedəsən.

Bağla öz meylini bəndə, bərəyə,
Göz yummaq olarmı bu mənzərəyə?
Bir dəfə verilir ömür hərəyə,
Gərək meyvəsini dərib gedəsən.

Yatmağa gəlmədin sən bu həyata,
İnanma sozalan mənzilə çata.
İnsafmı, yuxular başını qata,
Ömrünü yellərə verib gedəsən?

Alışıb-yanmasan gur ocaq kimi,
Eşqin gül açmasa bu torpaq kimi,
Qorxuram dünyaya bir qonaq kimi,
Elə qərib gəlib, qərib gedəsən!

DÜNYA

Vaxtında uzadıb kömək əlini,
Vermədin mənimlə əl-ələ, dünya.
Nəyimə gərəkdi vaxtı keçəndə,
Göydən qızıl yağdır, ləl ələ, dünya.

Acı yel üstümdən əsdikcə əsdi,
Yağan qar yolumu bağladı, kəsdi.
Gəl məni bu qədər yandırma, bəsdi,
Mən ki nə Kərəməm, nə Lələ, dünya.

Yolsuz yoxuşlarda yordum dizləri,
Ahımla qurutdum göy dənizləri.
Qaldı kürəyimdə kəndir izləri,
Dərdi dərd üstündən şələlə, dünya.

Aşılmaz dağları mən necə aşım?
Zəlimxan, fikirdən çatılıb qaşım.
O sənin daşındı, bu mənim başım,
Nə qədər istəsən gəl, ələ dünya!

YAXŞIDI

Səsin, ünün eşidilməz olanda,
Ünsüz ömrü yaşamasan yaxşıdı.
Qiblə seçib namazına durmasan,
Yönsüz ömrü yaşamasan yaxşıdı.

Uşaq qəlbin hər gün ağlar, kiriməz,
Arzuların ayaq açıb yeriməz.
Yüz il qalsa buzun, qarın əriməz,
Günsüz ömrü yaşamasan yaxşıdı.

Yağış yağsa, barlı bağa xeyri var,
Tər çiçəyə, yaşıl tağa xeyri var.
Nə zəmiyə, nə torpağa xeyri var,
Dənsiz ömrü yaşamasan yaxşıdı.

Həyat şirin, ömür gödək, gün baha,
Bağışlanmaz kim batarsa günaha.
Tapınmasan sevgi adlı Allaha –
Dinsiz ömrü yaşamasan yaxşıdı.

ƏYİLMƏZ

Öz eşqi var hər ucalan zirvənin,
Dağa təpə deyilməz ki, deyilməz.
Şimşəklərin pəncəsində didilməz,
Sel ağzında yeyilməz ki, yeyilməz.

Diri var ki, tez bükəsən ağlara,
Ölü var ki, dayaq olub sağlara,
Qarğaları qaldırasan dağlara,
Qartal kimi öyülməz ki, öyülməz.

Hər ucalıq bir alçağa dərd olar,
Üzdə gülər, ürəyində pərt olar.
Ömrü boyu mətin olar, mərd olar,
Sərt qayalar əyilməz ki, əyilməz!

OLAR

Ürəyin sazdırsa, sazı gözləmə,
Telsiz, təzənəsiz dil açmaq olar.
Qəlbində yaz varsa, yazı gözləmə,
Qışın ortasında gül açmaq olar.

Anlasan dilini odun-ocağın,
Duysan nəfəsini doğma torpağın,
Elə genişlənər qoynun, qucağın,
Gəl deyib dağlara qol açmaq olar.

Ona arxalandın ər oğlu, ərsən,
Əllərin sevinər barını dərsən.
Nə qədər torpağı yaxşı becərsən,
O qədər süfrəni bol açmaq olar.

Dağılmaz, pozulmaz nizamın olsa,
Özüllü, mayalı ilhamın olsa,
Daşı mum eyləyən inamın olsa,
Daşın da qəlbinə yol açmaq olar.

ARXAYIN OLMA

Baxtım gətirər deyib,
Çox da arxayın olma!
Tale sənin özünsən,
Baxta arxayın olma!

Könül bağlasan elə,
Dönərsən coşqun selə.
Qızıldan olsa belə,
Taxta arxayın olma!

Ömrü keçirmə hədər,
Ucal zirvələr qədər.
Yorulanda nəfəs dər,
Toxta, arxayın olma!

Yağdırar saçına qar,
Gələr qış, gedər bahar.
Quş olub uçmağı var,
Vaxta arxayın olma!

BELƏ QOCALASAN

Ya Qoşqar olasan, ya da Şahdağı,
Belə ucalasan, ucalanda da!
Borandan, tufandan, qardan, yağışdan,
Belə bac alasan, bac alanda da!

Səni deyib gələ quşlar yuvadan,
Adın misal qala dədə-babadan.
Vətəndən, torpaqdan, eldən-obadan,
Belə güc alasan, güc alanda da!

Hər əsən küləklə yarışmayasan,
Toz olub yerlərə qarışmayasan,
Alçaq əməllərlə barışmayasan,
Belə öc olasan, öc olanda da!

Olsa da canında qüvvətdən maya,
Döşünə döyməmiş nə daş, nə qaya.
Şöhrət gözlərini qamaşdırmaya,
Başında Günəşdən tac olanda da!

Eşqinlə hər gecə bir gündüz ola,
Sevincin birdisə, arta yüz ola.
Özün haqq olasan, sözün düz ola,
Yollar əl-ətəkdə, gec olanda da!

Şimşək nərəsini məzə biləsən,
Bu köhnə dünyanı təzə biləsən.
Öz qaya səbrinlə dözə biləsən,
İstəyin ləngiyib gec olanda da!

Zəlimxan, dağlara təpə gülməyə,
Qaya parçalanıb, daş tökülməyə.
Başa qar yağsa da, bel bükülməyə,
Belə qocalasan qocalanda da!

ŞEYXİM MƏNİM,
ŞAHIM MƏNİM,
ŞAİRİM MƏNİM

Ərdəbildə Şeyx Səfi türbəsində
Şah İsmayıl Xətainin məzarı
başında düşüncələr

Qızıl baxtım, qızıl taxtım, qızıl tacım, hey,
Həm uğurum, həm qüsurum, ağrım-acım, hey.
Bu günümdə çoxdu sənə ehtiyacım, hey,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Əldən çıxdı, fürsət mənim, çəm mənim deyil,
Göyçə yoxsa, necə deyim, qəm mənim deyil.
Təbriz, Dərbənd həm mənimdi, həm mənim deyil,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

İblis yenə fitnəsində, şeytan şərində,
Ağrı canda, nisgil gözdə, yara dərində.
Tağım uçdu, belim sındı Xudafərində,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Ömrümüzü közə tutub, oda verdilər,
Özümüzü özgələrə qida verdilər.
Nəvələrin Borçalını yada verdilər,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Yerevana döndərdilər Rəvanımızı,
Sarsıtdılar qocamızı, cavanımızı,
Səndən sonra düşmən qurdu divanımızı,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Allah bizə fürsət verdi, ağıl vermədi,
Allah bizə övlad verdi, oğul vermədi,
Allah, bizə əvvəl verdi, axır vermədi,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Taleyimiz qapaz görüb, şillədən keçib,
Mərd kişilər başdan keçib, kəllədən keçib.
Ulu şeyxlər, şah oğullar güllədən keçib,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Qollarınla torpağıma sarıl, gəl, babam,
Oxa çevril, kaman kimi gəril, gəl, babam.
Dirilt bizi, yaşat bizi, diril, gəl, babam,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Çaldıranda yaralanmış şahıma qurban,
Bu yaradan tüstülənən ahıma qurban,
Tarixdəki on üç yaşlı dahimə qurban,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

QORUYA BİLMƏDİK MƏZARINIZI

Molla Pənah Vaqifin, Xan qızı Natəvanın, Aşıq Ələsgərin, Dədə Şəmşirin, Sarı Aşığın müqəddəs ruhları! Sizin qarşınızda günahkarıq! Siz günahımızdan keçsəniz də, Allah bizi bağışlamayacaq. Qoruya bilmədik məzarınızı!

Qayanı yardılar, daşı çapdılar,
Məqbərə ucaldıb, günbəz yapdılar.
Sizin ruhunuzu sevən nəsillər,
Sizin adınızla şöhrət tapdılar.
Belinə daş qoyduq biz o şöhrətin,
Qoruya bilmədik məzarınızı!

Könül adamları, ruh adamları,
Ağrı adamları, ah adamları,
Saflıqda dünyanın şeh adamları,
Ulu məmləkətin şah adamları,
Belimiz qırıldı şah damarından,
Qoruya bilmədik məzarınızı!

Döyüşdə əsgərə dönə bilərdik,
Torpaqda səngərə dönə bilərdik,
Sıyırılmış xəncərə dönə bilərdik,
"Allahu-əkbər"ə dönə bilərdik.
Dünya bizdən ötrü məhşərə döndü,
Qoruya bilmədik məzarınızı!

Yurdun işığını, nurunu satdıq,
Odunu, közünü, qorunu satdıq,
Satdıq, dədəmizin gorunu satdıq.

Qaniçən yağının ixtiyarına,
Qəbristan da verdik, qəbir də verdik.
Utanmaz-utanmaz hələ bir durub,
Millətə dözüm də, səbir də verdik.
Hər şeyi qoruduq, ismətdən özgə,
Hər şeyi qoruduq, qeyrətdən özgə,
Qoruya bilmədik məzarınızı!

Yaxına gəlmədi uzaqlarımız,
Çox yerdə kar oldu qulaqlarımız.
Baltalar enəndə kökə, gövdəyə,
Bilmədik quruyar budaqlarımız.
Axarı qarışdı zir-zibillərə,
Gözündən bulandı bulaqlarımız,
Qurumaz bulaqlar, qaynar çeşmələr,
Qoruya bilmədik məzarınızı!

Dağıldı, töküldü torpağın üstü,
Hər yanı dumandı, hər yanı tüstü.
Könül bulandıran bu mənzərədən,
Dünyanın müqəddəs ruhları küsdü.
Vaqifi qaldırıb Cıdır düzündə,
Şeir köhləninə mindirən olsa,
Qəmli Natəvanı tutub söhbətə
Ruh verib, dil verib dindirən olsa,
Eşitmək ağırdı ah-zarınızı,
Qoruya bilmədik məzarınızı!

Göyçə göyüm-göyüm göynədi getdi,
Ağdamda ağ gündən əsər qalmadı.
Gəldi Kəlbəcərin qara günləri,
Şuşada bir tutar, kəsər qalmadı.
“Vaqif! Ey sərvərim, ey tacidarım!”
Başdan Şuşa adlı tacı vermişik!

Şuşanı verməklə düşmən cənginə,
Məkkəni vermişik, Hacı vermişik!
Yaxşının məzarı yad tapdağında,
Biz Sarı Aşığa acı vermişik!

Eheeey! Hayandasan, Xan qızı, söylə,
Eheeey! Hayandasan, Ələsgər dədə,
Eheeey! Hayandasan, gəl, Dədə Şəmşir,
Haraya uçdunuz əllərimizdən?
Hayana saldınız güzarınızı?
Qoruya bilmədik məzarınızı!!!

DÜNYANIN YAXŞI ŞEİRİ

Ulu ozanımız Yunus Əmrəyə

Nurlu gözdə bəslənir, odlu canda yaranır,
Çaxır şimşəklər kimi, bircə anda yaranır.
Gah qanlı davalarda, gah zindanda yaranır,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!

Xəzinəsi tükənməz ağır eldi, obadı,
Dilqəmin məktubunu öpən badi-səbadı.
Şəhriyarın dilindən qopan "Heydərbaba"dı,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!

Dünən dərin bildiyin, bu gün dayaz görünür,
Yazdığın yazılarda nə qış, nə yaz görünür.
Zəiflər bolluğunda yaxşılar az görünür,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!

Oğulsan, axarına, zərbəsinə qarşı dur,
O, zülmə, ədavətə, xəyanətə qarşıdır.
Məmməd Akif Ərsoyun sərt "İstiqlal marşı"dır,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!

Doğulan çox olsa da, neyləsin doğan ana,
Hər gün dünyaya gəlmir nə Yunus, nə Mövlana.
Dahilik zərrə-zərrə hopur iliyə, qana,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!

Qəlb incələ-incələ iynəyə sap olsa da,
Can quruya-quruya quruyub çöp olsa da,
Qalaq-qalaq yazılar yığılıb çap olsa da,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!

Kökü qədimdən qədim, Adəmdən, Nuhdan gəlir,
Qarışıb qandan keçir, süzülüb ruhdan gəlir.
Ruh da, qan da, nəfəs də qadir Allahdan gəlir,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!

ÇIRAQQALA

Memar dostum Ömər Qoçuluya

Hər qalanın adında bir zamandan nişan var,
Bu qala nur qaladı, bu qala çıraq qala.
Tacından Günəş öpər, taxtından yaşıl çəmən,
Düşmən üçün göz dağı, dost üçün yaraq qala!

Durar öz səngərində bərəni, bəndi gözlər,
Göz olar sərhədimə şəhəri, kəndi gözlər.
Sağı doğma Bakını, solu Dərbəndi gözlər,
Qoymaz haqqın yerini şər tuta, nahaq ala!

Oduyla, alovuyla açılıb lala kimi,
Zaman bağrına basıb istəkli bala kimi.
Hər insanın ömründən bu məğrur qala kimi,
Tarixlərdə yadigar səs qala, soraq qala!

Əllərinlə sığal çək, əldən od alsın qaya,
Ruhlar salama gəlsin, ərənlər çatsın haya.
Hər səhər zirvəsindən boylan bütün dünyaya,
Hər axşam ətəyində sönməz bir ocaq qala!

Bu ucalıq eşqinə qoy dillənsin ozanım,
Mən də coşum, çağlayım, öz vaxtımdı, öz anım.
Ey mənim tale adlı kitabımı yazanım,
Qoyma bu yer tarixin gözündən iraq qala!

Zaman görər işini, yazı dönər qışına,
İlişərsən taleyin kotanına, xışına.
Şair, dön bu qalanın kərpicinə, daşına,
Bəlkə, qoca dünyada səndən bir varaq qala!

BU, MƏNİM BORÇALIMDI

Bu yeri xəlq edəndə sevgi üstə oxuyub,
Yaradanın özü də çiçək ətri qoxuyub.
Gör bu boyda xalını necə qurub, toxuyub,
Yamyaşıl çəmənləri ipək tirməşalımdı,
BU, MƏNİM BORÇALIMDI!

Bir yanı dağ çayları, bir yan aran yeridi,
Çəkilən nərələrin dağlar yaran yeridi.
Qorqudun, Koroğlunun haqqa varan yeridi,
Kişnərtili köhlənim, od qoparan nalımdı,
BU, MƏNİM BORÇALIMDI!

Başkeçid deyilən söz başda tacımız oldu,
Qayası qardaşımız, gülü bacımız oldu.
Sonu ağıya döndü, ağrı-acımız oldu,
Ağı, zəhər qatılmış şərbətimdi, balımdı,
BU, MƏNİM BORÇALIMDI!

Sınıq körpü bəlkə də sındırılmış ürəyi,
Zalımların əliylə bıçaqlanıb kürəyi.
Dar gündə, dar ayaqda oğullardı gərəyi,
Şahə qalxan dövranım, yorğun düşən halımdı,
BU, MƏNİM BORÇALIMDI!

Dərbənd kimi aralı, Təbriz kimi yaralı,
Yarasından qan damır, kim vurub bu maralı?
Taleyi bəd, bəxti kəm, günü ağlı-qaralı,
Döyüşüm, mübarizəm, cəhlim, qeyli-qalımdı,
BU, MƏNİM BORÇALIMDI!

Otuz ildi uçmuşam, gündə bir budaqdayam,
Get-gəlim çox olsa da, gözündən uzaqdayam.
Allah, necə dözürəm, daşam, yoxsa taxtayam,
Sevgisində rəhmdil, həsrətində zalımdı,
BU, MƏNİM BORÇALIMDI!
Alnındakı yazılar naxışımdı, xalımdı,
BU, MƏNİM BORÇALIMDI!

BORÇALI HARDA YERLƏŞİR

Bu sualı verən nadürüstə cavab

Arzumuzun nübarında yaşayır,
Könlümüzün qubarında yaşayır,
Əlimizin qabarında yaşayır,
Alnımızın tərindədi Borçalı!

Can odu var ocağında, külündə,
Göz nuru var günəş öpən gülündə.
Çəmənlərin məxmərində, tülündə,
Çiçəklərin zərindədi Borçalı!

Qoca gördüm, saçlarına qar dedim,
Könül verdim, gözəlinə yar dedim.
Yer üzündə səkkiz cənnət var dedim,
O cənnətin birindədi Borçalı!

Taleyində bir qıcanmış diş görür,
Sinəsini güllələrə tuş görür.
Qazan asır, ocaq çatır, iş görür,
Xeyrindədi, şərindədi Borçalı!

Beyni kütə, ağlı aza görünməz,
O bir dərddi, kefi saza görünməz,
Hər naşıya, hər dayaza görünməz,
Könlümə bax, dərindədi Borçalı!

Həm özünə, həm adına qurbanam,
Həm duzuna, həm dadına qurbanam.
Neçə-neçə Fərhadına qurbanam,
Neçə-neçə Şirindədi Borçalı!

Nə bir alçaq, nə bir yağı tərpədər,
Nə bir kökü, nə bir tağı tərpədər,
Bir nərəsi yeddi dağı tərpədər,
Tərpənməyib, yerindədi Borçalı!

BORÇALI DEYİLƏN

Adəmdimi, Həvvadımı, Nuhdumu,
Ürəkdimi, nəfəsdimi, ruhdumu,
Ağrıdımı, acıdımı, ahdımı,
Kimdi günü göy əsgiyə düyülən?
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Neçə dəfə dəyişdilər adını,
Bircə dəfə dəyişmədi dadını.
Dosta verdi ürəyinin odunu,
Dost dilində əzizlənən, öyülən,
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Zəhərdimi, şəkərdimi, baldımı?
Sığaldımı, naxışdımı, xaldımı?
Dillidimi, dilsizdimi, laldımı?
Təhqir olan, yad dilində söyülən,
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Palıd kimi tufanlarda öc olan,
Qüvvət kimi qolumuzda güc olan,
Papaq kimi başımızda tac olan,
Zireh kimi əynimizə geyilən –
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Təbriz kimi həmi yaxın, həmi yad,
Dərbənd kimi həmi qəmli, həmi şad,
Göyçə kimi harayına yox imdad,
Haqqı-sayı tikə-tikə yeyilən –
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Saya gəlməz qayğılarla yüklənən,
Telli sazı qəm üstündə köklənən,
Yağıların meydanında təklənən,
Bədbəxtliyi görkəmindən duyulan –
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Yaddan çıxıb yaxşılığı, yeyliyi,
Əldən gedib sultanlığı, bəyliyi,
Götürəmmir gədəliyi, səyliyi,
Düşmənidi düşmənlərə əyilən,
Nəymiş, Allah, bu Borçalı deyilən?!

İçimizdən qalxan ahmı günahkar?
Adil şahmı, Nadir şahmı günahkar?
Yüz bəndəmi, bir Allahmı günahkar?
Heç bilmirəm kimdi döyən, döyülən,
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Aranında əl-ayağı kəsilən,
Yaylağında bəndi-bağı kəsilən,
Bir gün solu, bir gün sağı kəsilən,
Damar-damar dabanından soyulan,
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Loğma-loğma yad ağzına atılan,
Parça-parça satqınlara satılan,
Qarış-qarış özgələrə qatılan,
Unudulan, sol əl ilə tutulan,
Yolu-izi göz yaşıyla yuyulan –
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Həsrətinə kim batmaya, kim bata,
Harayına kim çatmaya, kim çata,
Qovğasında kim ayıla, kim yata,
Yatan bilmir nələr çəkib ayılan,
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Övladını kişi gördüm, mərd gördüm,
Mərdlərində dağlar boyda dərd gördüm,
Dərd çəkəni qaya kimi sərt gördüm,
Aman Allah! Nə bəlalı yurd gördüm,
Nəymiş, Allah, bu Borçalı deyilən?!

Yaraları göz-göz olan, sulanan,
Duru gözü çalxalanan, bulanan,
Suymuş, Allah, bu Borçalı deyilən,
Buymuş, Allah, bu Borçalı deyilən!!!

QALASIYAM

Borçalı oğullarının dilindən

Yağlı loxma saymasın heç kəs məni dünyada,
Nə quşa yem olası, nə qurda qalasıyam!
Gözlərimin nurudu doğulduğum bu torpaq,
Nur məndə qalasıdı, mən nurda qalasıyam!

Ey anamın göz yaşı, ey atamın başdaşı,
Ey mənim dağlarımın qəmdən çatılan qaşı,
Dar ayaqda dayanıb sizin ilə yanaşı,
Bu elə, bu obaya, bu yurda qalasıyam!

Onsuz mənim ömrümün yaşılı, alı yoxdur,
Onsuz mənim baxtımın atı var, nalı yoxdur.
Borçalıdan savayı ayrı Borçalı yoxdur,
Dünya köç-köç olsa da, mən burda qalasıyam!

BORÇALI

Qucağında göz açmışam bu işıqlı dünyaya,
İşığa dön, başdan-başa, nura boyan, Borçalı!
Hikmətindən, söhbətindən, duruşundan doymuram,
Tapılarmı yer üzündə səndən doyan, Borçalı!

Qollarını gəlişimə bağ açandı, dağ açan,
"Can!" demişəm, hər görəndə arana "can!", dağa "can!"
Şair Nəbi, Aşıq Şenlik, Xındı Məmməd, Ağacan,
Kimlər olub səni sevən, səni duyan, Borçalı!

Ucalığım zilindədir, dərinliyim pəsində,
Biganəlik görməmişəm, hələ bircə kəsində.
Xan Əmrahın, Kamandarın, Saraçlının səsində,
Öz eşqini dal-dalğa ərzə yayan Borçalı!

Yaylaqları gəl-gəl deyən Başkeçidim başdadı,
Saflığımız çiçəklərin gözündəki yaşdadı.
Əyriqarım, Ağlağanım Nuhla eyni yaşdadı,
Tarixiylə tarixlərdə nişan qoyan Borçalı!

"Sürün!" desən, səndən ötrü dizin-dizin sürünnəm,
"Bürün!" desən, şad günündə gül-çiçəyə bürünnəm,
"Görün!" desən, qartal kimi zirvələrdə görünnəm,
Səsim olar dağ başında sənə həyan, Borçalı!

Mən qoymaram, toyun, yasın nəzərimdən yayına,
Çağırmamış yetişərəm harayına, hayına,
Qoşularam bulağına, qarışaram çayına,
Unudulmaz el yolunda ömür qoyan, Borçalı!

İnamında dəmir, polad, dözümündə daş-qaya,
Zatında bir yenilməzlik, südündə halal maya.
Neçə-neçə Nərimanlar gətirəcək dünyaya,
Nərimanı öz başının tacı sayan Borçalı!

Torpağında Rəşid kimi pəhləvanın gücü var,
Dağlarında igidlərin qalası var, bürcü var.
Övlad kimi Zəlimxanın hələ sənə borcu var,
Öz yerində ağır əyləş, möhkəm dayan, Borçalı!

GEC OLACAQ

Bu çiçəyin qədrini bil,
Solub getsə, gec olacaq.
Qara yellər ağ gülləri,
Yolub getsə, gec olacaq.

Öp bu çiçəyin gözünü,
De bu çəmənin sözünü.
Qoru bulağın gözünü,
Dolub getsə, gec olacaq.

Haqqı bir bil, biri saxla,
Ocağa dön, piri saxla.
Zəlimxanı diri saxla,
Ölüb-getsə, gec olacaq

PAPAĞI GÜNƏ YANDIRMA

Haqq danış, dilini yandır,
Oda gir, əlini yandır.
Saza dön, telini yandır,
Papağı günə yandırma!

Səngər eylə, döşün varsa,
Qalalar tik, daşın varsa.
Papaq altda başın varsa,
Papağı günə yandırma!

Pas tutar parlayan dəmir,
Od kül olar, köz də kömür.
Həmişəlik deyil ömür,
Papağı günə yandırma!

Yalvar, yaxar, yüyür, yeri,
Ötən günlər gəlməz geri.
Boş ömrün boş qalar yeri,
Papağı günə yandırma!

SEVGİ

Gələndə yaşımı heç soruşmadı,
Baxmadı zamana, yaşa bu sevgi.
Birdən bir dəlisov oğlana döndü,
Tutdu pəncərəni daşa bu sevgi.

Dedilər yol axtar qız ürəyinə,
Süzül damla-damla, süz ürəyinə.
Od qoydum yanmışın buz ürəyinə,
Az qaldı dünyanı aşa bu sevgi.

O səslər hələ də qulağımdadı,
Baharın həsrəti yanağımdadı,
Hələ ki, payızın sınağındadı,
Görək dözəcəkmi qışa bu sevgi.

ƏN BÖYÜK QƏHRƏMANLIQ

Qanqalların içində çiçək ömrü yaşamaq,
İblislərin içində mələk ömrü yaşamaq,
Ən böyük qəhrəmanlıq!

Hiylədən uzaq olmaq məkrin odu içində,
Dili təmiz saxlamaq dedi-qodu içində,
Ən böyük qəhrəmanlıq!

Qarasında batmamaq qəlbi, ruhu hislərin,
Toruna ilişməmək tamahdan hərislərin,
Ən böyük qəhrəmanlıq!

Başsızların içində salamat baş saxlamaq,
Huşsuzların içində iti yaddaş saxlamaq,
Çiyində dağ gəzdirib, ürəkdə daş saxlamaq,
Ən böyük qəhrəmanlıq!

Qarnına nökərlərin, mədəsinə qulların,
Var-dövlətin içində mənəvi yoxsulların,
Qara qəpiyə dönmüş dəbdən düşən pulların,
zamanında yaşamaq,
Göz tökən xəbislərin dumanında yaşamaq,
Ən böyük qəhrəmanlıq!

Nə qədər əlləşirsə, çəkilmir bu dumanlıq,
Eh, birdimi, beşdimi insan tutan yamanlıq.
Yamanlığın içində yaxşılığı bacarmaq,
Ən böyük qəhrəmanlıq!

YAŞIL ÇƏMƏN

Qəmli-qəmli üz tutmuşam dərgahına,
Məni qəmdən uzaq eylə, yaşıl çəmən!
Macalım yox ömrüm boyu qalmaq üçün,
Bircə günlük qonaq eylə, yaşıl çəmən!

Təmizlənim zirvələrin qarı kimi,
Ətirlənim budaqların barı kimi,
Ləçəklərdən şirə çəkən arı kimi,
Sevgimi bir bulaq eylə, yaşıl çəmən!

Qəm küsdürür, dərd ağladır ürəkləri,
Məlhəm kimi qoy yarama çiçəkləri.
Səhər vaxtı əsib keçən küləkləri,
Saçlarımda daraq eylə, yaşıl çəmən!

Yaxşı yatıb, qışda görüb qar işini,
Yaz toxuyub arğacını, ərişini.
Ətir payla, yurdumun hər qarışını,
Gözlərimə çıraq eylə, yaşıl çəmən!

Mən gəlmişdim nəfəsini qoxlamağa,
Söz vermişdim, ömrü cavan saxlamağa.
Nə qalıb ki, əlli yaşı haqlamağa,
Qaytar məni uşaq eylə, yaşıl çəmən!

HAQQA DOĞRU YOL GEDİRƏM

Ay dolandı, il hərlədi çarxını,
Əlli gəldi, keçdim ömrün qırxını.
Görə-görə qan-qadanı, qırğını,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Əsirgəməz gün işığı, Ay nuru,
Qismətimdi yaz yağışı, yay nuru.
Allah mənə pay göndərib, pay, nuru,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Dərd gəlsə də, özümü şən tutmuşam,
O işığın ətəyindən tutmuşam,
Heç bilmirəm uduzmuşam, udmuşam,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Açdığım əl fələklərə doğrudu,
Tutduğum üz çiçəklərə doğrudu,
Hər gün üzüm mələklərə doğrudu,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Sudan duru, aydan arı mənəm, mən,
Dağ çiçəyi, zirvə qarı mənəm, mən.
Can sirdaşı, könül yarı mənəm, mən,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Haqqa bağlan, tap qəlbində haqqa bağ,
Haqq axtarma, haqqa boylan, haqqa bax!
Mən sonrayam, haqq əvvəldi, haqq qabaq,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Ulu Tanrım!
“Olmaz!”ları “ol!” – eylə,
Ulu Tanrım!
İmanımı bol eylə,
Ulu Tanrım!
Məndən sənə yol eylə,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

GÖYGÖL

Sazın “Müxəmməs”i, “Misri”, “Dilqəmi”,
Tarın “Cahargah”ı, “Şuru”udu Göygöl.
Böyük Nizamidən yadigar qalıb,
Xalqımın gözünün nurudu Göygöl.
Ləkəsiz qəlbidi Azərbaycanın,
Odur ki, bu qədər durudu Göygöl!

EY ALLAHI SEVƏNLƏR

Qulaq asın haqdan gələn səslərə,
Qulaq olun, ey Allahı sevənlər.
Qucaq açın Allah deyən kəslərə,
Qucaq olun, ey Allahı sevənlər!

Allah olsun dilinizin duası,
Allah olsun gözünüzün şüası.
Allah olsun qəlbinizin mayası,
Çıraq olun, ey Allahı sevənlər!

Gözəlliyin taxtı-tacı qurulsun,
Vurulanlar dönsün bir də vurulsun.
Sizə baxsın, bulananlar durulsun,
Bulaq olun, ey Allahı sevənlər!

Çeşmə duru, dəniz duru, qum duru,
Gül üstə şeh göz yaşından dumduru.
Hikkənizi içinizdə dondurun,
Uşaq olun, ey Allahı sevənlər!

Dinsizlərin insafından, dinindən,
Nifrətindən, qəzəbindən, kinindən,
İblisindən, şeytanından, cinindən,
Uzaq olun, ey Allahı sevənlər!

Göyə baxın dan ulduzu doğanda,
İşıqlanın, nur zülməti boğanda.
Haqqın nuru yağış kimi yağanda,
Torpaq olun, ey Allahı sevənlər!

Ayaz dəymiş yanaqları qızdırın,
Şaxta vurmuş barmaqları qızdırın,
Buza dönmüş otaqları qızdırın,
Ocaq olun, ey Allahı sevənlər!

Yükünüzü, çəkinizi tanıyın,
Allah adlı təkinizi tanıyın,
Yerə baxın, kökünüzü tanıyın,
Budaq olun, ey Allahı sevənlər!

Könül dostum bir Günəşdi, bir Aydı,
Qəlbimdəki haqdan gələn haraydı.
Zəlimxanın ürəyi bir saraydı,
Qonaq olun, ey Allahı sevənlər!

GÖZÜMƏ AZ DƏYİR QARAPAPAQLAR

Hər dəfə şəhərdən kəndə dönəndə,
Üzür ürəyimi bir nigaranlıq.
Baxıram, özümə yazığım gəlir,
Duyuram, qəlbimə çökür qaranlıq.
Yorğun xəyalıma gör nələr düşür,
Dünənə qayıdır fikrim bir anlıq.
Ağır yerişindən yer ləngərlənən,
Hanı o qaməti, duruşu şaxlar,
Göyəmi çəkilib bin-bərəkəti?
Gözümə az dəyir qarapapaqlar!

Mən papaq deyəndə ata yurduna,
Sonsuz sədaqəti salıram yada.
Ana-bacılara ər vəfasını,
Namusu, qeyrəti salıram yada.
Necə sevinərdik kişi görəndə,
Papağa hörməti salıram yada.
Baxardıq dağların zirvəsi kimi,
Hər kimin saçında görünəndə qar.
Oynamır qamçısı, kişnəmir atı,
Gözümə az dəyir qarapapaqlar!

Nağıl yaraşıqlı, dastan şırğalı,
Bayatı ətirli söhbət istərəm.
Kişi təpərindən, ər nəfəsindən,
Qəlbimə, ruhuma qüvvət istərəm.
Müqəddəs sayılan el adətinə,
Əzəli, əbədi hörmət istərəm.
Böyüksüz od-ocağın, böyüksüz evin,
Təməli dağılar, özülü laxlar.

Varlana-varlana yoxsullaşırıq,
Gözümə az dəyir qarapapaqlar!

Cavanlar dağılıb, qocalar köçüb,
Yoxsul görməmişdim bu kəndi belə.
Toylar, toyxanalar uşaq yığnağı,
Kişilər nə yaman tükəndi belə.
Qəlbimdə dədələr həsrəti ki var,
Mənim də qəddimi bükəndi belə.
Aylar da, illər də düzülər səfə,
Gün gələr, qocalıq məni də haqlar.
Bizi nə gözləyir, onu bilmirəm,
Gözümə az dəyir qarapapaqlar!

Gör-götür dünyası göstərib bizə,
Elin başbiləni başda tac olub,
Sağlam toxum kimi düşüb torpağa,
Hər sözü bar verən bir ağac olub.
Əsil ağsaqqala, ağsaqqallığa,
Nəsildən-nəslə ehtiyac olub.
Oğullar görmüşəm, bir kəndin deyil,
Çiynində mahalın yükünü saxlar.
Aqil babalarım, de, hardasınız?
Gözümə az dəyir qarapapaqlar!

Uzağa düşəndə süddən, sümükdən,
Bir xalqın həyatı tükənə bilər.
Canında məhəbbət, gözündə heyrət,
Dilində bayatı tükənə bilər.
Bəmində laylası yadına düşməz,
Zilində "Heyratı" tükənə bilər.
Özünü tanımaz, özgəni görməz,
Qəlbi gen olarmı, düşüncəsi dar?
Döyünün, çırpının böyük ürəklər,
Gözümə az dəyir qarapapaqlar!

ŞAİR SÜFRƏSİ

Bu süfrəyə uzanan əllərimdə ləkə yox,
Bu süfrənin üstündə haram adlı tikə yox.
Burda yavan çörək var, burda yağlı tikə yox,
Bu süfrə duasını özün oxu, İlahi!

Bu nurlu halallığın kökü dərindən gəlib,
Saflığı dağ çeşməsi, suyu sərindən gəlib.
Bu əlin qabarından, alın tərindən gəlib,
Bu süfrə duasını özün oxu, İlahi!

Niyə halal yeyəndə zəhər dönüb bal olmur?
Niyə haram yeyəndə dillər dönüb lal olmur?
Hamının süfrəsində həmişə halal olmur,
Bu süfrə duasını özün oxu, İlahi!

Hər süfrə bir ocaqdı, hər gözdə bir işıq var,
Hər süfrənin başında məhəbbət, barışıq var.
Bəndənin duasında nəsə bir qarışıq var,
Bu süfrə duasını özün oxu, İlahi!

Haqqın dediklərini bəndələr poza bilər,
Nə bir günah tanıyar, nə qorxu, cəza bilər.
Duasız insan oğlu yolundan aza bilər,
Bu süfrə duasını özün oxu, İlahi!

Bu süfrədə kitab var, qələm, bir də mürəkkəb,
Yaşaran göz, yanan can, coşan ilham, daşan təb,
Bu süfrənin neməti ulu söz, ali məktəb,
Bu süfrə duasını özün oxu, İlahi!

Bu, şair süfrəsidi, artıq tamahdan uca,
Savabdı başdan-başa, durar günahdan uca.
Kimdi sözün sahibi, qadir Allahdan uca?
Bu süfrə duasını özün oxu, İlahi!

ÇƏKƏ-ÇƏKƏ

Şəvə saçımızı qara döndərir,
İllər başımıza əl çəkə-çəkə.
Nurlu baxışları salır nəzərdən,
Tale gözümüzə mil çəkə-çəkə.

Bəxtimiz qalxanda şölə saçmışıq,
Bəxtimiz yatanda gözdən qaçmışıq.
Nə qədər nadana ağız açmışıq,
Boğaz çəkə-çəkə, dil çəkə-çəkə.

Düşdü yoxsulları borca dünyanın,
Alçağı çox oldu uca dünyanın.
Qocalıb gedirik, qoca dünyanın
Dərdini, qəmini bol çəkə-çəkə.

Timsahlar gözünün yaşını sıxdı,
Yalanlar dünyanın sonuna çıxdı.
Satqınlar bu xalqın evini yıxdı,
Saxta kağızlara qol çəkə-çəkə.

Dağ da möhtac olur, düz də yollara,
Cığır da can atır, iz də yollara.
Yollar bizə baxır, biz də yollara,
Qalırıq gözləri yol çəkə-çəkə.

BU GECƏ YUXUMA GİRMİŞDİ ŞUŞA

Bu gecə yuxuma girmişdi Şuşa,
Cabbar ağlayırdı, Xan ağlayırdı.
Dönmüşdü qanadı qırılmış quşa,
Qarabağ başabaş qan ağlayırdı.

Uzadıb əlini Bakıya sarı,
Batdıqca günaha batıb, – deyirdi.
Vətən xainləri, yurd satqınları,
Satın Qarabağı, satın, – deyirdi.

Canında od vardı, istilənirdi,
Şuşanın dağları çəkirdi ahı.
Seyidin qəlyanı tüstülənirdi,
Zülfü oxuyurdu "Yetim segahı".

Bu gecə yuxuma girmişdi Şuşa,
Pənah xan qəzəbdən tir-tir əsirdi.
Şuşanı satanlar verib baş-başa,
Şəhərin üstündə qiymət kəsirdi.

Od tutub yanırdı Vaqifin goru,
Natəvan ah çəkib ağı deyirdi.
Usta toxunmuşdu hiylənin toru,
Hələ ki, sözünü yağı deyirdi.

Vidadi Qazaxda qalxıb məzardan,
Gəlirdi Vaqifin qəbrinə sarı.
Qurtarın! – deyirdi milləti dardan,
Qurtarın! – deyirdi bu torpaqları.

Gözündə yaş gördüm, yanağında nəm,
Cıdır düzündəki “Xarı bülbül”ün.
Dərdin sinəsində dağlandı sinəm,
Didərgin olmuşdu yarı bülbülün.

Ocaq yerlərində qaralırdı kül,
İsa bulağından qan fışqırırdı.
Susmuşdu Üzeyir, susmuşdu Bülbül,
Düşmən, mənəm deyib boğaz cırırdı.

Bu gecə yuxuma girmişdi Şuşa,
Cabbar ağlayırdı, Xan ağlayırdı.
Dönmüşdü qanadı qırılmış quşa,
Qarabağ başabaş qan ağlayırdı...

LAYLA,
XOCALIM, LAYLA

Duz basdılar yarana,
Layla, Xocalım, layla.
Düşdün gülləbarana,
Layla, Xocalım, layla.

Namərdi kim çağırdı?
Göydən ölüm yağırdı.
Dilnən demək ağırdı,
Layla, Xocalım, layla.

Daş üstə daşmı qaldı?
Salamat başmı qaldı?
Gözümdə yaşmı qaldı?
Layla, Xocalım, layla.

Qaçdı Novruzun tamı,
Kimdi yandıran şamı?
Yas eylədin bayramı,
Layla, Xocalım, layla.

Dərdin kimi acı yox,
Ağrı var, əlacı yox.
Ağlamağa bacı yox,
Layla, Xocalım, layla.

Hisdi, pasdı, qurumdu,
Tüstü burum-burumdu.
Hər tərəf uçurumdu,
Layla, Xocalım, layla.

Bu torpağın canısan,
Selə dönmüş anısan,
Sən kimin qurbanısan?
Layla, Xocalım, layla.

Xocasan, xocan hanı?
Cavansan, qocan hanı?
Tüstülü bacan hanı?
Layla, Xocalım, layla.

Çıxmağa yol olmadı,
Qucmağa qol olmadı,
Üzməyə sal olmadı,
Layla, Xocalım, layla.

Məndən küsdü soyadım,
Namərd olsun qoy adım,
Səni necə oyadım?
Layla, Xocalım, layla.

Kədər düşdü payına,
Səndən çətin yayına.
Hay vermədik hayına,
Layla, Xocalım, layla.

Yara sarıyan hanı?
Haqdan yarıyan hanı?
Yurdu qoruyan hanı?
Layla, Xocalım, layla.

Şuşamın ətəyi qan,
Balı qan, pətəyi qan.
Düşmənin kötəyi qan,
Layla, Xocalım, layla.

İtən çənim olaydı,
Bitən dənim olaydı.
Vətən mənim olaydı,
Layla, Xocalım, layla.

Yatan çətin ayıla,
Çətin adam sayıla.
Heyif Şah İsmayıla,
Layla, Xocalım, layla.

Dünya darmı, görəsən?
Qulaq karmı, görəsən?
Allah varmı, görəsən?
Layla, Xocalım, layla.

BU, SAZDIMI

Bu, sazdımı, ovsundumu,
Telə bax, Allah, telə bax!
Pərdə üstə dalğalanan,
Tülə bax, Allah, tülə bax!

Bir dəlisov atdı, yenə,
Yeri göyə qatdı, yenə.
Haqqa çataçatdı, yenə,
Zilə bax, Allah, zilə bax!

Uçan dağım, dərəm oldu,
Yanan bəndim, bərəm oldu,
Mahmud döndü Kərəm oldu,
Külə bax, Allah, külə bax!

Nəfsi təzə, nəğməsi tər,
Xan Əslinin düyməsi zər.
Açılıbdı gümüş kəmər,
Belə bax, Allah, belə bax!

Ürəyimi qan eyləyən,
Bağrımı şan-şan eyləyən,
Məni Zəlimxan eyləyən,
Elə bax, Allah, elə bax!

ÜÇ MÜQƏDDƏS DUYĞU

Ürəyimdə üç müqəddəs duyğu var,
Bir övladım, bir qələmim, bir sazım.
Çırağıdı taleyimin, baxtımın,
Bir övladım, bir qələmim, bir sazım.

El mənimdi, özülüm var, himim var,
Bir kök üstə min nəğməli simim var.
Qoy danışsın kim olmuşam, kimim var,
Bir övladım, bir qələmim, bir sazım.

Övlad ruhum, qələm dilim, saz köküm,
Hər üçünə səcdə qılım, diz çöküm.
Dərdim olsa, həm dərmandı, həm həkim,
Bir övladım, bir qələmim, bir sazım.

Əzizləyər torpağımı, havamı,
Döyüş olsa, özü çəkər davamı.
Məndən sonra dövranımın davamı,
Bir övladım, bir qələmim, bir sazım.

Bir çiçəyəm, torpağım var, göyüm var,
Bir ürəyəm, kamanım var, neyim var.
Bu Vətənin keşiyində nəyim var –
Bir övladım, bir qələmim, bir sazım.

QALACAQ

Yox, mənimlə getməyəcək bu dünya,
Mən getsəm də nələr, nələr qalacaq.
Ağlayan da tapılacaq, gülən də,
Yenə sevinc, yenə kədər qalacaq.

Bəzəyəcək xonçasını-xonunu,
Dünya hər il dəyişəcək donunu.
Görməsəm də mən dünyanın sonunu,
Öz yerində axşam-səhər qalacaq.

Kim yedisə çörəyi tək, duzu tək,
Əriyəcək o dağların buzutək.
Çox adamlar mələyəcək quzutək,
Çox adamın yurdu mələr qalacaq.

Ulu günəş işıq çilər dünyaya,
Öz nurunu hər gün ələr dünyaya.
Biri gedər, mini gələr dünyaya,
Yerdə həyat, göydə ləngər qalacaq.

Dərd daşıdım, qəm yüklədim şələmə,
Şeirə döndü, səsim düşdü aləmə.
Ay Zəlimxan, yaxşı sarıl qələmə,
Qalsa, yenə bu nəğmələr qalacaq.

BİR ŞAİR "DOSTUMA"

Qardaş, mən də bu torpağın oğluyam,
Elə bilmə çox uzaqdan gəlmişəm.
Əzizlərin, doğmaların dostuyam,
Nə ögeyəm, nə qıraqdan gəlmişəm.

Üzdən iraq yad qazanda bişmisən,
İsti vurub, tuluxlayıb şişmisən.
Sən zənbillə göydən yerə düşmüsən,
Mən ahımla enib haqdan gəlmişəm.

Neçə dəfə buzdan, qardan çıxmışam,
Min sınaqdan, min bir dardan çıxmışam.
Sıldırımlı qayalardan çıxmışam,
Diş göynədən buz bulaqdan gəlmişəm.

Kişi pozmaz ilqarını, əhdini,
Saya salmaz müxənnətin cəhdini.
Çəmən-çəmən çiçəklərin şəhdini,
Süzə-süzə bal, qaymaqdan gəlmişəm.

Səyirtmişəm babaların atını,
Tanımışam nişanını, zatını.
Öyrənmişəm yerin yeddi qatını,
Qədirbilən bir ocaqdan gəlmişəm.

Əsən yellər qanad verib, qol verib,
Coşan sellər çağlamağı bol verib.
Qarlı dağlar sinəsindən yol verib,
Gen ətəkli göy yaylaqdan gəlmişəm.

Sədasından çox yatanlar ayılar,
Halal ilham haqq vergisi sayılar.
Dalğa-dalğa yer üzünə yayılar,
Bir nəğməyəm, min dodaqdan gəlmişəm.

Küt getdisə, çörək olmaz kündədən,
Göyə çıxsa, Allah olmaz bəndədən.
Ha səpirsən, heç göyərmir səndə dən,
Mən zəmili bir oylaqdan gəlmişəm.

Mən qırmışam bulaqların buzunu,
Sən udmusan varaqların tozunu.
Nəyə gərək söz-söhbətin uzunu,
Sən kitabdan, mən torpaqdan gəlmişəm.

DÜNYA, DƏRDİN ÇƏKİLƏSİ DƏRD DEYİL

Yüngül olsa öhdəsindən gələrdim,
Dünya, dərdin çəkiləsi dərd deyil.
Təkbaşına çəkə-çəkə ölərdim,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Polad sındı, dəmir yandı mum oldu,
Sal qayalar toza döndü, qum oldu.
Sarayların yeri qara şum oldu,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Çaqqalların uladıqca uladı,
Tülkülərin quyruğunu buladı.
Pələng öldü, pişik meydan suladı,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Qara əllər sinəmizə köz basır,
Bəd əməllər yaramıza duz basır.
Yüz daldala, yüz malala, yüz basır,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Can yandıran odlu ahdan qorxuram,
Qanlar tökən hər silahdan qorxuram.
Həm bəndədən, həm Allahdan qorxuram,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Dinsiz olub insaflılar, dinlilər,
Qılınc çəkir qəzəblilər, kinlilər.

Cin atına yaman minib cinlilər,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Çirkaba bax, palçığa bax, lilə bax,
Lil içində yatıb qalan filə bax.
“Bizimki də qara gəldi belə, bax”,
Dünya, dərdin çəkiləsi dərd deyi[1].

[1] “Əsli-Kərəm” dastanından

DEMƏMİŞƏM

Gözüm görə-görə kor olammaram,
Baxıb görməyənə göz deməmişəm.
Dilin ağasıyam, ürəyin qulu,
Qəlbim hökm edəndə döz deməmişəm.

Düz sözə çoxları incidi, küsdü,
Yayıldı, açıldı sirrinin üstü,
Oda od deməmişəm, tüstüyə tüstü,
Yandırıb-yaxmasa, köz deməmişəm.

Çiçəkli baharam, şaxtalı qışam,
Soyuq bir nəzərəm, odlu baxışam.
Tikanı olanı tikanlamışam,
Gülə güldən artıq söz deməmişəm.

MƏNİ

Ana torpaq, dağa döndər eşqimi,
Yaylaq eylə, yamac eylə sən məni.
Qanadından yaralanmış quşların,
Ağrısına əlac eylə sən məni.

Ürək olub bu sevdaya düşənim,
İstəmişəm dağa qalxım, döş enim.
Çiçək olum, çəməninə döşənim,
Ərişinə arğac eylə sən məni.

Gec yetirib, tez-tələsik itirmə,
Yaz keçməmiş ömrə xəzan gətirmə.
Bitirəndə tikan kimi bitirmə,
Palıd kimi ağac eylə sən məni.

Ucalmağım – daş üstə daş qoymağım,
Yaşamağım – anlamağım, duymağım.
Ölməyimdir gözəllikdən doymağım,
Gözəlliyə möhtac eylə sən məni.

UCALIQ

Bəşər yaddaşına yazdı, yaşatdı,
Dünyaya tək gəlib, tək gedənləri.
Hər ocaq yetirməz, hər ana doğmaz,
Dünyaya pak gəlib, pak gedənləri.

Kim sürdü ömrünü, kim verdi bada,
Kimi doğmalaşdı, kim döndü yada.
Ucalan görmədim heç vaxt dünyada,
Tanrı varlığına şəkk edənləri.

Şöhrət min illəri keçdi, haqladı,
Nə dağ silkələndi, nə daş laxladı.
Allah öz qəlbində təmiz saxladı,
Allahı qəlbinə həkk edənləri!

İKİ DÖVLƏT,
İKİ TALE

Məğlub olmuş dövlətə bax, Almaniya!
Qalib gəlmiş dövlətə bax, SSRİ!
Birincinin adı bu gün ön cərgədə,
İkincinin qarışıqdı göyü, yeri!
Birincinin addımları məğrur, mətin,
İkincisi caynağında səfalətin.
Birincisi bölünmüşdü iki yerə,
Bütövləşdi bir can oldu.
İkincisi "sarsılmayan" bir qalaydı,
Uçdu, yerlə yeksan oldu!
Vaxtın hökmü dediyini yaman dedi,
Qalib kimdi, məğlub kimdi,
Son sözünü zaman dedi!

İLAHİ

Bir millətdi, bir torpaqdı, bir Vətən,
O tay nədir, bu tay nədir, İlahi?!
Hər tərəfə pay veriblər həsrəti,
O pay nədir, bu pay nədir, İlahi?!

Eyni bağdı, eyni bağça, eyni bar,
Eyni sazdı, eyni kaman, eyni tar.
Ortalıqda dəmir hasar, lay divar,
O lay nədir, bu lay nədir, İlahi?!

Üstümüzdən acı yeltək əsən kim?
Kəsilən biz, kəsdirən kim, kəsən kim?
Aman qardaş, de, mən kiməm, de, sən kim?
O hay nədir, bu hay nədir, İlahi?!

Millətə bax, dəmir tordan boylanır,
Diri evdən, ölü gordan boylanır.
Yeddi burdan, yetmiş ordan boylanır,
O say nədir, bu say nədir, İlahi?!

Hansı başdı, hansı bədən bilinməz,
Paralansa varmı vətən, bilinməz.
Orda ölən, burda itən bilinməz,
O vay nədir, bu vay nədir, İlahi?!

Bay olmasın, qarı düşmən bay oldu,
Çox ömürlər nisgillərə pay oldu.
İki yanda göz yaşımız çay oldu,
O çay nədir, bu çay nədir, İlahi?!

Bu söhbəti ortalığa kim salıb?
Bu həsrəti ortalığa kim salıb?
Bu zilləti ortalığa kim salıb?
O tay nədir, bu tay nədir, İlahi?!
O dərd nədir, bu dərd nədir, İlahi?!

1992, iyul
Təbriz

ÇİN QIZI, ÇİN GÖZƏLİ

Yanağın güldən zərif,
Belin telindən incə.
Dilin sözündən şirin,
Sözün dilindən incə.
Göy suların ağ quşu,
Qızdan, gəlindən incə.
Sən mənim nəzərimdə,
Dünyanın ən gözəli!
Çin qızı, Çin gözəli!

Dünyanın heç yerində
Sənin kimi pəri yox.
Həyatın səndən baha,
Sərvəti yox, zəri yox.
Bu, Allahın işidi,
Sənin gözəlliyindən,
Bəndənin xəbəri yox.
Yaradanın, Tanrının
Allaha tən gözəli!
Çin qızı, Çin gözəli!

Bu ağlıq ki səndə var,
Süd gölündə çimənsən.
Bu ətir ki səndə var,
Yamyaşıl bir çəmənsən.
Bu qiymət ki səndə var,
Ləlsən, yaqut, yəmənsən,
Süd yox, ana döşündən,
Ay işığı əmənsən.
Türk gələ, İran gələ,

Külli Hindistan gələ
Yerini verə bilməz,
Dünyanın min gözəli!
Çin qızı, Çin gözəli!

Səni ana doğmayıb,
Səni ata əkməyib.
Buludun arasından,
Hazır enmiş mələksən.
Heç kəs səni böyüdüb,
Zəhmətini çəkməyib.
Bir səsə bax, ay Allah,
Nəfəsə bax, ay Allah.
Qumru belə ötməyib,
Kəklik belə səkməyib.
Heç yerdə görməmişəm,
Belə zərif, belə şux,
Bir belə şən gözəli!
Çin qızı, Çin gözəli!

Mən indi başa düşdüm,
Niyə Nizami babam,
Çin yazıb, Çin deyirmiş.
Mən indi başa düşdüm,
Niyə Füzuli babam,
Sevgiyə din deyirmiş!
Mən indi başa düşdüm,
Nə üçün Molla Pənah,
Çinü Maçin deyirmiş!
Qar zirvənin şöhrəti,
Dağların çən gözəli!
Dünən babalar olub,
Bu gün heyranın mənəm,
Çin qızı, Çin gözəli!

1994, mart
Şanxay

KÜSMƏ MƏNDƏN

Bir məclisdə qızlarımıza "Çin qızı, Çin gözəli" şeirini oxuyurdum. Nəsibə adlı gözəl bir qız şeiri axıra qədər dinləmədən küsüb bayıra çıxdı ki, nə üçün belə gözəl bir şeiri Azərbaycan gözəlinə yox, Çin qızına yazmısınız.

Küsmə məndən, gözəl mələk, gözəli Allah yaradır,
Mənim kimi qullar üçün gözəlləri şah yaradır.
Məcnunları gecə-gündüz salır sonsuz səhralara,
Harda sevən Leyli varsa, orda bir dərgah yaradır.

Bircə gözəl yaradıbsa, bütün Çinə qurban olum,
Hansı dində olur olsun, mən o dinə qurban olum.
Yaradanın eşq adlanan hikmətinə qurban olum,
Yeri-göyü sevmək üçün insanda tamah yaradır!

Bakı hara, Pekin hara, könlüm onu yada salır,
Günahkaram, günahlarım ruhuma qan-qada salır.
Qadir Allah sevənləri dirigözlü oda salır,
Yazıq bəndə sevə-sevə gündə bir günah yaradır!

QOCATƏPƏ CAMESİNDƏ

Qocatəpə camesi... namaz cümə namazı,
Tanrı ibadətində qırx min adam var, azı.
İlk dəfə silkələndi qəlbim, ruhum, varlığım,
Əyilmək, taleyimə mənim minnətdarlığım!
Əyildim ucalığa qırx min adamla birgə,
Ulu bir intizamla, dürüst nizamla birgə!
Əyilməz türk övladı nə sultana, nə şaha,
Əyilməz türk övladı nə zora, nə silaha!
Əyilir bu gün ancaq,
Ayağının altındakı müqəddəs bir torpağa,
Başının üstündəki uca, qadir Allaha!
Türk oğlu nə düşmənə, nə bir yada əyilər,
Əyilsə, əqidəyə, etiqada əyilər!
Türk oğlu dizə çökməz diz çöksə dağlar belə,
Acı zəhərə dönsə, ən şirin çağlar belə!
Diz çökür bu gün ancaq,
Ən qədim bir millətin yenilməz inamına,
Çatır burda ürəklər arzusuna, kamına.
Dilimizə dad verir Quranın hər ayəsi,
Haqqa tapınmaq olmuş insanlığın qayəsi!
Bizi haqqa bağlayır göyə açılan əllər,
Dumduru düşüncələr, tərtəmiz, saf əməllər!
Dilimdə xeyir-dua şeirimi yaza-yaza,
Çağırıram dünyanı haqq yolunda namaza,
Çağırıram dünyanı Türk yolunda namaza!!!

AĞLI YOXDU

Saz dillənir, köz-köz olub yanıram,
Gözü yoxdu bu sehrə göz yumanın.
Allah bilir, neçə min il yaşı var,
Sazdan qalxan bu tüstünün, dumanın.

Öldürən kim, cəllad kimdi, yağı kim,
Kimlər çəkdi sinəmizə dağı, kim.
Kim nə bilsin xəstəsi kim, sağı kim,
Qəvvas olub bu dəryaya cumanın.

Kərəm niyə bir tərsaya bənd olub,
Yanan şəhər, tüstülənən kənd olub.
Bir düymədə niyə yetmiş bənd olub,
Bir işi var hər şübhənin, gümanın.

Keçə bilmir Ərzrumun qışından,
Daş əriyir yanağının yaşından.
Ağlı çıxıb Zəlimxanın başından,
Ağlı yoxdu ondan ağıl umanın.

1997, 6 dekabr

YAŞIL TAĞ ÜSTÜNDƏ YAŞIL YARPAQ OL

Yanıma gələndə yaşıl gey, gözəl,
Qarşıma yamyaşıl çəmən kimi gəl.
Yaşılbaş sonalar yaşıl göllərdə
Çalxanan kimi gəl, çimən kimi gəl.

Mavi dura-dura, göy dura-dura,
Sən Allah, geyinmə qara köynəyi.
Ömrün baharında qara geyənin,
Qara gün gətirər yara, köynəyi.

Yaşıl tağ üstündə yaşıl yarpaq ol,
Seçim ağdan səni, qaradan səni.
Saralmaq payızın nişanəsidir,
Yamyaşıl saxlasın Yaradan səni.

1998, 8 may

MƏHƏMMƏD FÜZULİYƏ

Ey Füzuli! Eşqin yenə məclisimə tam gətirib,
Nur dolu bir badə süzüb, sevgi dolu cam gətirib.

Muradın şəmi yanmazmı, bu şamı yandırmaq üçün,
Beş yüz ildən sonra gəlib, Tanrı özü şam gətirib.

Köhnə sözün, qədim sözün təzələrdən təzə qalıb,
Ulu sözün əyyamına yeni bir əyyam gətirib.

Yer üzünün şairləri ətrin ilə gözəlləşib,
Bir gülü Şəhriyar dərib, bir gülü Xəyyam gətirib.

Bu gün səni neçə-neçə sevən gəlib, duyan gəlib,
Adına salavat çəkib, ruhuna salam gətirib.

Ziyarətə gedən kəslər geyər ehram paltarını,
Bizi yenə ziyarətə söz adlı ehram gətirib.

Zəlimxan da eşqin ilə dönüb bu gün Məcnun olub,
Dərgahına könül dolu hörmət, ehtiram gətirib.

CAVİD ƏFƏNDİ

Sağlığında bir-birinə həsrət qalan, payına zülüm, intizar, ayrılıq düşən ATA – CAVİD, OĞUL – ƏRTOĞRUL BƏY, ANA – MÜŞKİNAZ XANIM 59 il, 3 ay, 10 gündən sonra Naxçıvan torpağında görüşdülər. Bu gün hər üçünün məzarı şairin doğulduğu torpaqda yan-yana durur, ruhları yanaşı uyuyur. Tale elə gətirdi ki, 41 ildən sonra böyük Cavid Naxçıvana qayıtdı. Naxçıvan şəhərində şairin doğulduğu evin yaxınlığında hər üç əzabkeşin şərəfinə məqbərə ucaldıldı. Əzəməti və gözəlliyi ölməz Məminə Xatun türbəsini xatırladan bu tarixi abidənin açılış günü Azərbaycan xalqının tarixində bənzərsiz və təkrarsız bir hadisə idi. Başdan-başa sevgiyə, sevincə tutulmuş yaşıl xiyabanda otun-suyun sanı var idi, insanın sayı-hesabı yox. Dəniz kimi dalğalanan izdiham ulu Cavidə öz sevgisini bildirmək üçün şahə qalxmışdı. Oktyabr ayının kəskin soyuğu və küləyi heç kəsi üşütmürdü. Çünki könüllərdə Cavid şeirinin odu-alovu dil-dil olub yerə-göyə işıq saçır, istilik, hərarət verirdi. Ölkənin möhtərəm prezidenti Heydər Əliyev çıxış edirdi. Sevinc və kədər qarışıq bir ovqatla danışırdı. İrandan və Türkiyədən gələn qonaqlar, çıxışçılar bir-birini əvəz edirdi. Şairin qızı – gözü odlar-alovlar görmüş TURAN XANIMIN çıxışı ömrüm boyu yadımdan çıxmayacaq. O, çıxış deyildi, korun-korun yanan ocaq idi, özü də yanır, tüstülənir, xalqı da yandırırdı. Tanrı fürsət verdi, mən də "Cavid Əfəndi" şeirimlə öz səsimi izdihamın səsinə qoşdum. Cavid Əfəndi də, Müşkinaz xanım da, Ərtoğrul bəy də o gün bizi eşidirdi. Ruhları şad olmuşdu. Bu şeir həmin günlərin yadigarıdı, əziz oxucular!

Bu nə şadlıq, bu nə bayram, bu nə görüş, bu nə həsrət,
Görüşümüz uzun çəkdi, gec oldu, Cavid Əfəndi!
Dillər yandı, tellər susdu, güllər soldu, bellər sındı,
Ayrılığın bu millətə güc oldu, Cavid Əfəndi!

Nə təhqirdən, nə zəncirdən, nə kəndirdən aman yoxdur,
Allahsızda Allah yoxdu, inamsızda iman yoxdu.
Kim getdisə, dedilər ki, qayıtmağa güman yoxdu,
Gör nə qədər günah oldu, suç oldu, Cavid Əfəndi!

Qələm qırdı, barmaq kəsdi, bilək sıxdı, qol bağladı,
Haqq deyənin qarşısında qəhər çəkdi, yol bağladı.

Qan üstündə bir taxt qurdu, zülmə, zora bel bağladı,
Səni yıxan imperiya heç oldu, Cavid Əfəndi!

Sənət üçün qorxu deyil buz baxışlar, buz nəfəslər,
Sənət üçün qorxu deyil qanlı əllər, dar qəfəslər.
Hardan bilsin, nədən bilsin ağlı topal olan kəslər,
"Topal Teymur" səhnəmizdə tac oldu, Cavid Əfəndi!

Yandı ürək, coşdu könül, düşündü baş, yaratdı əl,
Qalx məzardan, Cavid adlı heykəllərin seyrinə gəl.
Nurun Günəş, qəlbin atəş, gözün ocaq, sözün məşəl,
Bostanına yağan daşlar necoldu, Cavid Əfəndi!

İnam səndə, şərəf səndə, dözüm səndə, səbir səndə,
Sən qürbətdə, sən Sibirdə, qürbət səndə, Sibir səndə.
Qırx illik bir yoldan gəldi, quşa döndü qəbir səndə,
Maqadandan Naxçıvana köç oldu, Cavid Əfəndi!

Nə yandıran, nə dağıdan, nə də ki, uçuran qaldı,
Yaddaşlarda yaşa döndü, yazan aldı, quran qaldı.
Bir nəsildən sağ-salamat ancaq bircə Turan[1] qaldı,
Neçə-neçə xoş arzular puç oldu, Cavid Əfəndi!

Qarşıda qarlı aşırım, arxada uçurum, dərə,
Tutdu böhtan yağışına, atdı oda, satdı şərə.
"İblis"ə min lənət deyib, üz tutsan da peyğəmbərə,
Fələk sənlə zaman-zaman öc oldu, Cavid Əfəndi!

Ulu qüdrət olan yerdə yoxdu yeri dərd-azarın,
İşığına yığışmışıq bir türbədə üç məzarın.
Sən Allahın dostusanmış, son nəfəsin, son güzarın,
Vətən adlı Məkkə oldu, Hac oldu, Cavid Əfəndi!

Çaxnaşmalar caynağında neçə qış getdi, yaz gəldi,
İliyini şaxta vurdu, sümüyünə ayaz gəldi.
Ərtoğrulun harayına Cavidlə Müşkinaz gəldi,
Bu yerdə bir məzar vardı, üç oldu, Cavid Əfəndi!

[1] Turan – Cavid Əfəndinin qızı

AŞIQ ƏLƏSGƏRƏ

Könlümdə yaşadıb könül varımı,
Sazımı eşqinlə çalmışam, ustad.
Aylarla oxuyub qoşmalarını,
İllərlə xəyala dalmışam, ustad.

Bağlanıb varlığım qıfılbəndinə,
Tilsimdi, sehrindən qaça bilmirəm.
Bağlama demisən, bircə bəndinə,
Bir ömür qoymuşam, aça bilmirəm.

Ürəyin yanğısı tellərə düşüb,
Cinas ilmələnib, təcnis toxunub.
Yazıya düşməmiş dillərə düşüb,
Ellərin dilində əzbər oxunub.

Sən elə qatmısan balı qaymağa,
Dadan ləzzətindən doymur, ay ustad!
Sözün şöhrətini elə, oymağa,
Hamı sənin kimi yaymır, ay ustad!

Baxdım yaratdığın misraya, bəndə,
Nə memar işidir, nə zərgər dedim.
Dilim söz tutanda, ağlım kəsəndə,
Ələsgər çağırdım, Ələsgər dedim!

ALİM QASIMOVA

Nə cəh-cəhdi başlamısan, yermi qalxır, göymü enir?
Hər nəfəsin dünyamızı bəzər, Alim, bəzər, vallah!

Sal qayalar muma dönər, nəfəsini duya bilsə,
Buludlar da göz yaşını süzər, Alim, süzər, vallah!

Sular bilsə yanmaq nədir, atəşinə tab eyləməz,
Kür alışar, göyə qalxar Xəzər, Alim, Xəzər, vallah!

"Segah"amı, "Şüştər"əmi, "Qatar"amı çevrilmisən,
Nalələrin ürəyimi üzər, Alim, üzər, vallah!

Zildə Allah ucalığı, bəmdə bəndə mərtəbəsi,
Yerdə-göydə dalğa-dalğa gəzər, Alim, gəzər, vallah!

Xanəndələr bülbül kimi oxuyub səs-səsə versə,
Bir an səndən uzaqlaşmaz nəzər, Alim, nəzər, vallah!

Min il sonra Zəlimxanın qulağına səslər gələ,
Yenə sənin avazını sezər, Alim, sezər, vallah!

AŞIQ KAMANDARA

Əkdiyin gülləri, gəzdiyin bağı,
Bağban ol, doyunca qoxla, Kamandar.
Vaxtsız ayrılığı, vədəsiz köçü,
Sazın ovsunuyla oxla, Kamandar.

Zaman yağdırsa da saça qarını,
Vermisən ellərə eşqin barını.
Tərlan duruşunu, şah vüqarını,
Yüzdə də beləcə saxla, Kamandar.

Dil ver avazınla lal qayalara,
Dilindən süzülən bal qayalara.
Taleyin bənzəsin sal qayalara,
Nə əyil, nə də ki, laxla, Kamandar.

Ruhunla Qorqudtək qocalardasan,
Ahınla tüstülü bacalardasan.
Bəndə dərgahından ucalardasan,
Tanrı dərgahını haxla, Kamandar.

Əsən küləklərlə yarışmağı var,
Sellərə, sulara qarışmağı var.
Şairdi, küsməyi, barışmağı var,
Hərdən Zəlimxanı yoxla, Kamandar.

MƏMMƏD ASLANA

Harda gül görürsə, ayaq saxlayır,
Çiçək dəlisiymiş şair olanlar.
Açar sinəsini dəli yellərə,
Külək dəlisiymiş şair olanlar.

Çeşmələr laylası, çaylar bəstəsi,
Saz ruhu, ney canı, tar şikəstəsi.
Məhəbbət ölçüsü, gözəl xəstəsi,
Mələk dəlisiymiş şair olanlar.

Yerin sinəsində kükrəyər, axar,
Göyün sinəsində gurlayar, çaxar.
Dünyaya qəlbinin gözüylə baxar,
Ürək dəlisiymiş şair olanlar.

Eşqin dumanında azmaq istədi,
Nizamı, qaydanı pozmaq istədi,
Şeirini göylərə yazmaq istədi,
Lələk dəlisiymiş şair olanlar.

İçində bir od var, qaynayar, daşar,
Yolu düz yeriməz, çaşdırar, çaşar.
Arzuyla böyüyər, xəyalla yaşar,
Dilək dəlisiymiş şair olanlar.

Vara göz yumandı, yox dəlisidi,
Allahın gözləri tox dəlisidi,
Şairlər hamısı haqq dəlisidi,
Fələk dəlisiymiş şair olanlar.

SABİR RÜSTƏMXANLIYA

Bir gün məni dağ oynatdı yerindən,
Bir gün məni dağ laləsi çağırdı.
Rüstəmxanlı bir qıy çəkdi zirvədə,
Yardımlının şəlaləsi çağırdı.

Dağ dilində nə söz varsa, dağ dedi,
Məni gördü, öz baxtına ağ dedi.
Bulud, şimşək kükrə dedi, yağ dedi,
Suyun eşqi, selin eşqi çağırdı.

Gözüm gördü, könlüm sevdi bu yurdu,
İşıq yurdu, Günəş yurdu, su yurdu.
Qoca dağlar oğlu kimi buyurdu,
Çiçək ətri, gül haləsi çağırdı.

Bu xırmanda ovum-ovum ovuldum,
Dədələrin çaxmağına qov oldum,
Şah babamın ovlağında ov oldum,
Xətainin əfsanəsi çağırdı.

Kök ocaqdı, kök tarixdi, kök izdi,
Bələdçimiz tək cığırdı, tək izdi.
Borçalının dağlarıyla əkizdi,
Həm Kərəmi, həm Lələsi çağırdı.

Hər sal qaya min yaşında bir qoca,
Dərə eniş, zirvə yoxuş, dağ uca.
Zəlimxanı uzaq yollar boyunca,
Duyğuların zəlzələsi çağırdı.

MURAD KÖHNƏQALAYA

Ay Murad, sehrinlə qır tilsimləri,
Bir görək o köhnə qalada nə var?
Haqqın dərgahına qaldır bizləri,
Bir görək o ərşi-ələda nə var?

İtirdi nurunu göz ağlamaqdan,
Füzuliyə döndü söz ağlamaqdan.
Görən nə tapmışıq biz ağlamaqdan,
Bu qədər ağrıda, bəlada nə var?

Həm toydan xəbər al, həm yasdan soruş,
Hər köhnə kişidən bir dastan soruş.
Dünyanın rəngini Yunusdan soruş,
Yaşılda, qarada, alada nə var?

Dəmir əsalara sözünü dedi,
Dəmir çarıqları daş yollar yedi.
Saxla bir anlığa bu gethagedi,
Bu qədər çuxurda, çalada nə var?

Baxmadı çəkdiyin amana, aha,
Dövrün sitəmindən yoruldun daha.
Nə çox boylanırsan qadir Allaha,
Baxdığın o Allah-təalada nə var?

MAHAL İSMAYILOĞLUNA

Özüm dərdəm, adım dərdnən adaşdı,
Ağlamaqnan bağrım yaman badaşdı.
Yağı gəldi, sədlərimi yad aşdı,
Gəl başa sal dilbilməzi, naşını,
Tanrım, qurut gözlərimin yaşını!

Yaman dərddi torpaq dərdi, daş dərdi,
Daş taleyim daş becərdi, daş dərdi.
Göz-göz oldu gözümdəki yaş dərdi,
Qara bulud yaman çatdı qaşını,
Tanrım, qurut gözlərimin yaşını!

Qanadımın biri həsrət, biri qəm,
Ölmüş mənəm, diri həsrət, diri qəm.
Daha bəsdir, kiri, həsrət, kiri, qəm,
Zəhərləmə süfrəmizin aşını,
Tanrım, qurut gözlərimin yaşını!

Halal haqqım, halal sayım var idi,
Nə bu hayım, nə harayım var idi.
Bəy otağım, xan sarayım var idi,
Daş üstündə qoymadılar daşını,
Tanrım, qurut gözlərimin yaşını!

Fənd işlədib başı başa vurdular,
Nifrət ilə daşı daşa vurdular.
Büllur qabı çopur daşa vurdular,
Sındırdılar könlümdəki kaşını,
Tanrım, qurut gözlərimin yaşını!

Talan olmuş bir yurd olub getmişəm,
Xırdalanıb mən xırd olub getmişəm.
Mən qurd kimi, manqurt olub getmişəm,
Unutmuşam tariximin yaşını,
Tanrım, qurut gözlərimin yaşını!

Bu nə gündü, bu nə kökdü, nə haldı,
Ah çəkməkdən yer üzünü ah aldı.
Ağlar qalan Zəlimxandı, Mahaldı,
Sel uçurdu yarğanların qaşını,
Tanrım, qurut gözlərimin yaşını!

BƏHLUL ZƏLİMXANOĞLUNA

Arzular qarşısında neçə qat divar durur,
Sən ki o divarların sərtliyindən halısan.
Gecə-gündüz əlləşib dişinlə-dırnağınla,
Tərpənməz qayaları tərpədib yarmalısan.

Adı yaraşıq verir əsrlərə, illərə,
Dildə dastan olanlar nahaq düşmür dillərə.
Əgər gözün düşübsə, ən uzaq mənzillərə,
Ora ayağınla yox, eşqinlə varmalısan.

Bel bağlamaq əbəsdir ömrün gəlhagəlinə,
Boran qalxar, qar düşər xırmanına, vəlinə.
Sən Fərhad, dağ Bisütun, külüng alıb əlinə,
Onu qum-qum oynadıb, daş-daş qoparmalısan!

GÜNAY ZƏLİMXANQIZINA

Göynən gedən buludlar,
Niyə danışmırsınız?
Yerdə çiçəklər, otlar,
Niyə danışmırsınız?
Günay Zəlimxanqızı

Çiçəyi dindirsələr,
Çiçək danışar, qızım!
Küləyi dindirsələr,
Külək danışar, qızım!

Daşın da, torpağın da,
Danışmağa dili var.
Hər birinin həsrəti,
Sevinci, nisgili var.

Bürkünün, soyuğun da,
İstinin də dili var.
Odun da, ocağın da,
Tüstünün də dili var.

Nəyi bilmək istəsən,
Bir-bir gətirim yada.
Dilini bilən olsa,
Dilsiz nə var dünyada.

İndidən ki sən belə,
Daşa, torpağa yarsan –
İnşallah! Gün gələr ki,
Daşı danışdırarsan!

HAQQI AXTAR-AXTARA

Haqqı axtaranlar gəlsin yanıma,
Haqqın, ədalətin əsasıyam mən.
Məkkə, Mədinədi ziyarətimiz,
O Zəmzəm suyunun kasasıyam mən.
Oruc Əlizadə

Üz tutduq gələn sabaha,
Haqqı axtara-axtara.
Əl açdıq qadir Allaha,
Haqqı axtara-axtara.

Dəmir əsalar əyildi,
Dəmir çarıqlar yeyildi.
Kimi döydü, kim döyüldü,
Haqqı axtara-axtara.

Əzildik, quma çevrildik,
Yumşaldıq, muma çevrildik,
Əkildik, şuma çevrildik,
Haqqı axtara-axtara.

Kimi oğru, kimi doğru,
Daşıdıq dərd, çəkdik ağrı.
Haqq deyənin yandı bağrı,
Haqqı axtara-axtara.

Dəvələr itdi səhrada,
Gəmilər batdı dəryada.
Könüllər gəldi fəryada,
Haqqı axtara-axtara.

Süzüldük eşqin camına,
Yağ olduq yanan şamına.
Döndük Allah adamına,
Haqqı axtara-axtara.

Sel tökülür çaya doğru,
Çay axır dəryaya doğru,
Dəniz baxır Aya doğru,
Haqqı axtara-axtara.

Zirvələr boylanır göyə,
Bəlkə, haqqı gördüm deyə.
Qamışlar da döndü neyə,
Haqqı axtara-axtara.

Çox yolçular dizdən oldu,
Dağdan oldu, düzdən oldu,
Çox gözlülər gözdən oldu,
Haqqı axtara-axtara.

Var olan yoxa çəkildi,
Dağ uçdu, arxa çəkildi,
İsa çarmıxa çəkildi,
Haqqı axtara-axtara.

Nəfəs dərdik, cana gəldik,
Dolduq, ətə-qana gəldik.
İncilə, Qurana gəldik,
Haqqı axtara-axtara.

Baxmadı xərcə-xəraca,
Hac deyənlər getdi haca.
Məhəmməd çıxdı meraca,
Haqqı axtara-axtara.

Əqidə, məslək tacımız,
“Ənəlhəq”dir əlacımız,
Öldü Mənsur Həllacımız,
Haqqı axtara-axtara.

Çox qayalar çapasıyıq,
Çox qalalar yapasıyıq.
Axır bir gün tapasıyıq,
Haqqı axtara-axtara.

Çaldı zili, çaldı bəmi,
İnsan oğlu çəkdi qəmi.
Qocalırıq, Oruc əmi,
Haqqı axtara-axtara.

XANLARIM

Aşıq Xanlar Məhərrəmovun xatirəsinə

Ayazlı bir qış axşamı,
Bəd gəldi vədən, Xanlarım.
Qara gəlmiş bir xəbərlə,
Bağrımı didən Xanlarım.

Ağrıdan ahı qabaran,
Könlümdə tufan qoparan,
Şimşək vuran, sel aparan,
Əlimdən gedən Xanlarım.

Havacatdan zərin vardı,
Saz adlı səngərin vardı,
Dağ kimi ləngərin vardı,
Hanı o bədən, Xanlarım.

Balaların yuxu yatmaz,
Yatanları saz oyatmaz,
Həkimlərin gücü çatmaz,
Dərindi zədən, Xanlarım.

Qarışan şərə nə deyim,
Nəs düşən zərə nə deyim,
Oğlun Azərə nə deyim,
Tez getdin nədən, Xanlarım.

İşimiz dərd-azar oldu,
Ömrümüz tezbazar oldu,
Yerin vaxtsız məzar oldu,
Dəyirmanda dən Xanlarım.

Toyuma verdim yaraşıq,
Toyumda sən oldun aşıq.
Söndü ocaq, keçdi işıq,
Qayıtmaz ötən, Xanlarım.

Dağlar başı qar itirir,
Bağban ölür, bar itirir.
Millət oğullar itirir,
Yaş tökür Vətən, Xanlarım.

Çətin gündə, ağır anda,
Qəmli vaxtda, fağır anda,
Xanlar deyib çağıranda,
Hamıya yetən Xanlarım.

Açmışdı, soldu gül kimi,
Canın qovruldu kül kimi,
Səndən ötrü bülbül kimi,
Mən oldum ötən, Xanlarım.

Süzülən yaşın olaram,
Çatılan qaşın olaram,
Bitib başdaşın olaram,
Könlümdə bitən Xanlarım.

Kövrəlsə də el, oxuyaq,
Olaq coşqun sel, oxuyaq,
Dur, bir "Sarıtel" oxuyaq,
Əcəli yetən Xanlarım.

Həyat yalan, ölüm doğru,
Zəlimxanın yandı bağrı.
Canımdakı nisgil, ağrı,
Saçımdakı dən Xanlarım.
Şimşək vuran, sel aparan,
Əlimdən gedən Xanlarım.

1999, 19 yanvar

QAĞA YUXUMA GİRDİ

Unudulmaz şairimiz
Hüseyn Arifin xatirəsinə

Qarlı qış gecəsiydi,
Qağa yuxuma girdi,
Ömrün xoş gecəsiydi,
Qağa yuxuma girdi.

Yandı, yandı, alışdı,
Bu od mənə tanışdı.
Dağ kəlindən danışdı,
Qağa yuxuma girdi.

Gözün yaşında Arif,
Sözün başında Arif,
Tutqun qaşında Arif,
Qağa yuxuma girdi.

Eşqini elə yaydım,
Həmişə canlı saydım.
Kaş ki, ayılmayaydım,
Qağa yuxuma girdi.

Gördü, sevindi, duydu,
Haqqın sovqatı buydu.
Bu nə şirin yuxuydu,
Qağa yuxuma girdi.

Bağçalar iş yerimiz,
Bağlar gərdiş yerimiz.

Cənnət görüş yerimiz,
Qağa yuxuma girdi.

Mətləbi gödək dedi,
Gəl, çıxaq gedək, – dedi.
Darıxıram tək, – dedi,
Qağa yuxuma girdi.

Şairlərin zərifi,
Çox sevirdi tərifi.
Gördüm Hüseyn Arifi,
Qağa yuxuma girdi.

MƏMMƏD ARAZ İŞIĞI

Dostum Mikayıl Mirzə ilə birlikdə sevimli Xalq şairimiz Məmməd Arazın Novruz bayramını təbrik etmək üçün ustadın evinə ziyarətə getmişdik. Ey-vanın işığı yanmırdı, elə bildik ki, evdə yoxdular. Qapını döydük. Bizi şairin ömür-gün yoldaşı Gülxanım bacı qarşıladı. İşıqları yandırdı. İçəridə Məmməd Araz işığı ilə qarşılaşdıq.

Yandır işığını Məmməd Arazın,
Yandır işığını, Gülxanım bacı!
Ürəyə köçürün, yaddaşa yazın,
Bu haqq aşığını, Gülxanım bacı!

Çağır köməyinə sən İlahini,
Qoyma bu işıqlar sönsün, ay Allah!
Qoyma göz önündə gəzən dahini,
Adi bir insana dönsün, ay Allah!

Əlvan saraylara meydan oxuyar,
Evində işığı keçən şairlər.
Sözdən hana qurar, xalı toxuyar,
Xalqın yaddaşına köçən şairlər.

Yandır işığını Məmməd Arazın,
İlhamın danışan dili susmasın.
Şair ürəyində dil açan sazın,
Bəmi seyrəlməsin, zili susmasın.

Çeşməyə, çəmənə, dərəyə, dağa,
Bir gün Günəş doğar, bir gün çən gələr.
Zülmət ürəkləri nurlandırmağa,
İşıq şairlərin evindən gələr.

Heyif, Xəlil Rza sağ olsaydı, kaş,
Bugünkü görüşə o da gələrdi.
Yaraşıq verərdi qardaşa qardaş,
Vurardı özünü oda, gələrdi.

Ruhlar durulardı, təzələnərdi,
Könüllər meylənər, məzələnərdi.
Fikirlər, duyğular çözələnərdi,
Şirin xatirələr yada gələrdi.

Göydən endirərdik ulduzu, Ayı,
Şeirin işığında içərdik çayı.
Nur kimi enərdi tanrının payı,
Yerdən də, göydən də səda gələrdi.

Yandır işığını Məmməd Arazın,
Orda Mikayıl var, Xəlil Rza var.
Sən Allah, o nuru sönməyə qoyma,
Harda qaranlıq var, orda qəza var.

Qoy dünya düşməsin şair gözündən,
Dəhliz də, eyvan da, otaq da yansın.
Alsın öz odunu şair sözündən,
Masa da, qələm də, varaq da yansın.

Saymaqla tükənməz ağrılar, dərdlər,
Necə göynəməsin ürəklərimiz?
Ehtiyac ucundan, qayğı ucundan,
Nə qədər işıqlar söndürmüşük biz.

İşığı özünsən şair ömrünün,
Cəfakeş bir ömrü yaşayan qadın.
İyirmi ildir ki, Məmməd Arazın,
Alıb daş yükünü daşıyan qadın.

Ürəyi incəldib, ipə döndərib,
Bədəni qurudub, çöpə döndərib,
Qəlbin tellərini sapa döndərib,
Bu, zəhmət yüküdür, Gülxanım bacı.

“Atamın kitabı” kitabdı, yazdı,
“Üç oğul anası” əzabdı, yazdı.
Bağrı şiş ucunda kababdı, yazdı,
Bu, sənət yüküdür, Gülxanım bacı!

İşıqsan, çıraqsan Məmməd Araza,
Silahsan, yaraqsan Məmməd Araza,
Ən böyük dayaqsan Məmməd Araza,
Bu, qeyrət yüküdür, Gülxanım bacı!

Sərt yolları sənintək “mərd bir qadınla keçdi,
Bütün keçilməzliyi sənin adınla keçdi!”
İşığı sönmədi Məmməd Arazın,
Nə özü, nə sözü, nə əqidəsi,
Yolundan dönmədi Məmməd Arazın!

O ki bu torpağın yazan qələmi,
O ki bir millətin yazan əlidi.
Zülmət bürüsə də bütün aləmi,
Şairin işığı sönməməlidi!

Bu işıq sayğacla ölçülməz, bacım,
Tanrı işığıdır, kiçilməz, bacım.
Baxma, Məmməd Araz xərc içindədir,
Baxma, Məmməd Araz borc içindədir!
Allahın əliylə yanan işıqlar,
Kəhkəşan qoynunda, bürc içindədir!

BARAT VÜSALLA ZƏLİMXAN YAQUBUN DEYİŞMƏSİ[1]

Barat Vüsal

Hayıf İsa bulağından, Zəlimxan,
Cıdır düzü, Şuşa deyib ağlarsan!
Qəbri indi viran olub Vaqifin,
Topxanada meşə deyib, ağlarsan!..

Zəlimxan Yaqub

Allah mənə bir dərd verib, ay Barat,
Səhər deyib, axşam deyib ağlaram.
Qaranlıqdan aydınlığa çıxmağa
"Yox mum" deyib, "yox şam" deyib, ağlaram!

Barat Vüsal

Öyür-öyür öyəmmirsən mərdini,
Xəyanətkar, duyammırsan, birdimi.
Adam tapıb deyəmmirsən dərdini,
Göydə uçan quşa deyib, ağlarsan!

Zəlimxan Yaqub

Mən bu dərddən hara qaçım, qaçınım,
Yox Tərtərim, yox Qarqarım, Xaçınım.

[1] Turan – Cavid Əfəndinin qızı Barat Vüsalın şeiri 1993-cü il mart ayının 22-də, Zəlimxanın cavabı 2001-ci il mart ayının 31-də yazılmış, sonradan deyişmə halına salınmışdır.

Quzu kimi mələr qalıb Laçınım,
Kəlbəcəri aşam deyib, ağlaram!

Barat Vüsal

Tapılmasa yurd dərdinin dərmanı,
Aparaydı Araz məni, Kür məni.
Qarabağda balalayan erməni,
Varmayaydı başa deyib, ağlarsan!

Zəlimxan Yaqub

Gül qovruldu, çəmən yandı, şeh itdi,
Yer də, göy də harayıma şahiddi.
Millət özü başdan-başa şəhiddi,
Bəyim deyib, paşam deyib, ağlaram.

Barat Vüsal

Hər şəhidlə al-qanına bələndin,
Əldən düşdün, nəfəs dərdin, dirəndin.
De, səndəmi dil deməyi öyrəndin?
Eyləmişəm peşə deyib, ağlarsan!

Zəlimxan Yaqub

Bir məndəki qismətə bax, baxta bax,
Diri-diri qəbrim olub bu torpaq.
Birdən-birə niyə keçdi bu ocaq,
Niyə söndü bu şam deyib, ağlaram!

Barat Vüsal

Tökülür qan, sökülür can nətəri,
İtərimi, Azərbaycan, itəri?!

Bircə qarış torpağımdan ötəri
Kim ölürsə, yaşa deyib, ağlarsan!

Zəlimxan Yaqub

Dünya məndən dərd istədi, yas umdu,
Təbriz, Dərbənd matəmimdi, yasımdı.
Məhşərədək bu dərd mənim bəsimdi,
Ömrüm boyu Şuşam deyib, ağlaram!

Barat Vüsal

Demirəm ki, deyişməyin vaxtıdı,
Deyirəm ki, döyüşməyin vaxtıdı,
Canı yurda dəyişməyin vaxtıdı,
Keçib sözdən işə, deyib ağlarsan!

Zəlimxan Yaqub

Vay o gündən sevinc susa, dərd dinə,
Ha yalvarım, dinə gəlməz, dərd, dinə.
Bu dünyanın dağlar boyda dərdinə
Dərdlərimi qoşam deyib, ağlaram!

Barat Vüsal

Sağam, niyə mənə ölüm olmasın,
Vətən getsə, qalan günüm olmasın.
Mənim olan niyə mənim olmasın,
Döymə, qardaş, döşə – deyib, ağlarsan!

Zəlimxan Yaqub

Kişi sındı, oğul öldü, ər itdi,
Zaman daşı qum eylədi, əritdi.

Göz yaşlarım neçə yaylıq çürütdü,
Ömrə-günə heşən deyib, ağlaram!

Barat Vüsal

Tərpənəmmir kimsə varın əlindən,
Bağım-barım keçir harın əlindən.
Yurdu satan alçaqların əlindən,
Haşa! Haşa! Haşa! – deyib ağlarsan!

Zəlimxan Yaqub

Düşmənimiz torpaq alıb, şadlanıb,
Fil yıxılıb, haqqın dizi qatlanıb.
Cəbrayılın kəhrizindən atlanıb
Güləbirdə düşəm deyib, ağlaram!

Barat Vüsal

Sinəsində çalın-çarpaz dağ vardı,
Vaqif ilə Vidadi də ağlardı.
Gedən bizim torpaqlardı, dağlardı,
Bayatını qoşa deyib, ağlarsan!

Zəlimxan Yaqub

Yaşamağı bacarmırsan, öl deyib,
Dediyini tufan deyib, sel deyib.
Dəlidağa, Taxtadüzə dil deyib,
Cütüm deyib, qoşam deyib, ağlaram!

Barat Vüsal

Od ələyir yerdən tank, top, pulemyot,
Havadansa neçə raket, samolyot.

Şəmşirimin məzarına düşən od,
Məzarıma düşə deyib, ağlarsan!

Zəlimxan Yaqub

Yaylaq olmaz, yamac olmaz, daş olmaz,
Yurd-yuvasız keçən ömür xoş olmaz.
Dirsəklənib söykənməyə döş olmaz,
Səmtim deyib, guşəm deyib, ağlaram!

Barat Vüsal

İndi olum mən Vidadi, sən Vaqif,
Ya da ki, ol sən Vidadi, mən Vaqif.
Dərdin mənə can Vidadi, can Vaqif,
Əsir gedən qələmqaşa ağlarsan!

Zəlimxan Yaqub

Göyüm yoxdu, şeh ələsin buludum,
Dağım yoxdu, şirə çəkim, bal udum.
Yad əllərdə baltalandı palıdım,
Külə döndü meşəm deyib, ağlaram!

Barat Vüsal

Niyə durmur Qurbanımız, nə yatıb,
Bir görəydik Koroğlumuz qayıdıb.
Tufarqanda xan Abbası oyadıb,
Haray çəkib Tikmədaşa, ağlarsan!

Zəlimxan Yaqub

Axşam qərib, gecə yazıq, dan qəmli,
Könül küskün, ürək miskin, can qəmli.

Seyid ağlar, Cabbar yetim, Xan qəmli,
Hanı mənim nəşəm deyib, ağlaram!

Barat Vüsal

Bu davanın gizlənib sirr içində,
Mini gorda, min biri tor içində.
Qalıb söyüş, təhniz, təhqir içində
Neçə məkan, guşə deyib, ağlarsan!

Zəlimxan Yaqub

Binələri alaçıqsız, çadırsız,
Cıdır düzü kişnərtisiz, cıdırsız.
Qarabağım Üzeyirsiz, Qədirsiz,
Düşmən bağrı deşəm deyib, ağlaram!

Barat Vüsal

Çəkilənmi Zəngilanın azarı,
Qubadlının, Kəlbəcərin qubarı.
Naxçıvanın, Qazağın da qubarı
Yaman döndü qışa deyib, ağlarsan!

Zəlimxan Yaqub

Qanlı fələk işimizi nəs tutub,
Qara sazın tellərini pas tutub.
Ağkilsədə Ələsgərə yas tutub,
Kəsəməndə Qəşəm deyib, ağlaram!

Barat Vüsal

Nə xəbər var Gədəbəydən, Tovuzdan,
Füzulidən, Ağdam, Tərtər, Kəhrizdən?

Nə qalıbdı mənəm deyən Oğuzdan?
"İç"ə deyib, "dış"a deyib, ağlarsan!

Zəlimxan Yaqub

Ağrılardan ilan kimi qıvrılam,
Külə dönəm, küləklərə sovrulam,
Torpaq üçün yanam, yanam, qovrulam,
Öz odumda bişəm deyib, ağlaram!

Barat Vüsal

Laçın dedim, yenə gözün doldumu?
Xocalısız yollarımız yoldumu?
Allah, ağlar görənəcən xalqımı,
Çəkiləydim şişə deyib, ağlarsan!

Zəlimxan Yaqub

Heç bilmədim dəydi nədən qəlbimə,
Çox daş atdı gəlib-gedən qəlbimə.
Parça-parça, zədən-zədən qəlbimə
Pul-pul olmuş şüşəm deyib, ağlaram!

Barat Vüsal

Sən ağlama, düşmənimiz ağlasın,
Deyirsən ki, yaxşı gəlir avazın.
Tanrı bizi daş olmaqdan saxlasın,
Dönəmmirəm daşa deyib, ağlarsan!

Zəlimxan Yaqub

Səs tək əldən necə çıxsın, tək ələm,
Daşıdığım yük matəmdi, yük ələm.

Qorxuram ki, dərdi yeyəm, kökələm,
Dərd içində şişəm deyib, ağlaram!

Barat Vüsal

Bu şeirimin cavabını yazan vaxt,
Yazarsan ki, bu da tale, bu da baxt!
Ağlayanda səhv etmə ha, ay Barat,
Zəlimxana oxşa deyib, ağlarsan!

Zəlimxan Yaqub

Dost unutdu, düşmən döydü, yar atdı,
Tanrı bizi qəm çəkməyə yaratdı.
Ağlar qalan Zəlimxanla Baratdı,
Ağlamağa peşəm deyib, ağlaram!

BALAMIN

Axşam-sabah dolanıram başına,
Bu bələkli, bu qundaqlı balamın.
Nuru yağır taleyimə, qəlbimə,
Pambıq əlli, süd dodaqlı balamın.

Anasının əzəlidi, ilkidi,
Varı, yoxu, dövlətidi, mülküdü.
Tay-tuşları ayı, dovşan, tülküdü,
Dörd bir yanı oyuncaqlı balamın.

Hər baxışı bir mətləbə yozuram,
Mənaları ürəyimə yazıram.
Nə buyursa, qulluğunda hazıram,
Hər istəyi doğru, haqlı balamın.

SEVİNC SORAĞINDA

Həsrətim çoxalır, azarım artır,
Görmək istəyirəm, özünü dartır,
Görəsən, hayanda yıxılıb yatır,
Eşitmir səsimi o qulağı kar,
Sevinci nə qədər gözləmək olar?!

Bir az qəmlənmişəm, ağır olmuşam,
Bir az kövrəlmişəm, fağır olmuşam.
Üstünü ot basan cığır olmuşam,
Qoymur qədəmini sinəm üstə yar,
Sevinci nə qədər gözləmək olar?!

Şiräni vaxtında bara vermədi,
Bütöv istəyimdən para vermədi,
Yağışı, dolusu ara vermədi,
İndi də başıma qar yağdırır, qar,
Sevinci nə qədər gözləmək olar?!

Bəlkə, bir dustaqdır, qolu bağlanıb,
Sağı uçurumdur, solu bağlanıb,
Bəlkə, bir yolçudu, yolu bağlanıb –
Körpülər amanat, keçidlər də dar –
Sevinci nə qədər gözləmək olar?!

Bir az da geciksə, daha gəlməsin,
Gəlsə, tuş gələcək aha, gəlməsin.
Çox da qürrələnib baha gəlməsin,
Vədəsiz gəlişdən varlığım solar,
Sevinci nə qədər gözləmək olar?!

Sevinc gəldi, sünbüllədi dənimi,
Külək oldu, qovdu duman-çənimi.
Sevinc nəymiş? Qəm-kədərin qənimi,
Arzularım çəmən-çəmən göyərmiş,
Bu sevinci gözləməyə dəyərmiş!
Yollarımda əzab oldu, gözlədim,
Yandı bağrım, kabab oldu, gözlədim,
Dərdim qalın kitab oldu, gözlədim,
Dözüm yoxsa, nə əməl var, nə bir iş,
Bu sevinci gözləməyə dəyərmiş!

Zaman-zaman dağlarımı qar tutdu,
Yenə mənim ayaqlarım yer tutdu,
Yenə mənim budaqlarım bar tutdu,
Haqq yolçusu dəmir çıraq geyərmiş,
Bu sevinci gözləməyə dəyərmiş!

Bir insan ki, yolu haqqın yoludur,
Bir insan ki, qəlbi sözlə doludur,
Bir insan ki, əqidənin quludur,
Mən doğruyam, mən təmizəm deyərmiş,
Bu sevinci gözləməyə dəyərmiş!

OLMASIN

Meh tərpənmir, külək əsmir,
Dalğa sahilə tələsmir,
Dəniz yatır ölü kimi.
Dəniz bu gün gözlərimdə,
Əsarətin qulu kimi.
Tanrım, güc ver, qoy yaşasın,
Canlılar cansız olmasın.
Həyat bir gün hərəkətsiz,
Dəniz tufansız olmasın!

DƏRDİ DAĞILMASA, DAĞILAR ÜRƏK

Dərdi dağılmasa, dağılar ürək,
Bilirəm dərd əhli niyə danışır.
Biri qismətini yerdə axtarır,
Biri arzusunu göyə danışır.

Daşıyır ağrını, çəkir acını,
Bir sözdə axtarır son əlacını.
Kimi saz eyləyir tut ağacını,
Kimi qamış tapır, neyə danışır.

Çəkmişəm dağların daşı çəkəni,
Dağ çəkməz gözümün yaşı çəkəni.
Bədbəxt o kəsdir ki, başı çəkəni
Qanana danışmır, keyə danışır.

2002, 31 mart

EHTİYAT

Qışın gəlişindən özünü gözlə,
Qar-boran üstünü tez basa bilər.
Ayaz qılınc çəkər, şaxta qan salar,
Üşüyən qəlbini buz basa bilər.

Yayın gəlişinə gör ehtiyatı,
Od-alov bağrına köz basa bilər.
Qoru varlığını tozdan-dumandan,
Hissini, duyğunu toz basa bilər.

2002, 3 aprel

ATAMIN MƏZARİ BAŞINDA

Ruhumda bir günəşin var,
Nuruna qurban olduğum.
Qəlbimdə bir atəşin var,
Qoruna qurban olduğum.

Damarımda qan dediyim,
Dərdimə dərman dediyim,
“Can” sözünə can dediyim,
“Çor”una qurban olduğum.

Görür gözüm, kor deyil ki,
Sevgin şahdı, zor deyil ki,
Sən yatan yer gor deyil ki,
Goruna qurban olduğum.

GÖRDÜK HƏR ÜZÜNÜ

Haqq verdi fürsəti,
meydan vermədi.
Şeytan həqiqətə
meydan vermədi.
Çox vaxt ayağına
çidar vurdular
Uçağan köhlənin,
qaçağan atın,
Gördük hər üzünü,
gördük həyatın.

Qız qarı, ər qoca,
kişi yarımçıq,
Yarımçıq, hamının
işi yarımçıq.
Sürünə-sürünə
getdi dünyadan,
“Sallana-sallana
gələn Salatın”.
Gördük hər üzünü,
gördük həyatın.

Susmadı güllələr,
güllələnmələr,
Analar ağlardı,
sonalar mələr.
Sibirlər, sürgünlər
zindanlar yedi,

Getdik güdazına
bir zatsız zatın,
Gördük hər üzünü,
gördük həyatın.

Ey dünya malına
əsir olanlar,
İştaha, tamaha
həsir olanlar,
Dünya sizin olsun
var-dövlətiylə,
Dəyərə-dəyməzə
aparın, satın,
Bizdən aralanın,
bizdən əl çəkin,
Gördük hər üzünü,
gördük həyatın.

GÜLLƏLƏNMƏ

Görəsən, bu sözü birinci dəfə,
Hansı dil qabardıb, hansı əl yazıb?
Hansı tarix olub, hansı ərəfə,
Hansı bayquşnəfəs, bədəməl yazıb?

Nə qədər ürəyi alıb nişana,
Nə qədər göz qorxub güllə sözündən.
Millətin mənliyi bələnib qana,
Keçib taleyimiz güllə gözündən.

Boyu dağlar kimi möhtəşəm, uca,
Səsi çaylar kimi gurdu, güllələ!
İstər cavan olsun, istərsə qoca,
Varlığı, işığı, nuru güllələ!

Gözü iti görür, gözünə tuşla,
Qəddi çinar kimi şaxdı, güllələ!
Sözü daşdan keçir, sözünə tuşla,
Yolu həqiqətdi, haqdı, güllələ!

Qoyma yeriməyə, qoyma uçmağa,
Torpaqda güllə vur, havada güllə.
Qoyma üfüqlərdə qanad açmağa,
Müşfiqə güllə vur, Cavada güllə!

Tərsinə yazıldı, yazılan yazı,
Əyilməz dağları əydi güllələr.
Sibirdə çürütdü Salman Mümtazı,
Cavidin xalqına dəydi güllələr.

Eşitsin, düşmənin qulağı karsa,
Dişi qana batıb, əlində qan var.
Harda güllələnən türk oğlu varsa,
Orda bir Markar var, bir Balayan var.

Bağlanıb əl-ayaq, susub ağız-dil,
Pələngi qəfəsdə boğdurub pişik.
Beş dəfə, on dəfə, yüz dəfə deyil,
Bəlkə, beş min dəfə güllələnmişik.

2002, 13 aprel

RUH

Ruhun qanadlarını qırmaq olmaz həyatda,
Ruhsuz heç bir cəbhəni yarmaq olmaz həyatda.
Ruhla oyan, ruhla yat, davam eyləsin həyat,
Ruhsuz bir addım yola varmaq olmaz həyatda!

DƏNİZİ QORU, TANRIM

Düz iyirmi gün, iyirmi gecə
Gecədən, gündüzdən keçə-keçə
Otağımın qapısı açıldı Xəzərə.
“Getmə gözümdən, gedərəm özümdən”, – dedi,
Bu ilahi, bu tanrısal mənzərə.
Dənizin külәkləri sığal çəkdi tellərə,
Dalğa öpüş göndərdi çiçəklərə, güllərə.
Dənizi qoru, Tanrım,
Yaratdığın gözəllik qoy gəlməsin nəzərə!

ATƏŞ

Sahilin yarı dəniz,
Torpağın yarı Günəş,
Mənim yarım gözəl qız,
Torpaqdan və dənizdən,
Minbir dəfə güclüdür,
Qəlbimdə yanan atəş!

DƏNİZ

İşıq ver, gözümə, dəniz,
Gülümsə üzümə, dəniz.
Mən sənin sahilinə,
Nə bir giley-güzarım,
Nə umu-küsüm üçün gəlmişəm.
Mən sənin sahilinə,
Səndən almaq istədiyim
Şirin bir təbəssüm üçün gəlmişəm.

Məni sıxanda hava,
Məni darıxdıranda yer –
Sənin üstünə qaçıram.
Nə istəsəm,
Sən Allah, könlümü qırma,
Ver, dəniz!
Ver! Ver!

OLMASA

Vaxt olur,
Dəqiqə saatdan uzun görünür,
Vaxt olur,
Saat dəqiqədən qısa.
Kimi ömrünü
Geninə-boluna yaşayır,
Kimi qısa-qısa.
Min il yaşayardı, bəlkə də,
İnsanı bezdirən dəqiqələr
Saatlardan uzun olmasa!

BƏLKƏ

Dənizə baxıram, sahili qaya,
Ölkəyə baxıram, sərhədi hasar.
Birini təbiət yaradıb,
Birini insan,
Biri könül açan,
biri könül qanadan.
Dənizə baxıram, sahili qaya,
Ölkəyə baxıram, sərhədi hasar.
Qoymaz meydanımız genişlənməyə,
Hasar arzuların başından basar.
Tikanlı məftillər dar ağacıtək,
Şirin duyğuları boğazdan asar.
Təəssüf yandırır dodaqlarımı,
Sahilsiz dəniz yox, sərhədsiz ölkə.
İçimdə bir dəli ümid göyərir,
Sabah bu sərhədlər olmadı, bəlkə...

QOŞA SƏTİRLƏR

Türk dünyasının böyük şairi Nəcib Fazil Qısakürəyin ruhuna ulu sevgilərlə

Gözəllik

Allahım! Gözümü tox, ürəyimi ac eylə,
Sən məni gözəlliyə həmişə möhtac eylə.

Ruh

Allah, vaxtsız ayırma bizdən müqəddəs ruhu,
Qoru, necə qorudun tufan içində Nuhu.

Həyat sevgisi

Kim sevirsə həyatı, yeri, göyü, varlığı,
Qırx arşın quyuda da olmaz onun darlığı.

Beşik – tabut

İlkim ağacdan beşik, sonum ağacdan tabut,
Kim yırğalar beşiyi, kim qaldırar tabutu.

Qurtuluş

Ürək hər addımbaşı ağır bir dərdə tuşdu,
Ölüm insan oğluna ən gözəl qurtuluşdu.

Bircə saniyə

Fani dedik dünyaya, bel bağlama faniyə,
Yüz il yaşasan belə, ölüm bircə saniyə.

Ömrün axşamı

Səhər pəncərəni aç, axşam qapını bağla,
Axşamı gələn ömrə, bir dəsmal götür ağla!

Sərgi

Bu dünya başdan-başa tamaşadı, sərgidi,
Dünyaya gələnlərin hamısı gedərgidi.

Qılınc – balınc

Başımızın altına qoyulan balınca bax,
Başımızın üstündə yellənən qılınca bax.

Başçı

Başçıda baş olanda baxtımıza gün düşər,
Başçı başsız olanda baxtımız düyün düşər.

Vaxt

Nə yıxılana baxır, nə yerindən qalxana,
Zaman axır sulartək hey çalxana-çalxana!

Anlamaq

Vaxtında anlasaydıq nədir xeyir-şərimiz,
Yerin bir tərəfini əyərdi ləngərimiz.

Kitab

Dünya qədim bir kitab, oxunur varaq-varaq,
Onu kim qurtardı ki, biz oxuyaq qurtaraq.

Quran

Bir kitab oxuyuram, ucadı hər kitabdan,
Allah, məni ayırma bu şirin iztirabdan!

Nə qədər ki...

Nə qədər ki, insanın gözündən axan su var,
Nə qəlbin rahatlığı, nə gözün yuxusu var!

Şam

Könül, əgər bənzəməsən pərvanəyə, ya şama,
Çırp özünü qayalara, öl, dünyada yaşama!

Canlı – cansız

Dünyaya canlı gələn dünyadan cansız gedər,
İnamı olmayan kəs dinsiz-imansız gedər!

Kişi – nakişi

Zəlzələ də tərpətməz nakişinin tükünü,
Ancaq kişilər çəkər bu dünyanın yükünü.

İlk günahkar

Həsrət qalıb Cənnətə buğda yeyəndən bəri,
İlk günahkar kim olub, haqqın ilk peyğəmbəri!

Tarix

Ahdı burulub çıxan tüstülü bacalardan,
Nələr gördü bu tarix, soruşun qocalardan.

Ayaqlar

Ayaqları olan kəs yerində saya bilməz,
Ayaqsızlar sürünər, fərli yaşaya bilməz.

Qırışlar

Yorulub, yola salıb payızları, qışları,
Anamın alnındakı zamanın qırışları.

Ziyarət

Qurban olum Məkkəyə, məndən incimə qəti,
Anamın ayaqları başımın ziyarəti.

Ər – səngər

Xalqın ümid qaynağı ər oğlu ərdən gələr,
Döyüş vaxtı kişinin səsi səngərdən gələr.

Vaxt

Yaman aldı üstümü, yaman yerdə təklədi,
Mən vaxtı tutammadım, vaxt məni ətəklədi.

Yaxşı ki...

Allah! Allah! Nə qədər yalançı qəhrəman var,
Yaxşı ki, hər əməlin son hakimi zaman var.

Duya bilməz

Yıxdı xalqın evini yalançılar, saxtalar,
Milləti duya bilməz qəlbi, ruhu taxtalar.

Böyük məqsəd

Olsa da şəhidimiz, qalsa da şikəstimiz,
Cəmiyyətin boynunu düzəltməkdi qəsdimiz.

Əsir – həsir

Kim qarnının quludu, kim nəfsinin əsiri,
Küçələrin tozudu, ayaqların həsiri.

Daş-baş

Atılan daşlara bax, heyfini başdan çıxır,
Yarılan başlara bax, qisməti daşdan çıxır.

Faciə

Xalqa üz qaralığı insana təhqir, ləkə,
Millətin faciəsi köləlik, müstəmləkə.

Xəzinələr – dəfinələr

Yatır torpaq altında xəzinələr, dəfnələr,
Allah tək insanı yox, xəznəni də dəf eylər.

Talançılıq

Ruhumuz, varlığımız, torpağımız talandı,
Biz Allahı çağırdıq, o qaçdı daldalandı.

Sıxıntı

Tale insan oğlunu hər gün sıxasıxdadı,
Həzrəti-İsa kimi hərə bir çarmıxdadı.

Qiyamət

İtilənib qılınclar, hazırlanıb tilovlar,
Qiyamət qopa bilər səngiməsə alovlar.

Sual

Görəsən bu milləti dartıb hara çəkirik?
Dardan xilas edirik, yoxsa dara çəkirik?

Dünən – bu gün

Dünənki faciəmiz gur alqışlar, çəpiklər,
Bugünkü faciəmiz fışqırıqlar, təpiklər.

Dua

Göy əsgiyə bürünüb ömürləri, günləri,
Allah, özün razı sal taledən küskünləri.

Torpaq

Nəfəs candan üzülüb, ruh çıxanda bədəndən,
Əbədi vətən üçün ayrılırsan vətəndən.

Heç nə əbədi deyil

Əbədi qalan deyil nə saraylar, nə damlar,
Hərdənbir yerə baxsın göylə gedən adamlar.

Qeyrət

Qeyrət elə şeydi ki, qanadı var, canı var,
Önündə Çin səddi çək, aşmağa imkanı var.

Dəllal

Elə ki, ağırlaşır, çətin olur halları,
Xalqı alverə çəkir siyasət dəllalları.

Bacarmaz

Bacarar krallığı, sultanlığı, şahlığı,
Bəndə yaranan insan bacarmaz allahlığı.

Səs gəlir

Qulaq ver qəbirlərə, səs gəlir dədələrdən:
"Heyifdi, insanlığı qoruyun zədələrdən"!

Sevgi

Sevgidən mayalanır qəlbin, gözün toxluğu,
Dünyaya sevgiylə bax, var eyləsin yoxluğu.

Söz

Söz kəsdim, söz doğradım, sözdən tutdum şələmi,
Tanrının özü yonub mən tutduğum qələmi.

Ulu söz

Dahilər ulu sözün səcdəsinə gəldilər,
Peyğəmbər məqamına söz ilə yüksəldilər.

Adi – dahi

Yaranan var – adidi, doğulan var – dahidi,
Biz kimik? Hər qisməti göndərən ilahidi.

Pislik – hərislik

İnsanın insan üçün yamanlığı, pisliyi,
Pula, vara, dövlətə, şöhrətə hərisliyi.

Keçər

Başımızın üstündən həftələr, aylar keçər,
Qəbrin qaşına doğru bizi haraylar keçər.

Göz yaşı

Yanağımı göz yaşı, qəlbimi qəm izlədi,
Ağladım, günahımı göz yaşım təmizlədi.

Günah

Göylərə büləndolub tüstüləri, ahları,
Qat-qat çoxdu savabdan insanın günahları.

Vay o gündən

Vay o gündən, haqlı dura, haqsız olanlar danışa,
Haqqın gözü baxa-baxa xalqa yalanlar danışa.

Dərs

Kim xalqa qənim olub görsə işin tərsini,
Vaxtın geci-tezi var, tarix verər dərsini.

Ovçu

Ovçunun ürəyinə şikar düşər, ov düşər,
Ov bərəyə gəlincə saçlara qrov düşər.

Nəfs

Bir günü azad olsa, beş günü əngəldədi,
Nəfsə nökər olanın boğazı çəngəldədi.

Allah – din

Son gündə eşq Allahım, məhəbbət dinim olsun,
Bir "Ruhani" havası mənim Yasinim olsun.

Niyə

Niyə tutqunsan, gözəl, qəlbin niyə qəm çəkib?
Sənin ki qaşlarına ilahi qələm çəkib.

Nə vaxt

Dünya nə vaxt dağılır? Nahaq haqqı dananda,
Oğruların sözünə doğrular inananda.

İşıq – yaraşıq

Bizi məhrum eyləsə günəş boyda işıqdan,
Göy üzü göydən düşər, yer üzü yaraşıqdan.

Şair eşqi

Şeirimin atəşiylə əritmişəm buzları,
Göylərdən çiçək kimi dərmişəm ulduzları.

Kərbəla

Bizi tapır Allahın hər dərdi, hər bəlası,
Hər kəndin bir çölü var, hər çölün Kərbəlası.

Allah adamı

Yaxın qoymaz qeybəti gözü-könlü durular,
Yerə baxar sevinər, göyə baxar vurular.

Tanrı payı

Tanrı payı olmasa mərdlik, qətiyyət, vüqar,
Nə Əlidən ər olar, nə qılıncdan Zülfüqar.

Muğamlar, şikəstələr

Elin bağrından qopub muğamlar, şikəstələr,
Bu xalqın nəğməsini Allah özü bəstələr.

Qaçqın ocaqları

Canımda bir od yanır, istili, bürkülüyəm,
Qaçqın ocaqlarının tüstüsüyəm, külüyəm.

MƏNLİKSİZ YAŞAMAQ BİR MƏNLİK DEYİL

Sevgidən alışmaq peşəmdir mənim,
Nifrətdən danışmaq, o, – mənlik deyil.
Çiçəyi açılmaz, arısı gəlməz,
Kimin ki ürəyi çəmənlik deyil.

Zaman çal eylədi qara saçımı,
Tanrı bağışlasın, varsa, suçumu.
Paxıllıq qurd kimi yesə içimi,
Daha o, mənlikdi, düşmənlik deyil.

Dolu sünbülü var, yetkin dəni var,
Həm nurlu sabahı, həm dünəni var.
Əsl kişilərin böyük "mən"i var,
Mənliksiz yaşamaq bir mənlik deyil.

2000, 24 mart

QARA SAZIN YADDAŞI

Qəbrə köçmür, qəlbə köçür,
qana köçür
Telli sazın yaddaşına
köçən adam.
Nağıl olur, nağıla,
dastana köçür
Telli sazın yaddaşına
köçən adam.

“Divani”ylə haqsızlara
divan eylər,
“Mansırı”yla göz yaşını
rəvan eylər.
“Ruhani”ylə qocaları
cavan eylər,
Qara sazın yaddaşına
köçən adam.

Cəsarətdi, qılıncını
qoymaz qına,
Həqiqətdi, vüqarımız
qoymaz sına,
Qara sazın yaddaşına
köçən adam.

Zaman-zaman könüllərlə
söhbətdədi,
Yerdə yerlə, göydə göylə
vəhdətdədi.

Elə bilsin bir əbədi
cənnətdədi,
Telli sazın yaddaşına
köçən adam.

Gözdən keçib ruhda, qanda
yaşayacaq,
Sazda, sözdə, başda, canda
yaşayacaq,
Neçə-neçə Zəlimxanda
yaşayacaq
Qara sazın yaddaşına
köçən adam.

2003, 18 mart

SAZA BAXSIN
TARİXİMİ YAZANLAR

Boy boylamaq, söz söyləmək adətim,
Qulaq asın, yasım-toyum danışsın.
Neçə kökəm, neçə gövdə, neçə qol,
Varaqlansın, əslim, soyum danışsın.

Yaraları köz-köz olub hoylanıb,
Yenə qalxıb, əsillənib, soylanıb.
Bir boyumdan neçə boylar boylanıb,
Qopuz dinsin, Qorqud boyum danışsın.

Millətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.
Nə oxudu, nə söylədi ozanlar,
Dağım-daşım, odum-suyum danışsın.

Tanımışam avandımı, tərsimi,
Mizrab vurub dindirmişəm hər simi.
Qırxlar piri necə verib dərsimi,
İçim olsun oyum-oyum, danışsın.

Əngəlimiz o dərələr, o diklər,
Taleyimiz Kərəm aşan gədiklər.
Niyə belə gəlməz oldu igidlər?
Qara sazım, qara neyim danışsın.

El ruhunda dil-dil ötən pərdə mən,
Dərman oldum neçə acı dərdə mən,
Nələr çəkdik göydə Allah, yerdə mən,
Nur yağdıran yerim-göyüm danışsın.

2003, 20 may

ÖVLADLARIMA

Əlli illik ömrümün dörd çiçəyi, dörd barı,
Deyəcəklər sizlərə "şairin övladları".
Bəhlulum, Şəhriyarım, Aygünümlə, Günayım,
Yaradanın qisməti, Tanrıdan gələn payım.
Təbiət dörd fəsildi, mənim dörd fəslimsiniz,
Dan yerim, səhər çağım, gələcək nəslimsiniz.
Mən sizi böyütmüşəm layla üstə, saz üstə,
Mən sizin eşqinizlə,
Ömrüm boyu ötmüşəm şirin bir avaz üstə.
Hərəniz bir sətirdə dörd misralıq bayatım,
Bayatı qədər şirin ömrüm, günüm, həyatım.
İki oğul – qoşa dağ, iki qız – qoşa çiçək,
Dağ söykənmək üçündür, çiçək qoxlamaq üçün.
Bilirəm hər biriniz imtahan verirsiniz,
Atanın vüqarını məğrur saxlamaq üçün.
Ruhumuz hardan uçub, kökümüz hardan gəlib,
Eşqimiz mayalanıb, hansı diyardan gəlib.
Duyğuları, hissləri,
Hər gün başınız üstdən yağıştək ələmişəm,
"Dədə Qorqud", "Koroğlu", "Əsli-Kərəm",
"Alpamış" –
Sizi nağıla büküb, dastana bələmişəm.
Qorquddan danışmışam, nədir ağsaqqal olmaq,
Nədir sözü-söhbəti şəkər olmaq, bal olmaq?
Koroğludan demişəm, nədir bu qəhrəmanlıq?
Qəhrəmanlar yurduna heç vaxt gəlməz qaranlıq.
Əsli kimi alışıb, Kərəmtək yanmaq nədir?
Sevgiyə bir qul olub, eşqə inanmaq nədir?
Nədir Aşıq Qəribi qürbətə salan istək?
Niyə Tahir deyirdi: "Zöhrə kimi bir çiçək?"

Bir belə qətiyyəti Fərhad hardan tapırdı?
Hansı gülün eşqinə qayaları çapırdı?
Boşuna söz deyilməz, hər söhbətin canı var,
Xalqımın yaratdığı,
Nağıllar, əfsanələr, laylalar dünyasında
Bir ucalıq timsalı, böyüklük nişanı var.
Zaman nəyə bənzəyir?
Şütüyüb əldən çıxan qızılı bir balığa.
Mən sizi çağırmışam,
Həmişə böyüklüyə, hər zaman ucalığa!
Daşı-dağı görməyən nə bilsin bulaq nədir,
Əlini-ayağını daş, çınqıllar əzməyən,
Zirvələri dolaşıb, ətəkləri gəzməyən,
Nədən bilsin, nə bilsin, aran nə, yaylaq nədir.
Min bir naxış güllərin arasında gizlənən,
Gül görüb ətirlənən, qar görüb təmizlənən,
Qaynar bulaqlar görüb, gözyaşıtək durulan,
Yerdəki çiçəklərə, göydəki ulduzlara,
Düzdə qaralan şuma,
Səhrada yanan quma Məcnun kimi vurulan,
Bilir, çox gözəl bilir,
Allah nə, Yaradan nə, Tanrı nədir, Haqq nədir!
Bələd olur həyatın dəymişinə, kalına,
Allahını sevən kəs uymur dünya malına.
Qara daşı ləl bilir,
Nəyi necə sevməyi bilir, çox gözəl bilir!
Mən sizə danışmışam,
Savalanın başında əriməyən qar nədir!
Mən sizə tanıtmışam,
Kimlər əyib Vətənin əyilməyən qəddini!
Dərbənd niyə aralı?
Təbriz niyə yaralı?
Niyə Borçalının da
Rəngi-ruhu bozarıb, yarpaq kimi saralı?
Mən sizə danışmışam,
Kim vurdu birdən-birə Göyçə kimi maralı.

Mən sizə danışmışam,
İki yüz ildən artıq,
Bir millətin çəkdiyi bu qədər ah-vay nədir,
Niyə ulu Şəhriyar şeir oxuyan zaman
Sızıldayır damarda yetmiş iki damarı.
Özü demiş, "görəsən,
Biz niyə uduzmuşuq oyunda bu qumarı?"
Ay mənim balalarım,
Eşqim, sərvətim, varım!
Kövrələn qəlbinizə, körpə ürəyinizə
Sevincdən daha artıq, daha çox dərd vermişəm,
Dərsimi ata kimi bir az da sərt vermişəm.
Sehrləmişəm sizi saz gələndə sinəmə,
Mən sizi çağırmışam oylağıma, binəmə.
Demişəm, fikir verin "Misri" nədir, "Cəngi" nə,
Gümüşü tellər üstə tellərin ahəngi nə?
Hansı hava hayqırıb Vətən deyir,
"Sarıtel" nə danışır, "Sultanı" nədən deyir?
İgidlərmi qocalır, gözəllərmi zarıyır,
"Zarıncı" zar-zar olub, niyə belə zarıyır?
Kərəm niyə əritmir Ərzurumun qarını,
"Ruhani" hara çəkir ruhun qanadlarını?
"Qaraçı"nı çalanda,
Fikir vermisinizmi niyə belə gərginəm?
Mən bu məqamlarımda,
Vurulub döyülmüşəm, qaçqınam, didərginəm.
Açın qulağınızı, mənim gül balalarım,
Eşidin min illərin fəryadını, səsini,
Açın bu vaxta qədər hələ də açılmamış,
Sazın fəlsəfəsini, sözün fəlsəfəsini!
Yarım əsri yaşadım, artıq yaşım əllidir,
Ölüm nə vaxt gələcək?
Onu Yaradan bilir,
Son günüm, son saatım yalnız ona bəllidir.

Dediklərim gün kimi sizlərə bəlli olsun,
Uca tutun sözümü,
Bu ucalıq sizlərə ən xoş təsəlli olsun!
Mən köçəndə dünyadan,
Daşıyın mənim kimi,
Xalqın – elin-obanın nisgilini, qəmini.
Bir az asta tərpənin,
Şair atanız küsər,
Sındırmayın sazını, qırmayın qələmini,
Sığal çəkin sazıma, tel dilində danışın.
Çevrilin hər biriniz Süleyman peyğəmbərə,
Təbiət ləhcəsində, quş dilində danışın.
Yer üstündə gəzənlər,
Qoy, heç vaxt unutmasın
yer altında yatanı,
Oğlu əsil bir oğul,
qızı əsil qız olsa,
O, qəbir evində də sevindirər atanı.

2001, 20 may

DOĞULUŞ

Anadan doğulmaq bir hünər deyil,
Ömrü ömür kimi yaşamaq üçün
Şirin bayatıdan, həzin layladan,
Beşikdən, bələkdən doğulmalısan.
Yerdə qasırğadan, göydə buluddan,
Buludda şimşəkdən doğulmalısan.
Gülün dodağından, göyün üzündən
Süzülən ətirdən doğulmalısan.
Bir sözdən oyanıb silkələnməli,
Kəlmədən, sətirdən doğulmalısan.
Təkcə anasından doğulmur insan,
Doğma ana kimi əzizlədiyi,
Nəfəsdən doğulur, ruhdan doğulur.
Dahilər doğulur, dərdlər içində,
Çəkdiyi ağrıdan, ahdan doğulur.
Xalqın ürəyində, elin gözündə,
Gül kimi bitəndə doğulur insan.
Cahillik ölümdü, alimlik həyat,
Kamala yetəndə doğulur insan.
Arzular eşqinə insan oğlunun,
Zirvə olmağı var, dağ olmağı var.
Həyata ölməzlik gətirənlərin,
Ölümdən sonra da doğulmağı var.

2001, 10 aprel

QALDI

Mən kimin yadında qaldım, bilmirəm,
El mənim yadımda pir kimi qaldı.
Çoxu ikiləşdi, çoxu dəyişdi,
Bir Allah qəlbimdə bir kimi qaldı.

Verdim öz meylimi saza, aşığa,
Bağlandım saz adlı bir yaraşığa.
Duyanlar gözümdə döndü işığa,
Köntöylər içimdə kir kimi qaldı.

Hamıya çatmadı çaldığım bu saz,
Hardandı bu hava, bu səs, bu avaz?
Suallar nə çoxdu, havalar nə az,
Dünya gözlərimdə sirr kimi qaldı.

2001, 6 iyun

NƏ DEMİŞƏM Kİ...

Nə gözəl demisən, şair Zəlimxan...
(Oxucu məktubundan)

Qardaş, bal olsa da, dostun tərifi,
Hələ bu torpağa nə demişəm ki...
İlahi baxışı sevən ürəyə,
Nəğməli dodağa nə demişəm ki...

Fikrin sərhədi yox, eşqin sahili,
Dərələr bəmidir, zirvələr zili.
Qələmdi Allahın danışan dili,
Qələmə, varağa nə demişəm ki...

Yersizdir təkəbbür, yersizdir qürur,
Mövzu var, yetimtək boynunu burur.
Hələ yazılmamış kitablar durur,
Bu şama, çırağa nə demişəm ki...

Əslindən uzaqdır əslini danan,
Kökünə tapınar düşünən, qanan.
UIu Borçalıda od tutub yanan,
Mübarək ocağa nə demişəm ki...

Arzular muncuqtək düzülər səfə,
Çatdırar ömrümü şana, şərəfə.
Sanki, söz deyirəm birinci dəfə,
Yaxına, uzağa nə demişəm ki...

Salsın sinəm üstən yolu çeşmələr,
Eşq ilə doludur, dolu çeşmələr,

Saflığa çağırır ulu çeşmələr,
Çeşməyə, bulağa nə demişəm ki...

Ömür pay olmasın qara yellərə,
Təzə vurulmuşam qızılgüllərə.
Gərdənə tökülmüş qara tellərə,
Yar gəzən oylağa nə demişəm ki...

Yetirdi özünü min ilin başı,
Ömrüm bir əsrlə durdu yanaşı.
Hələ çatılmasın şairin qaşı,
Bu vaxta, bu çağa nə demişəm ki...

Fikrin qanadları gərilməlidir,
Eşqin meyvələri dərilməlidir.
Şair nəfəsiylə, şair sözüylə
Ölmüş duyğular da dirilməlidir.
Tanrıdan pay olan, Allahdan gələn
O səsə-sorağa nə demişəm ki...
Uzaq ulduzlara, ulu göylərə,
Çiçəyə, yarpağa nə demişəm ki...
Müqəddəs torpağa nə demişəm ki...

2000, 20 fevral

SAXLADI

Mən bir yola könül verdim,
Yol məni duru saxladı.
Baxışımda haqq odunu,
Qəlbimdə nuru saxladı.

Gözümü yaşdan qorudu,
Yazımı qışdan qorudu.
Qardan, yağışdan qorudu,
Külümdə qoru saxladı.

Haqdan, nahaqdan ölmüşdüm,
Qılıncdan, oxdan ölmüşdüm.
Vallah, mən çoxdan ölmüşdüm,
Saz məni diri saxladı.

2000, 17 mart

SUAL – CAVAB

– Bu çay niyə nərə çəkir?
– Arxasında qarlı dağ var!

– Bülbül niyə cəh-cəh vurur?
– Xidmətində güllü bağ var!

– Çəmən niyə naz eyləyir?
– Sinəsində gur bulaq var!

– Arı niyə bal gətirir?
– Öpüşdüyü gül dodaq var!

– Könül niyə kökdən düşmür?
– Tapındığı bir ocaq var!

– Şair niyə havalanır?
– Güvəndiyi bu torpaq var!

2002, 14 sentyabr

ŞAİRƏ DEMƏ Kİ, HARDAN GƏLİRSƏN

Şairə demə ki, hardan gəlirsən,
Elin ürəyindən, canından gələr.
Xalqın ürəyində işıq yandırıb,
Ürək həkiminin yanından gələr.

Yetimlər başına çəkər sığalı,
Sınıq könülləri yapar, qayıdar.
Özünü özgənin səadətində,
Axtarar, qayıdar, tapar, qayıdar.

Şairin hər günü Nuh tufanıdı,
Tufanı yatırdıb, gəmidən gələr.
Özünün nəfəsi, sözünün ətri,
Çiçəkdən, çəməndən, zəmidən gələr.

Xəyalı göylərin yeddi qatıdı,
Ruhu insanlığın kökündən gələr.
İlhamı tarixin mükafatıdı,
Hünəri torpağın təkindən gələr.

Varaqdır torpağı, qələmdir xışı,
Ömrünü yer kimi əkər, yorulmaz.
Qolunda qüvvətdir elin alqışı,
Dünyanın yükünü çəkər, yorulmaz.

Geciksə incimə, ləngisə küsmə,
Çeşmədə qızlara vurular, gələr.
Bir qız baxışında sellərə dönüb,
Bulaq saflığında durular, gələr.

Hara getdiyini çox gözəl bilir,
Hardan gəldiyini bilən şairlər.

Ömrünü atəşə, torpağa, suya,
Eşqə, həyəcana, hissə, duyğuya,
Dəftərə, kitaba bölən şairlər.
Əbədi dirilər cərgəsindədi,
Söz üstə şəhidtək ölən şairlər.

2000, 24 aprel

GƏLİRƏM

Duyğuların zirvəsinə baş vurub,
Uca sözün ucasından gəlirəm.
Gör nələr var üçcə hərfin canında,
"Söz"ün bircə hecasından gəlirəm.

Ömür üzən, gün qocaldan, yaş yoran,
Dincəlməyə aman verə, kaş, yoran.
Sualların saç ağardan, baş yoran,
"Neyçün"ündən, "necə"sindən gəlirəm.

Danışdırdım hər pərdəni, hər simi,
Dərk eylədim avandımı, tərsimi.
Məktəb açdı, Tanrı verdi dərsimi,
Ustadından, xocasından gəlirəm.

Tilsim ömrün, qıfıl ömrün, sirr ömrün,
Hünərin var qapısından gir ömrün.
Yuxusuna haram qatmış bir ömrün,
Min yuxusuz gecəsindən gəlirəm.

Süzülmüşəm tarixlərin ruhundan,
Od almışam yananların ahından.
İnsanların Adəmindən, Nuhundan,
Cavanından, qocasından gəlirəm.

Qorxusu yox nə amanın, nə ahın,
Günəşi var hər açılan sabahın.
Qapısında xidmətçiyəm Allahın,
Qapısından, bacasından gəlirəm.

2000, 3 may

BİR AZ DA BİZƏ SÖYLƏ

Dağların şair oğlu,
çəkil dağlar qoynuna,
Şeiri bu məğrur dağa,
bu geniş düzə söylə.
Sevgini çiçəklərin
qulağına pıçılda,
Yanğını, alovunu
ocağa, közə söylə.
Dünya bir isti təndir –
kim yoğura, kim yapa,
Təbiət bir axtarış –
kim itirə, kim tapa.
Olmuşlar, olacaqlar
bir-bir düzülər sapa,
Köhnədə təzəni gör,
təzədən təzə söylə.
Dərdini, sevincini
çox adama söylədin,
Hərdən yanan çırağa,
hərdən şama söylədin,
Dodağından incilər
dama-dama söylədin,
Aç sinə dəftərini
bir az da bizə söylə.
Meydandan qaçan kişi
igid deyil, ər deyil,
Yollar kələkötürdü,
ipək deyil, zər deyil,
Əlli yaşın şeirini
yazmaq bir hünər deyil,
Yüz gəlsin, hünərin var,
sözünü yüzə söylə.

2000, 1 avqust

BÖYÜTDÜM İÇİMDƏ MİSRALARIMI

Güc verib, can verib, təravət verib,
Köklər budaqları böyüdən kimi,
Dözüb ağrısına, əziyyətinə,
Ana uşaqları böyüdən kimi,
Böyütdüm içimdə misralarımı.

Oğul böyüdəntək, qız böyüdəntək,
Bir qız duruşunda naz böyüdəntək,
Körpə şitilləri yaz böyüdəntək,
Böyütdüm içimdə misralarımı.

Ürəyim tarladı, düşüncəm zəmi,
Su verdim, od verdim, sözü böyütdüm.
Sözdən bu dünyaya baxan, boylanan,
Baxışı böyütdüm, gözü böyütdüm,
Böyütdüm içimdə misralarımı.

Qurddan xilas etdim, quşdan qorudum,
Arxadan atılan daşdan qorudum.
Şaxtadan saxladım, qışdan qorudum,
Böyütdüm içimdə misralarımı.

Qəfil qulağıma bir səda dəydi:
– Özün böyüməsən sözün böyüməz.
Əvvəlcə özünü böyütməlisən,
Çıxıb genişliyə, qalxıb zirvəyə,
Dağını, düzünü böyütməlisən.
Yollara döndərib dar cığırları,
Yeriyib, izini böyütməlisən.

Gördükcə düşündüm, gəzdikcə yazdım,
Böyütdüm içimdə misralarımı.

Bir qələm, bir dəftər, bir şam, bir də mən,
Bir ümid, bir sevgi, ilham, bir də mən.
Nə səpdim, nə əkdim, bir Allah bilir,
Gündüzlər qovruldum axşama qədər,
Gecələr nə çəkdim bir Allah bilir.
Səpdim duyğuları sətirlərimə,
Böyütdüm içimdə misralarımı.

2000, 11 avqust

DEYƏSƏN

Mürgülü misralar, hansı yataqda,
Hansı balınc üstə uyuyursunuz?
Mənsiz yata-yata fil qulağında,
Deyəsən, şairdən soyuyursunuz.

2000, 5 sentyabr

HEYKƏL KİMİ

Axır Araz kimi,
coşur Kür kimi,
Dost olur, yar olur
sevincə, dərdə.
Ömrü yaşadıqca
bir ömür kimi,
İnsan heykəl olur
xatirələrdə.

2002, 22 sentyabr

DÜNYA MƏNİM ŞEİRİMDİ

Dünya mənim şeirimdi,
Yerdə mavi çiçəkdən,
Göydə ulduza qədər.

Dünya mənim şeirimdi,
Zəmidən sünbüldək,
Çörəkdən duza qədər.

Dünya mənim şeirimdi,
Qışdan bürkülü yaya,
Atəşdən buza qədər.

Dünya mənim şeirimdi
Mamırıyla, daşıyla,
Sevinci, kədəriylə,
Gözlərinin yaşıyla.
Dünya mənim şeirimdi,
Yaşar sonsuza qədər.

2000, 4 dekabr

DE, GƏLSİN

Könül, sağlam toxum kimi,
Səp dağa, düzə şeirini.
Yaralara məlhəm eylə,
İşıq bil gözə şeirini.

İnci gəzə, ləl axtara,
Axtaran gözəl axtara.
İgidlər əl-əl axtara,
Gözəllər gəzə şeirini.

Ax çayın ahəngi ilə,
Çax şimşəyin zəngi ilə.
Çiçəklərin rəngi ilə,
Naxışla, bəzə şeirini.

Dolu ürək, isti başnan,
Gözləri yandıran yaşnan,
Könüldəki od-ataşnan
De, gəlsin, təzə şeirini.

2000, 15 dekabr

GECƏDƏ

Şam ağlayır, dəftər gülür,
qələm yazır, əl sevinir,
Həmsöhbətəm bir şairlə
baş-başa qalmış gecədə.
Həmsöhbətəm, körpələri
yatıb şirin bir yuxuda,
Gözəlləri fikrə gedib,
xəyala dalmış gecədə.

Uzaq yollar yolçusuyam,
sözdü yüküm, sözdü şələm,
Dildə zikr, başda fikir,
ürəkdə od, əldə qələm.
Gah Yunusam, gah Qorqudam,
gah Ələsgər, gah Veysələm,
Duyğuları bir saz kimi
könlümü çalmış gecədə.

Talesizlər taleyinə
göz yaşları ələmişəm,
Bir ney kimi nalə çəkib,
quzu kimi mələmişəm.
Neçə-neçə ağ varağı
qara rəngə bələmişəm,
Söz yanında üzüm ağdı
rəngi qaralmış gecədə.

2001, 7 yanvar
Altıağac

O SÖZ

Sözüm yerə düşdü nadan yanında,
Qaldıra bilmədim yerdən o sözü.
Saxlaya bilmədim ucalığında,
Qoruya bilmədim şərdən o sözü.

Ruh oldum, o sözün ruhuna yatdım,
Sözün ocağını qaladım, çatdım.
Niyə zirzibilin içinə qatdım,
Mən ki toxumuşdum zərdən o sözü.

Neçə dağ aşıram, dərə keçirəm,
Çöllərə bənd açıb, bərə keçirəm.
İndi də utanıb yerə keçirəm,
Yadıma salanda hərdən o sözü.

2001, 18 may

DAN YERİ

Dan yerinə salam verdim,
Günəş aldı salamımı.
Dan yerindən düşən işıq
Saflaşdırdı kəlamımı.

Təbiətdən köçürmüşəm,
Şeirimdə bir dan yeri var.
Dan yerindən gələn sözün
Tanrıya qalxan yeri var.

MƏN ÜZÜMÜ SƏNƏ TUTUB YAZIRAM

Mən üzümü sənə tutub yazıram,
Mən üzümü sənin kimi varlığa,
Sənin kimi dinə tutub yazıram.
Tanıyıram öz səmtimi, qibləmi,
Yönsüzləri gətirməkçün bir yönə,
Mən yönümü yönə tutub yazıram.
Saflığından götürmüşəm mayamı,
Qüdrətindən binə tutub yazıram.

Özbaşına ələnmir ki, başıma,
Göydən enir, yerdən çıxır sözlərim.
Gecə-gündüz əlimdəki qabardan,
Alnımdakı tərdən çıxır sözlərim.
Şair könlü ziyarətə çevrilir,
Ocaq olur, pirdən çıxır sözlərim.
Tufanlarla hey çarpışan gəmidir,
Hərdən batır, hərdən çıxır sözlərim.
Göndərən kim, yazdıran kim, yazan kim,
Möcüzədən, sirdən çıxır sözlərim.

Uzaq yollar bəzirganlı, xocalı,
Bu yolların söz sahibi ozanlar.
Bahar vaxtı tər çiçəklər açılır,
Payız vaxtı ömrə düşür xəzanlar.
Nədən bilsin çiçək nədir, xəzan nə,
İlahinin düz yolundan azanlar.
Günahkara qıl körpünün altı var,
Gecə-gündüz qır qaynadır qazanlar.
Allahsızı qovuşdurmaz Allaha

Nə dualar, nə çəkilən əzanlar.
Bəxtəvərdi ömrü boyu haqq deyib,
Haqq çağırıb, haqq eşqinə yazanlar.
İman yerim, güman yerim, yurd yerim,
Təbib yerim, dərman yerim, dərd yerim,
Səndən başqa kimdi mənim pənahım,
Bir gün sənsiz açılmasın sabahım.
İlhamım da, qələmim də, sözüm də,
Nəfəsim də sənindir, Allahım.
Mən üzümü sənə tutub yazıram,
Mən üzümü səndən gələn sədaya,
Səndən gələn ünə tutub yazıram.

2000, 24 fevral

BİR İNSAN SEVGİSİ, BİR ALLAH EŞQİ

İşığı, neməti boldu, tükənməz,
Min ildi gəldiyim yoldu, tükənməz,
Yerin işığıynan, göyün nuruynan,
Qəlbimə ömürlük doldu, tükənməz,
Bir insan sevgisi, bir Allah eşqi.

Ruhuma Tanrının sazıynan gəlib,
Bəxtimə gözəlin nazıynan gəlib.
Enib göy üzündən mələk donunda,
Dünyanın ən gözəl qızıynan gəlib.
Qardan, qasırğadan keçib yolları,
Fəslin baharıynan, yazıynan gəlib.
Alın yazısıtək çıxıb qarşıma,
Allahın yazdığı yazıynan gəlib,
Bir insan sevgisi, bir Allah eşqi.

"İncil"i yazdırır İsa dilində,
"Tövrat"ı yazdırır Musa dilində.
Cansızı canlıya çevirə bilər,
Musa əlindəki əsa dilində.
Məhəmməd yaradır Quran dilində,
Fateh danışdırar Quran dilində.
Varlığı, həyatı gözəlləşdirər,
Bütün Kainatı gözəlləşdirər,
Bir insan sevgisi, bir Allah eşqi.

İlk qadın Həvvadı, ilk kişi Adəm,
İlk sevgi Adəmnən, Həvvadan gəlir.
İnsana vurulmaq, Allahı sevmək,

Bu sudan, torpaqdan, havadan gəlir.
Dünya sevgisinə, dünya seyrinə,
Hər kəs öz qurduğu yuvadan gəlir.
Duyana ürəkdi, baxana gözdü,
Yazana kitabdı, deyənə sözdü,
Bir insan sevgisi, bir Allah eşqi.

Oğullar qəlbinə salır yanğını,
Sürməni qızların qaşına çəkir.
Can verir, qan verir yaratdığına,
Görün Yaradanın başı nə çəkir.
Ürəyi yananda bir dolça sutək,
Dənizi qaldırıb başına çəkir,
Bir insan sevgisi, bir Allah eşqi.

Deməklə dəftərə, qələmə gəlməz,
O, südnən yoğrulub, sümüknən gəlib.
O, mənim könlümə dağlardan ağır,
Dağlardan çəkili bir yüknən gəlib.
Süzülüb ruhuma, damarlarıma,
Ozannan, ustadnan, böyüknən gəlib.
Qəbir evində də izləyər məni,
Min ildən sonra da gözləyər məni.
Gələn sabahlara, gələn günlərə,
Çatan səsim olar, sorağım olar.

Bulanmaz zamanın fırtınasında,
Axarı dumduru bulağım olar.
Hər şeyi tanıyar, hər şeyi görər,
Hər səsi eşidən qulağım olar.
Özüylə yaşadar Zəlimxanı da,
Bir insan sevgisi, bir Allah eşqi.

2000, 7 iyun

BİR DAŞA SÖYKƏNMİŞƏM

Bir daşa söykənmişəm
bir dağın ətəyində,
Ürəyimə, beynimə
qəribə hisslər gəlir.
Gah gün doğur üstümə,
işıqlanır varlığım,
Gah da işığa qənim
dumanlar, sislər gəlir.

Dağa baxdım, ruhumda
dağ kimi ləngər oldu,
Zirvələr Allah evi,
qayalar səngər oldu.
Bu yerdə kimi şair,
kimi peyğəmbər oldu,
Gözlərimin önünə
ən uca kəslər gəlir.

Ömrümüzü uzadan
yerin-göyün ətridi,
Yaradanın bizlərə
hörmətidi, xətridi.
Ya Quranın ayəsi,
ya şeirimin sətridi,
Qulağıma Tanrıdan
ilahi səslər gəlir.

Füzuli bağçasından
şirin bardı gələnlər,
İlahiyə qonşudu,
haqqa yardı gələnlər.
Yunusdu, Mövlanadı,
Şəhriyardı gələnlər
Qalx ayağa, Zəlimxan, qalx,
müqəddəslər gəlir.

QURANI SƏHV OXUMA

Biz ona ilahidən
verilən dərs demişik,
Biz ona ilahidən
süzülən səs demişik,
Biz ona yaranışdan
pak, müqəddəs demişik,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Onun dərkinə varmaq
ər oğlu ər işidir,
Zərgərlik sənətidir,
fikirlər zər işidir.
O, Tanrı möcüzəsi,
o, peyğəmbər işidir.
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Nə ucadı məqamı,
nə şirindi əzabı,
Tilsimlərin dilidi,
sualların cavabı.
Dürüst oxu, gözəl de,
birə mindi savabı,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

İlqar-iman sahibi
ocaq olar, kül olmaz,
İmansız bir ürəkdə
tikan bitər, gül olmaz.
Allaha ağır gedən
bəndəyə yüngül olmaz,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Quran nə bütpərəstin,
nə də ki, bir bütündü,
Yoxdu onu yandıran,
onu danan büt indi.
Yerlə göy arasında
dağılmaz bir sütundu,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Dəryadakı damlada,
səhradakı qumdadı,
Torpaqdakı toxumda,
tarladakı tumdadı.
Gündüzlər xəyalımda,
gecələr yuxumdadı,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Üstündə haqqın əli,
Yaradanın zəhmi var,
Bir sözdə min aləmin
düşüncəsi, fəhmi var.
Demə ki, bağışlayar,
o, rəhmandı, rəhmi var,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Yeri ucadan uca,
Yaşı uludan ulu,
Hər nöqtəsi, vergülü
ilahidən vurğulu.
Övliya da, şeyx də,
imam da onun qulu,
Hər qəlbə o kitabdan
yol gedər, cığır gedər,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

2000, 15 noyabr

GƏLDİM

Dünya mənim idi,
mən olmamışdan.
Bilirəm dünyaya
mən nəyə gəldim.
Yazıldı alnıma
sözün qisməti,
Sözümü zamana
deməyə gəldim.

Yamac buz olanda,
yal buz olanda,
Yer üzü başabaş
sal buz olanda,
Allah tək olanda,
yalqız olanda,
Tanrıya yardıma,
köməyə gəldim.

2000, 29 sentyabr

HAQQA HESABAT

Şair qəlbi bütöv olmaz,
yüz yerindən çatları var.
Daşıdığı qayğıların
dərin-dərin qatları var.

Ruhu təmiz, eşqi böyük,
yolu uzun, ömrü qısa,
Yerdə durmaz, göyə sığmaz,
çırpınan qanadları var.

Şair hər gün şair olmur,
gündə bir kitab yarada,
İlhama, Tanrıya bağlı
anları, saatları var.

Bir əsəri başladısa,
Allah! Allah! – deyər dili.
Bir kitaba nöqtə qoysa,
haqqa hesabatları var.

Uca şeiri yaradanlar
yeri göyə bağladılar.
Yaradana yaxın olan
imzaları, adları var.

2003, 27 aprel

CAN YERİN PAYIDI

Baxdığım üfüqə, gördüyüm göyə,
Ürəyimi verdim, beynimi verdim.
Göylər ucalıqdan enməsin deyə,
Göylərin altına çiynimi verdim.

Yerimək çətindi yolda, yoxuşda,
Dizlərin qüvvəti, heyi yoxdusa.
Yazıqdı insan da, böcək də, quş da,
Göylərin qoynunda göyü yoxdusa.

Bölüb, bölüşdürüb bu qismət bizi,
Can yerin payıdı, ruh göylərindi.
Beləcə yaradıb təbiət bizi,
Ağrı torpağındı, ah göylərindi.

2003, 10 aprel

ALLAHA QAYTARMAQ ÜÇÜN

Tanrı gücü, Allah eşqi,
Yaradana inam gərək,
Təkcə külüng bəs eyləmir
qayaları yarmaq üçün.

Bizə Loğman ömrü gərək
ömürləri uzatmağa,
Bir şeytanın fəndi yetər
min ümidi qırmaq üçün.

Ruhumda bir dönməz ərlik,
qanımda bir səfərbərlik,
Yol gedirəm Yaradanın
dərgahına varmaq üçün.

Çılğın, qaynar bir həyatam,
ömrüm boyu narahatam,
Allahdan aldığım ömrü
Allaha qaytarmaq üçün.

2000, 7 yanvar
Altıağac

BU XALQI ÖLÇÜDƏN EYLƏMƏ, ALLAH

Mən getdiyim elin ölçüləri çox,
Mən dərdiyim gülün gülçüləri çox.
Mən vardığım yolun yolçuları çox,
Gördüyüm şəhərin, gəldiyim kəndin,
Nizamı, qaydası, ölçüləri çox.

Daha da süzülsün süzgün qaşları,
Qızların sevincdən axsın yaşları.
Hər gün çiçəkləsin elçi daşları,
Bu eli elçidən eyləmə, Allah.

Saçın qarası da, ağı da gülsün,
Bağbanı da gülsün, bağı da gülsün.
Güllərin kökü də, tağı da gülsün,
Bu gülü gülçüdən eyləmə, Allah.

Bəzirgan da keçsin, xoca da keçsin,
Uşaq da, cavan da, qoca da keçsin.
Peyğəmbər yerisin nur səpə-səpə,
Eşqi fələklərdən uca da keçsin,
Bu yolu yolçudan eyləmə, Allah.

Ölçüdü, nizamdı bu dağ, düz, dərə,
Ölçüsüz dağ yoxdu, ölçüsüz dərə.
Özün ölçü götür ölçüsüzlərə,
Bu xalqı ölçüdən eyləmə, Allah.

2000, 21 mart

MƏNƏ YUXARIDAN YOL GÖSTƏRƏN VAR

Ömrün yollarında arxalanmağa,
Kişi var, dədə var, ər var, ərən var.
Yazda toxumları səpən, göyərdən,
Payızda əl atıb barı dərən var.

Ağlayar yıxılan, sevinər yıxan,
Yıxılmaz Allahın əlini sıxan.
Sərsəm qasırğadan salamat çıxan,
Dəli tufanlara sinə gərən var.

Bilirəm qədrini zilinən, pəsin,
Avazın, ahəngin, nəğmənin, səsin.
Heç kəs mənim üçün yol göstərməsin,
Mənə İlahidən yol göstərən var.

2000, 12 aprel

TANRIM, SƏNƏ ŞÜKÜRLƏR

Tanrım, sənə çox şükür,
Sənə tapınmaq üçün,
Din və iman yaratdın.
Düşüncələr qanadı,
Ruh verdin, can yaratdın.
Bir bəşər övladını
Yüz il yaşatmaq üçün,
Canda təpər, gözdə nur,
Damarda qan yaratdın.
Qaşlarım çatılanda,
Dərdimi tək qoymadın,
Dərdə dərman yaratdın.
Tanrım, sənə şükürlər,
Məni insan yaratdın.
Dili təmiz dualı,
Qəlbi isti yuvalı,
Könlü şirin havalı,
Tanrıdan qüvvət alan,
Tanrı sazını çalan,
Bir ozanı səslədin,
Bir Zəlimxan yaratdın!

2000, 24 aprel
Ankara

SƏSLƏR

Eşidə bilirsənmi göydən gələn səsləri?
Yağışın da, qarın da, buludun da səsi var.
Dilini başa düşsən, daşlara lal deməzsən,
Eşitsən biləcəksən, sükutun da səsi var.

Alışan ocağın da, sönən qığılcımın da,
Yanıb sönən qorun da, boz külün də səsi var.
Bülbüllərin səsini eşitməyə nə var ki,
Açılan qönçənin də, tər gülün də səsi var.

Eşidə bilirsənmi zərif xışıltıları?
Yazdığın vərəqin də, qələmin də səsi var.
Tarixin keçmişinə sükuta dalmış, demə,
Tamam səssiz bildiyin aləmin də səsi var.

Hamı duymaz səsi, hamıya çatmaz bu səs,
Yüz minlərin içində bilər arif olanlar.
Bir səsi eşitməyə qırx il hazırlıq gərək,
Duyar məni sudan saf, güldən zərif olanlar.

Get, durula-durula, qal, vurula-vurula,
Ucal Tanrıya sarı, çağır müqəddəsləri.
Qəlbin qulağı varsa, qulağa nə ehtiyac,
Hər gün eşidəcəksən eşidilməz səsləri!

2000, 25 aprel
Ankara

DESƏM Kİ...

Göylərin qapısı üzümə açıq,
Yerlərin qapısı üzümə açıq.
Desəm ki, Allahı görə bilmirəm,
Haqqa ağır gələr, Allaha acıq.

2000, 30 iyun

TANRININ DƏRGAHI

Haqqı gör, haqqa bax, haqq ilə din-danış,
Şairsən, üzünü günə tut, Aya tut.
Tanrının dərgahı işıqsız keçinməz,
Saflıqdan, işıqdan ruhuna maya tut.

2000, 26 sentyabr

MƏNZƏRƏ

XX əsr
Yaratdı Üzeyiri,
Yetirdi Qaranı,
Yetirdi Fikrəti.
Azərbaycana bir səs axarı,
Bir ahəng bağışladı.

XX əsr
Yetirdi Müşfiqi,
Yetirdi Cavidi,
Yetirdi Vurğunu.
Müşfiqə güllə,
Cavidə sürgün,
Vurğuna xərçəng bağışladı.

XX əsr
İki dəfə güldü üzümüzə,
Bir dəfə enən,
İki dəfə qalxan bayrağımıza
Üç rəng bağışladı.

XX əsr
Əritdi yağımızı,
Çıxartdı cızdağımızı,
Taladı torpağımızı,
Bizi qana çəkdi,
Bizə sovqat verdi,
Bizə cəng bağışladı.

2001, 5 aprel

GÖRDÜM

Bu nə qurğu, bu nə saat,
şimşək kimi keçdi həyat,
Arzularım oldu boyat,
gedib ömrün çoxu, gördüm.
Əldən getdi ömrüm-günüm,
unuduldu toy-düyünüm,
Ərşə çıxdı ahım-ünüm,
var axtardım, yoxu gördüm.
Toyundan çox oldu vayı,
göz yaşına döndü çayı,
Çəkildi fələyin yayı
sinəmdədi oxu, gördüm.
Zaman axdı sular kimi,
döndü bir göz qırpımına.
Əlli ili yaşamadım,
elə bil ki, yuxu gördüm.

2001, 15 may

BİLMİRƏM

Ölüm adlı bir dinsizin
Hansıdı dini, bilmirəm.
Niyə belə uzun çəkdi
Nifrəti, kini, bilmirəm.

Hava soyuq, rüzgar sərin,
Ömür gödək, yara dərin.
Nə vaxt kəsər ürəklərin
Fəryadı, ünü, bilmirəm.

Əcəl gəlsə, almaz izin,
Süründürər dizin-dizin.
Hardadı bu qibləsizin
Qibləsi, yönü, bilmirəm.

Dərd min birdi, mənsə birəm,
Torpağındı şəhdim, şirəm.
Gəldiyim günü bilirəm,
Öldüyüm günü bilmirəm.

2001, 1 may

MAYIN DOQQUZU

Şuşa deyiləndə mənim ağlıma,
Qurdlara yem olmuş bir quzu gəlir.
Torpağı satanın gözünə xalqın,
Nə çörəyi gəlir, nə duzu gəlir.

İtirəm dumanda, azıram çəndə,
Olmaq istəmirəm Allaha bəndə.
İsa bulağını fikirləşəndə,
Gözümdən həmişə qanlı su gəlir.

Qurulan bu qurğu, tələ bəsidir,
Bu millət çox baxdı ələ, bəsidir.
Qələbə düşmənin qələbəsidir,
Gəlir, may ayının doqquzu gəlir.

2001, 3 aprel

ƏBƏDİYYƏT XÜLYASI

İlləri saldım yola, yolun ortasındayam,
Zamanın iş-peşəsi başımı qatmaq oldu.
Kiminin toyundayam, kiminin yasındayam,
Nə bir rahat yaşamaq, nə şirin yatmaq oldu.
Vaxt olmadı gülləri doyunca qoxlamağa,
Tikanın işi-gücü gözümə batmaq oldu.
Gücüm çatmadı vaxtı yerində saxlamağa,
Zamanı nə ləngitmək, nə də yubatmaq oldu.
Ulu şairlər kimi mən qurşandım alverə,
Vəzifəm dərdi alıb, kədəri satmaq oldu.
Əbədiyyət xülyadı, can atdım nahaq yerə,
Nə əvvələ qayıtmaq, nə sona çatmaq oldu.

2001, 8 aprel

QƏLƏBƏ ÇALMAĞA NƏ VAR

Qorxaqlığı tərk eyləsən,
Qələbə çalmağa nə var.
Torpaq nədir – dərk eyləsən,
Qələbə çalmağa nə var?!

Ortada düşük olmasa,
Torbada pişik olmasa,
Gəmidə deşik olmasa,
Qələbə çalmağa nə var?!

Ayrılmasaq köçümüzdən,
İbrət alsaq suçumuzdan,
Çürüməsək içimizdən,
Qələbə çalmağa nə var?!

Millətimiz bir olanda,
Birliyimiz pir olanda,
Döyüş vaxtı şir olanda
Qələbə çalmağa nə var?!

İman, insaf olan yerdə,
Duyğular saf olan yerdə,
Fikir şəffaf olan yerdə
Qələbə çalmağa nə var?!

"Millət!" – desin ucalan səs,
"Vətən!" – desin hər dinən kəs,
Satqınların kökünü kəs,
Qələbə çalmağa nə var?!

Şəhid kimi tapşır qanı,
İgid kimi al meydanı.
Öldür içində şeytanı
Qələbə çalmağa nə var?!

Məğlub olmaq zəncirdisə,
Məğlub olmaq kəndirdisə,
Məğlub olmaq təhqirdisə,
Məğlub olmaq qəbirdisə,
Qələbə son ümid yeri,
Qələbə son tədbirdisə,
Qələbə çalmağa nə var?!

2001, 13 mart

SÖZÜNÜ BİRBAŞA DE

Milçəktək vızıldama,
Çibantək sızıldama,
Mal kimi mızıldama,
Pıçhapıça haşa de.
Kişisən aydın danış,
Sözünü birbaşa de!

Ruh dinsin, can danışsın,
Təkcə dil danışmasın,
Damarda qan danışsın.
İstəyirsən insana,
İstəyirsən daşa de,
Kişisən aydın danış,
Sözünü birbaşa de!

Dil varsa, dodaq varsa,
Dodağın altı nədir?
Boy varsa, buxun varsa,
Kölgə, qaraltı nədir?
Dünya dolu işıqsa,
Ürəyin xıltı nədir?
Xırdalama insanı,
Ona bəy de, paşa de!
Kişisən aydın danış,
Sözünü birbaşa de!

2001, 16 mart

AĞRILAR

Gör bir canın
neçə-neçə ağrısı var,
Baş ağrısı,
diş ağrısı, döş ağrısı.
Hər fəsildə bir cür ağrı,
bir cür əzab,
Yaz ağrısı, yay ağrısı,
qış ağrısı.
Ürəkləri gör nə qədər
gücə salır
Damla-damla
gözdən axan yaş ağrısı.
Minbir arzu, minbir dilək
şikəst edir
Ömrün-günün minbir
dərdə tuş ağrısı.

2002, 13 mart

YAZIQ VƏTƏN

Nə zaman ki, bir tədbirə başlayırsan,
Nə zaman ki, bir şadlığın, toyun olur,
Hamı öpür, qucaqlayır bir-birini,
Ortalıqda bir şıdırğı oyun olur.
Yallı gedir, yaylıq tutur, rəqs eyləyir,
Deyirsən ki, Allah, şükür, birləşirik,
Bu millətin hamısı qol-boyun olur.
Nə zaman ki, döyüş sözü gəlir dilə,
Nə zaman ki, Vətən sözü gəlir dilə,
Bayaq toyda qoç olan kəs
qəfil dönür birdən-birə,
Sabir demiş, keçi olur,
quzu olur, qoyun olur.
Yazıq millət, yazıq Vətən,
Sabah ondan törəyən də
Dönür bir gün sənin əslin,
sənin nəslin, soyun olur.

2001, 12 mart

BU VƏTƏN BİZİM

Qara buludların yaxasını cır,
Qəfil şimşəklərin inadını qır.
Yer kimi silkələn, göy kimi hayqır,
Durma, vətən oğlu, səngərlərdən aş,
Savaş istəyirəm, dəli bir savaş!

Analar ağrıda, bacılar yasda,
Qaragün talelər qara libasda.
İgidim mürgüdə, qılıncım pasda,
İllərdi qurumur gözümdəki yaş,
Savaş istəyirəm, dəli bir savaş!

Durub dayanmağın sırası deyil,
Yadlar halımızı sorası deyil.
Çıxan qan damarda durası deyil,
Qonşudan atılıb bostanıma daş,
Savaş istəyirəm, dəli bir savaş!

Könül də, baxış da, ürək də, can da,
Savaş deməlidi bu çətin anda.
Millətin damarda qanı coşanda,
"Baxaq"lar, "görək"lər olmayaydı kaş,
Savaş istəyirəm, dəli bir savaş!

Tarix on üç yaşlı möcüzə görüb,
Bizi tufanlarla üz-üzə görüb,
Bizi ölümlərlə göz-gözə görüb,
Hanı Şah İsmayıl, hanı qızılbaş,
Savaş istəyirəm, dəli bir savaş!

Can bizim, baş bizim, ruh-bədən bizim,
Gül bizim, çöl bizim, göy çəmən bizim.
Yer bizim, göy bizim, bu Vətən bizim,
Millətin yolunda qurbandır bu baş,
Savaş istəyirəm, dəli bir savaş!

2001, 12 dekabr

BU GÜN
SAVAŞ YERİDİ

Bir parça vətən getdi,
Dağ uçdu, daş yeridi.
Beyinlərə qan sızdı,
Gözlərə yaş yeridi.

Qan vaxtı, qan məqamı,
Şəhidlik – şan məqamı.
Verməyə can məqamı,
Keçməyə baş yeridi.

Vuruş hər qarış üçün,
Torpaq üçün, xış üçün.
Sabahkı barış üçün
Bu gün savaş yeridi.

2002, 30 may

VƏTƏN – QÜRBƏT

Yenə də öz yerindədi
cığır, çəhlim, gədik, yamac.
Yenə də öz yerindədi
binə, yataq, örüş, arxac.
Yenə də öz yerindədi
əlvan meşə, məğrur ağac.
Bircə mənəm öz
kökündən qopub uzaqlara düşən.
Ət dırnaqdan, kök budaqdan,
baş papaqdan ayrı düşür.
Köz ocaqdan, su bulaqdan,
daş torpaqdan ayrı düşür.
Əl pərdədən, barmaq simdən,
qol çanaqdan ayrı düşür.
Qan damardan, nəfəs candan,
söz dodaqdan ayrı düşür.
Necə dözür ürəyinə
həsrət adlı yara düşən?
Baş yastığa gələn günü
dil deməyə sonası yox,
Haray çəkib ana desə,
"gəldim" – deyən anası yox.
Külək əssə uçasıdı,
özülü yox, binası yox.
Təsəllini nədə tapır,
qürbət eldə dara düşən?!

2002, 28 iyun

HEYİF SƏNƏ,
GÖZƏL DÜNYA

Sənə lap yazığım gəlir,
Heyif sənə, gözəl dünya.
Dərdin yığın-yığın gəlir,
Heyif sənə, gözəl dünya.

Belə deyildin əzəldən,
Gözəl idin hər gözəldən.
Ölüb dünyanı düzəldən,
Heyif sənə, gözəl dünya.

Fırlatdılar, hərlətdilər,
Yorta-yorta çərlətdilər.
Çirkab atıb kirlətdilər,
Heyif sənə, gözəl dünya.

Pis yaxşını ram eylədi,
Halalı haram eylədi.
Çirkinlər bayram eylədi,
Heyif sənə, gözəl dünya.

AÇMIR ÜRƏYİMİ AÇILAN SƏHƏR

Mənim yanağımda gördüyün çapıq,
Gözümdən tökülən yaş yarasıdı.
Mənim ürəyimdə duyduğun ağrı
Düşmənin atdığı daş yarasıdı.

Açmır ürəyimi açılan səhər,
"Əcəl köhlənində hazırdı yəhər"[1].
Bu gün içərimi yandıran zəhər,
Nə vaxtsa yediyim aş yarasıdı.

Doldurub ağını, içirib tası,
Kəmfürsət hamıya çəkdirib yası.
Ucalar həmişə baş ucaldası,
Alçaqlar həmişə baş yarasıdı.

2002, 27 yanvar

[1] Misra Məshəti Gəncəvinindir.

LƏNƏT

Hər nemətin bir dadı var,
vara əhsən, heçə lənət!
Tükənməzlik olan yerdə
sona lənət, puça lənət!
Savab varsa, ondan yapış,
elədiyin suça lənət!
İşıq doldur ürəyinə,
çirkab dolan içə lənət!
Bu dünyanın ləzzətini
başa qədər dadan yoxdu,
Yaşamaqçün yüz il varsa,
vaxtsız düşən köçə lənət!

2002, 11 yanvar

MƏN ÖLƏNDƏ

Mən öləndə dünyada
heç nə dəyişməyəcək,
Ölümüm ilahinin
yadına düşməyəcək.
Günəş yenə çıxacaq,
əvvəl çıxdığı kimi,
Sular yenə axacaq,
əvvəl axdığı kimi.
Ay yenə öz yerində,
Gün yenə öz işində,
Çaylar öz adətində,
sellər öz vərdişində,
Çərxi-fələk yenə də
öz köhnə gərdişində.
Övladlarım üçün də
heç nə dəyişməyibdi,
Yaşayacaqlar ömrü,
qalsalar da atasız,
Gedəcəklər yolları
xatalı, ya xatasız.
Mən öləndə dəyişən
təkcə mən olacağam,
Ətrini çox sevdiyim
bir ovuc qara torpaq,
Rəngini çox sevdiyim
göy çəmən olacağam.
Bilirəm, doğum günüm
yanvar ayına düşdü,
Bilmirəm, ölüm günüm
hansı aya düşəcək.

Tək onu bilirəm ki,
mən dünyadan gedəndə,
Sıx meşələr qoynunda
bir palıd yıxılacaq.
Dağdan dərə dibinə
nəhənglərin nəhəngi
sərt bir qaya düşəcək.
Qanım rəngə dönəcək
qızaran güllər üçün,
Təzə dən göyərəcək
təzə sünbüllər üçün.
Məzarımın torpağı
qapqara şum olacaq,
Gedən cismim olsa da,
qalan ruhum olacaq!

2002, 11 sentyabr

AĞLADIM

Baxdım insanlarına
mən bu qoca dünyanın,
Gülüşü canlar alan
qız görəndə sevindim.
Sular sonası kimi
sayrışanda gözəllər,
Qızların duruşunda
naz görəndə sevindim.

Baxdım insanlarına
mən bu qoca dünyanın,
Qocasına kövrəldim,
qarısına ağladım.
Baxdım insan oğlunun
bağına, bağçasına,
Yaşılına sevindim,
sarısına ağladım.

Baxdım insanlarına
mən bu qoca dünyanın,
Həsrətinə göynədim,
yarasına ağladım.
Yaxşıları, pisləri
yarı böldüm ortadan,
Yarısına sevindim,
yarısına ağladım.

2001, 28 sentyabr

ÇƏKƏR

Uyumaq istədim, gəlmədi yuxum,
Yatmağım xoruzun banına çəkər.
Axşamdan getdisə, gəlməz rahatlıq,
Vaxtın səhərinə, danına çəkər.

Yuxu məndən qaçar bir nazlı qıztək,
Solar duyğularım solğun payıztək.
Bu qara gecələr qara kağıztək,
Məni qətrə-qətrə canına çəkər.

Döndərər dövrü də, çarxı da ölüm,
Ölümdə qorxu var, qorxuda ölüm.
Hər dəfə gələndə yuxuda ölüm,
Ruhumu bir qəbrin yanına çəkər.

2001, 23 sentyabr

AĞLADI

Çiyində bir tabut getdi,
Tabutda bir sükut getdi.
Sükutda bir umut getdi,
Karvanım, köçüm ağladı.

Su batdı, arxım yasdadı,
Çevrilən çarxım yasdadı,
Yeddimlə, qırxım yasdadı,
Ağladı, üçüm ağladı.

Dözəmmədi haqq-hesaba,
Varlığım döndü əzaba.
Əli çatmadı savaba,
Günahım, suçum ağladı.

Ahımdan dağ-daş qaynadı,
Ayaq yandı, baş qaynadı,
Gözlərimdə yaş qaynadı,
Başımda saçım ağladı.

2001, 27 aprel

BİR QƏRİBƏ YİYƏ DURDUM

Dərd əlindən Füzulitək,
Neçə yol dağa çıxmışam.
Bəlkə, bir az yüngülləşəm,
Göy bir yaylağa çıxmışam.

Vaxt keçib, vədə çalxanıb,
Yaxşıya, badə çalxanıb.
Ömrüm nehrədə çalxanıb,
Dərd olub, yağa çıxmışam.

Niyə getdim, niyə durdum,
Baxdım yerə, göyə, durdum.
Bir qəribə yiyə durdum,
Beş arşın ağa çıxmışam.

Gəldim, günü qara gəldim,
Yaşamaqdan zara gəldim.
Hardan getdim, hara gəldim,
Gördüm, torpağa çıxmışam.

2001, 16 aprel

SÜPÜRGƏÇİ

Qoy külək dayansın, ay süpürgəçi,
Süpürmə, zəhmətin yelə gedəcək.
Bakının bu dəli küləklərinə
Nə ağıl öyrətsən, belə gedəcək.

Dolur gözlərinə, kirpiklərinə,
Çirkabı qaytarır, kiri qaytarır.
Güləşə çıxmısan yellə, küləklə,
Nəyi atırsansa, geri qaytarır.

Zibillik də çoxdu, zibillər də çox,
Sənsə süpürgənlə təksən ki, təksən.
O qədər zibil var yerin canında,
Sən Allah olsan da, neyləyəcəksən?

2001, 2 aprel

DARIXMAQ

Bağım yoxdu bağdan ötrü darıxam,
Dağım yoxdu dağdan ötrü darıxam.
Qohum yoxdu yollarına göz dikəm,
Gəlib-gedən sağdan ötrü darıxam.
Son əlacım bircə ona qalır ki,
Boyum qədər qəbir yeri axtaram,
Kəfən üçün ağdan ötrü darıxam.

2001, 2 aprel

BƏDBƏXT ADAM

Yaxşı tanıyıram bu bədbəxti mən,
Yazıq haçan güldü, haçan sevindi?
Nə bircə qapını açdı sevinclə,
Nə də qapısını açan sevindi.

Gördü sifətini, gülən ağladı,
Paylaşıb dərdini bilən ağladı,
Kövrəlib, yanına gələn ağladı,
Baş alıb yanından qaçan sevindi.

Himindən yıxıldı, dəhnəsi getdi,
Təzəsi dağıldı, köhnəsi getdi.
Ondan ilanın da zəhləsi getdi,
Sürünən ayrıldı, uçan sevindi.

2001, 2 aprel

QƏBİRQAZAN

Necə də həvəslə girişib işə,
Elə bil ev tikib saray ucaldır.
Onun nə günahı, neyləsin, Allah –
Bütün komalardan, kaşanələrdən
Ah-nalə qarışıq haray ucaldır.

İşi yaxşı gedir qəbirqazanın,
Ayağı yeriyir, əli gətirir.
Dirilər üzüldü qəm daşımaqdan,
Hər gün qəbiristana ölü gətirir.

Ölü adiləşir onun gözündə,
Allah bəndəsidir, kim olur olsun.
Ya səsi içində batan bir nəfər,
Ya haqqın səsidir, kim olur olsun.

Ölüb gedənləri insan oğlu yox,
Dəyirman ağzından çıxan ah bilir.
Daş harda, qum harda, kərpic hardadı,
Hər şeyin yerini əzbərdən bilir.

Alın yazısını tanrıdır yazan,
İşin daşdan çıxır, dəmirdən çıxır.
Qaz bu qəbirləri, ay qəbirqazan,
Sənin də çörəyin qəbirdən çıxır...

2001, 2 aprel

ZƏLZƏLƏ

Yer niyə titrədi ayaqlar altda?
Bəlkə, günahımız titrədir yeri.
Hər ölüb gedənlə torpaq altına
Gömülən ahımız titrədir yeri.

Dəqiqə nə gərək, saat nə gərək,
Bir neçə saniyə onun bəsidi.
Allahlıq eşqinə düşənlər üçün
Allahın insana işarəsidi.

Cilovu çəkilməz, ovsuna yatmaz,
Yoxluğa çevirər bütün varlığı.
Heyif ki, insanı dəyişə bilmir,
Allahın bu qədər xəbərdarlığı.

2000, 6 dekabr

ÖLÜM

Məni öldürəmməz düşmən gülləsi,
İşvəsiylə, qəmzəsiylə, nazıyla,
Öldürsə, məni bu çiçəklər öldürəcək.

Pələngin nərəsi qorxuda bilməz,
Zərifliyi, yumşaqlığı, paklığıyla
Öldürsə, məni kəpənəklər öldürəcək.

Əzrayılın mənlə bağlı işi yoxdu,
Süzüb keçən, yanıq verən baxışıyla
Öldürsə, məni bu mələklər öldürəcək.

Bu gün sağam, ölüm mənə bata bilmir,
Hakimliyin, məhkumluğun əllәriylə
Öldürsə, məni
Mənsiz olan gələcəklər öldürəcək.

2000, 5 dekabr

AÇILIR

Mənim qapım axşam kədər, sabah qəm,
Gah ağrıya, gah əlaca açılır.
Kim qapını necə açır, bilmirəm,
Mənim qapım ehtiyaca açılır.

Ehtiyacdı hər addımı, pilləsi,
Yanağımda zamanın sərt şilləsi.
Ürəyimə dəyir dərdin gülləsi,
Kürəyimdə qanlı baca açılır.

Sınıq könül səxavətlə tapılar,
Paysıza da pay aparan tapılar.
Gözlərimdə Kəbələşir qapılar,
Nə zaman ki, toxdan aca açılır.

Ümid ölür xeyir şərə dönəndə,
Könül gülür yanaq zərə dönəndə.
İnsan oğlu peyğəmbərə dönəndə,
Yol cənnətə, yol meraca açılır.

2000, 3 dekabr

BU DÜNYADAN GETDİYİM GÜN

Öləndə də əl üzmərəm dünyadan,
Məndən qalan bir səs, bir ün olaydı.
Hansı yurda toxunsaydı ayağım,
Orda coşan bir toy-düyün olaydı.

Şirin həyat ömrə-günə dad verir,
Dərdi verən, gör, bir neçə qat verir.
Vuruşlarda yeddi yerdən çat verir,
Könül bütöv, ürək bütün olaydı.

Nur içində açılaydı hər sabah,
Dan yerində yuyulaydı suç, günah.
Bu dünyadan getdiyim gün, ay Allah,
Bu dünyaya gəldiyim gün olaydı.

2000, 14 oktyabr

YORULDU

Həqiqəti gəzə-gəzə yaşadı,
Haqq görmədi, haqdan yazan yoruldu.
Səsi gedib Yaradana çatmadı,
Çiçək ömrü oldu xəzan, yoruldu.

Allahındı hər daş-divar, hər kaha,
Qurban gəldik Allah quran dərgaha.
Yarımadıq, çox yalvardıq Allaha,
Yerdə məscid, göydə əzan yoruldu.

Boynumuzda yerin-göyün minnəti,
Başımızda bədxahların töhməti.
Yuxularda gördük ancaq cənnəti,
Danışmaqdan yuxu yozan yoruldu.

Yatanlara necə deyim qalx, ayıl,
Ölümlərə meydan oxu, say, sayıl.
Gor eşməkdən yorulmadı Əzrayıl,
Yer eşməkdən qəbirqazan yoruldu.

2000, 27 sentyabr

ÇƏKİLMƏZ

Yaz günündə xəzəl olmuş
Bağların dərdi çəkilməz.
Çiçək vaxtı şaxta vurmuş,
Tağların dərdi çəkilməz.

Kim nə bilsin nədən getdi,
Nəfəs çıxdı, bədən getdi.
Ölən öldü, gedən getdi,
Sağların dərdi çəkilməz.

İstər ağla, istərsə gül,
Hər ocağın axırı kül.
Təpələrin işi yüngül,
Dağların dərdi çəkilməz.

2000, 24 sentyabr

YÜK

Mənim dərdim nə dəvənin,
Nə də bir quşun yüküdü.
İçimdəki qəm səngəri,
El yükü, qoşun yüküdü.

Xəstə ölür, sağa nə var,
Mən nə çəkdim, dağa nə var.
Ağılsız olmağa nə var,
Yük ağlın, huşun yüküdü.

Deyən çox-çox əzəl deyib,
Gül ömrünə xəzəl deyib.
Ellər məndən gözəl deyib:
Yüküm qurğuşun yüküdü.

2000, 29 sentyabr

DAYANIB

Hər xeyrin qarşısında
Bəd əməl, bəd iş dayanıb.
Bağrımızı deşmək üçün
Qızardılmış şiş dayanıb.

Göy yerə qovuşa bilmir,
Can atır, yovuşa bilmir.
Xatadan sovuşa bilmir,
Qayalar diş-diş dayanıb.

Yara ağırdı, bitişməz,
Bu qada candan ötüşməz.
Əsli Kərəmə yetişməz,
Arada keşiş dayanıb.

2000, 17 sentyabr

DEDİ

Kim sındırıb könlümü,
Qəlbə dəyən daş dedi.
Nədən yanır ürəyim,
Gözümdəki yaş dedi.

Od yandırdı zəmini,
Su batırdı gəmini.
Bir dünyanın qəmini,
Bir çatılan qaş dedi.

Duman gəlir, çən gəlir,
Dərdə yol açan gəlir.
Qocalıq haçan gəlir,
Candakı tələş dedi.

Bilirəm xislətini,
Budur işin çətini.
Düşmənin niyyətini
Zəhərlənmiş aş dedi.

Yerdə kim, zirvədə kim,
Ürəklərdə zədə kim.
Dədə kimdi, gədə kim,
Barışla savaş dedi.

2000, 25 avqust

RAHAT ÖLƏSƏN

Yazıq o insanın taleyinə ki,
Dostu üz döndərə, yar xain çıxa.
İlan başı kimi qalxa xəyanət,
Hər daşın altından bir xain çıxa.

Ömrü ömürlərə nurtək böləsən,
Baxanlar görə ki, nursan, şöləsən.
Ölüb-gedəndə də rahat öləsən,
Ruh candan çıxanda arxayın çıxa.

2000, 23 avqust

OVQAT

Açılıb içimdə dərin bir dərə,
Uçurum, sıldırım ağlı çaşdırır.
Ahım tüstü kimi qalxır göylərə,
Dərd məni ölümə yaxınlaşdırır.

2001, 19 mart

QƏBİR ÜSTƏ QALAN TORPAQ

Qəbir üstə səpələnən torpağa
Gül əkilir, bar ağacı əkilmir.
Bu da elə ömür-gündü, yaşamdı,
Ya küknardı, ya qovaqdı, ya şamdı,
Qəbir üstə topalanan torpağa
Təbiətin hər ağacı əkilmir.

Hər zərrəsi göz yaşıyla sulanır,
Burda torpaq axar suyla sulanmır.
Gecə-gündüz bu torpağın başına
Qəm dolanır, sevinc, şadlıq dolanmır.

Qəbir üstə qalan torpaq od tutar,
Toza dönər, xırdalanar, qumlanar.
Anaların gözləriylə öpülər,
Anaların dizləriylə şumlanar.

Qəbir üstə qalan torpaq göz dağı,
Qəbiristanlıq qəm yurdu, dərd ölkəsi.
Bir əbədi heykəlidi həsrətin,
Başı üstə başdaşımın kölgəsi!

2000, 20 avqust

QOCALIQ

İllər keçdi, körpələrin,
Körpəlikdən əli çıxdı.
Vaxt dolandı, gənclik adlı
Meydana bir dəli çıxdı.

Sevincdən qalmadı nişan,
Sərnidi qaynayıb-daşan.
Yaxamızdan bərk yapışan
Ölüm adlı zəli çıxdı.

Görən gözmüş, vuran əlmiş,
Nərəsi dağları dəlmiş.
Gəncliyimiz nə gözəlmiş,
Qocalıq gülməli çıxdı.

2000, 5 sentyabr

ÇƏKİR

Vaxt bir ömrü imtahana
Gör bir neçə dəfə çəkir.
Gah bizi şərəfsizliyə,
Gah da ki, şərəfə çəkir.

Gözdə eynək, əldə əsa,
Ürək batır hisə, pasa.
Yas məclisi dartır yasa,
Toy məclisi kefə çəkir.

Suda qaralan kömürdü,
Odda alışan dəmirdi.
Olan-qalan bir ömürdü,
Hərə bir tərəfə çəkir.

2000, 2 sentyabr

DƏYİRMAN

Üyüdə-üyüdə yol gedir elə,
Təkcə dən üyütmür dən dəyirmanı.
İnsafı, imanı yedi, tükətdi,
İnsaf dəyirmanı, din dəyirmanı.

Ömrü dərdə verdi, azara verdi,
Bir gedib qayıtmaz güzara verdi.
Beşikdən götürdü məzara verdi,
Nə canlar üyütdü can dəyirmanı.

Qalxan qasırğalar cana yağıdı,
Əlinə nə keçsə vurur, dağıdır.
Dünya başdan-başa qan çanağıdı,
Dünya başdan-başa qan dəyirmanı.

2000, 24 aprel
Ankara

GÖRƏSƏN

Bu payız yağışıdı, bu həftəlik yağışdı,
Başladısa, deyəsən, kəsməyi gec olacaq.
Göynədər ruhumuzu payızın ağrıları,
Nəmli buludlar altda yaşamaq güc olacaq.
Gəncliyin nə vecinə bahardı, yoxsa, qışdı,
Görəsən, qocaların taleyi nə olacaq...

2000, 1 may

QORXULU

Əlli yaşı bələnlərdən aşırdım,
Altmışa gedən yolum qorxulu.
Hansı əldən yapışacaq əllərim?
Bir az əlim, bir az qolum qorxulu.

Canımızda min ağrı var, azar var,
Neçə-neçə öz canından bezar var.
Hara getsək, qarşımızda məzar var,
Önüm, arxam, sağım, solum qorxulu.

Fəryadıma göydən ensin mələklər,
Taleyimə ağı desin küləklər.
Çeşmə kimi qaynamasa diləklər,
Göz yaşıyla dolan gölüm qorxulu.

Nə getməyə həvəsi var insanın,
Nə qalmağa nəfəsi var insanın.
Qəbir adlı qəfəsi var insanın,
Bir az həyat, bir az ölüm qorxulu.

2000, 27 mart

SUAL

Gecə nə uzun olub,
nə yaman çox yatmışıq.
Çox yatmaq bəlasını
tərk etmək mümkündürmü?
Qılınc çəkib, at minib,
torpaq alıb, iş görüb,
Qaniçən düşmənlərə
görk etmək mümkündürmü?

Vətən nə, millət nədir,
yurd nədir, torpaq nədir,
Od nədir, ocaq nədir,
qönçə nə, yarpaq nədir?
İgid nədir, qazi nə,
şəhid nə, bayraq nədir,
Ölmüş ruhu yenidən
tərk etmək mümkündürmü?

Kimdən soraq millətin
haqqını, hesabını?
Niyə bizə veriblər
dünyanın əzabını?
Sualı verən bizik,
kim versin cavabını?
Əvvəl-axır bu dərdi
dərk etmək mümkündürmü?

2000, 28 mart

QORXU

Məni, solmuş talelərin
Saralmış rəngi qorxudur.
Xəbərin qara gələni,
Gecənin zəngi qorxudur.

Allahı yox "allah"ların,
Evlər yıxan silahların,
Məni vəhşi tamahların
Şiri, pələngi qorxudur.

Yavaş-yavaş əyir məni,
Dən-dən udub yeyir məni.
Zamanın tərs dəyirmanı,
Vaxtın ahəngi qorxudur.

2000, 3 mart

SONDA ÖLÜM VAR YENƏ

Beş yaşa, ya on yaşa,
Təbiətlə bəhsə gir.
Min yaşa, milyon yaşa,
Hamıdan əvvəl doğul,
Ya hamıdan son yaşa,
Sonda ölüm var yenə.

İsa kimi göyə çıx,
İsgəndər ol, Teymur ol,
Yer üzünə yiyə çıx.
Tanrıyla söhbət üçün
Musa kimi dağa çıx.
Uzun ömürlülükdə
Hamıdan qabağa çıx.
Qaç qəmlərin əlindən,
Yaşıl bir yaylağa çıx,
Sonda ölüm var yenə.

Sənə bağışlasınlar
Yeri, yurdu, həyatı,
Qollarınla qucaqla
Hüdudsuz Kainatı.
Lap yeddinci göydə də
Kükrəsin eşqin atı,
Təslim olsun əmrinə
Göylərin doqquz qatı,
Sonda ölüm var yenə.

Uzaq olsun Əzrayıl,
Heç kəsdən can almasın.

Fatehlər, sərkərdələr
Qılıncını çalmasın.
Dayandırsın məhşəri,
İsrafil sur çalmasın.
Sevgililər soyuyub,
Sevgilər azalmasın,
Sonda ölüm var yenə.

Ölüm insan önündə
Əyilib beş qat olsa,
Həyatın özü qədər
Uzun bir həyat olsa,
Ölümlə başlanıbsa,
Bu dünyanın əvvəli,
Sonda ölüm var yenə,
Sonda ölüm var yenə.

2000, 29 sentyabr

VARLIĞIMIZ, YOXLUĞUMUZ

Deyirəm, kaş, ömrümüz
Uzun olaydı, uzun.
Şipşirindi yaşamaq,
Qalsaq da pəncəsində
Qarın, çovğunun, buzun.
Bizim varlığımıza
Qiymət verməsələr də,
Yerini çəkəcəklər
Bizim yoxluğumuzun.

2001, 23 mart

MƏN BİLİRƏM

Allah, nədir bu qırhaqır, bu qaçaqaç,
Ağrıyan baş, ağrı çəkən bədən oldu.
İtin, qurdun atasına rəhmət deyin,
İnsan gəldi, insan əti didən oldu.

Lənət ilə möhürlənmiş alın qalıb,
İncəlmədik, qabırğamız qalın qalıb,
Ha qaçırıq, ayağımız yalın qalıb
Din-hərəkət baş götürüb gedən oldu.

Ara vuran, evlər yıxan çuğula bax,
Atasına şillə çəkən oğula bax.
Orda-burda ağlar qalan ağıla bax,
İnsaf döndü qarın oldu, gödən oldu.

Bələnmişik yerin-göyün biz ahına,
Yüz suçuna, taqsırına, yüz ahına.
İnanmayın alimlərin izahına,
Mən bilirəm bu zəlzələ nədən oldu.

Yaradanın acığıydı, hirsiydi bu,
Tərs işlərə, şillələrin tərsiydi bu.
İbrət üçün haqqın bizə dərsiydi bu,
Çox adamın bağrı zədən-zədən oldu.

2000, 7 dekabr

YAZDIM

Bir dərd məni köçür dedi dəftərə,
yaz, kitab eylə,
Min dərdi çəkdim canıma o dərdləri,
qəmləri yazdım.

Talesizlər taleyinə ayna tutdu
qəmgin qələmim,
Baxdım gözdəki yaşlara, kirpikdəki
nəmləri yazdım.

Varlığı, yoxluğa çevirdi zamanın
zəlzələsi,
Vaxtın əlində çırpınan neçə
bəxtikəmləri yazdım.

Kim bir az sevinc gördüsə qaçdı,
uzaqlaşdı kədərdən,
Mənsə mənə həmdərd olan
həmdəmləri yazdım.

Həsrətlə boylandım dərədən
dağlara doğru,
Zilə əllər yetişmədi, götürüb
bəmləri yazdım.

Ömrümə sevincin ömürsüz bir
damlası düşdü,
Zəlimxanı ağlatdı kədər nisgilləri,
matəmləri yazdım.

2000, 2 dekabr

SƏHRA HƏMİN SƏHRADİ

Düdük həmin düdükdü,
Çalanları başqadı.
Eşşək həmin eşşəkdi,
Palanları başqadı.

Kiminə bir fürsətdi,
Kiminə xoş qismətdi,
Rüşvət həmin rüşvətdi,
Alanları başqadı.

Üyüdür narınları,
Yekəldir qarınları.
İndinin harınları,
Kalanları başqadı.

Dərddi, qəmdi, kədərdi,
Dərdi dünya qədərdi.
Şəhər həmin şəhərdi,
Dalanları başqadı.

Tapdaladı haqları,
Bağladı dodaqları.
Vaxtın fırıldaqları,
Yalanları başqadı.

Tez-tez dəyişir adı,
Ancaq dəyişmir dadı.
Səhra həmin səhradı,
İlanları başqadı.

2000, 24 noyabr

QƏZƏB – İŞIQ

Şeytan ürəyinə dolan qəzəblə,
Bu ana torpağın, bu ana yerin,
Altını üstünə çevirmək olar.
İnsan ürəyində yanan işıqla,
Dünyanın nə qədər düşməni varsa,
Dünyanın dostuna çevirmək olar.

2001, 30 mart

NƏ YAXŞI

Nə yaxşı səhər var, açılır sabah,
İşıq qaranlığın alır canını.
Yenidən qaytarır dünyaya,
Allah İnsanın yaşamaq həyəcanını.

Nə yaxşı gənclik var, ruhunda qanad,
Gəlir qocalığın əvəzi kimi.
Gümüş duyğuları dirildir həyat,
Həzrəti-İsanın nəfəsi kimi.

Nə yaxşı ümid var, eşq var, arzu var,
İnsanı həyata hazır saxlayır.
Nə yaxşı qələm var, iti sehrkar,
İtən tarixləri yazır, saxlayır.

Qara tikanlardan alsaq da zərbə,
Nə yaxşı güllər var, al, yaşıl, sarı.
Pislər pisliyindən əl çəkməsə də,
Yaxşılar yaşadır yaxşılıqları.

2001, 10 dekabr

ÜRƏYİM, AY ÜRƏYİM

Fərhad külüngü kimi,
qayaları yarardım,
Gözəllər görüşünə
məni sən aparardın,
Ürəyim, ay ürəyim.

Məni sən aparardın
ən müqəddəs yollara,
Qüvvətini verərdin
gen açılan qollara,
Ürəyim, ay ürəyim.

Çəkilməz qayğılarla
səni yaman yüklədim,
Hər gün sənə od vurub
odunu körüklədim,
Ürəyim, ay ürəyim.

Əlli ildə bir dəfə
nə dincəldin, nə yatdın,
Hər görüşdə, səfərdə
bir tamaşa yaratdın,
Ürəyim, ay ürəyim.

Bu gün əllər uzalı
bircə sağlam can üçün,
Səni mən aparıram
həkimə dərman üçün,
Ürəyim, ay ürəyim.

Bu gün dostun, sirdaşın
göynərtidi, sancıdı,
Göynərtilər narahat
illərin qazancıdı,
Ürəyim, ay ürəyim.

Ölüm olsun ölümüm,
olmasın zülüm kimi,
Yaxşı nə var dünyada
xoşbəxt bir ölüm kimi?
Ürəyim, ay ürəyim.

Sənə olan istəyim
gün kimi təmiz, aydın,
Torpağın altına da
məni sən aparaydın,
Ürəyim, ay ürəyim.

2000, 22 avqust

DÜZ GƏLİB,
DÜZ GEDƏN ADAM

Göyə baxmır ulduz görə,
Yerə baxmır çiçək görə.
Dönüb xalqa baxırmı ki,
Gözü bir ağsaqqal seçə,
Ya da bir ağbirçək görə,
Düz gəlib, düz gedən adam.

Duruş saxta, görüş saxta,
Yeriyir, saxta yeriyir.
Təkəbbürü beş-on addım
Ondan qabaqda yeriyir.
Elə bil ki, adam deyil,
Adamların arasında
Sıyrılmış taxta yeriyir
Düz gəlib, düz gedən adam.

Tökülən yaşa biganə,
Atılan daşa biganə.
Ağrı bilməz, acı bilməz,
Qardaş bilməz, bacı bilməz
Düz gəlib, düz gedən adam.

Əldən tutmaz, ələ gəlməz,
Əli ancaq cibindədi.
Sanki, qəlbi sinədə yox,
Quyuların dibindədi.
Bütün dünya təbdən çıxa,
Yenə də öz təbindədi
Düz gəlib, düz gedən adam.

Nə könlündə bir şairin
Könül açan şeiri qaldı.
Nə gözündə bir rəssamın
Gözoxşayan seyri qaldı.
Zahirdə düz yerisə də,
İçəridən əyri qaldı
Düz gəlib, düz gedən adam.

2002, 23 yanvar

MÜNDƏRİCAT

Şair 5
Bu yaşıl ağacın altı bizimdi 6
Sual-cavab 7
Hakim ol, dilimə güllələnmə kəs 8
Gözəldi 9
Səni sevmək üçün gəldim dünyaya 10
Sevərmiş 11
Dəli olmağıma bir addım qalıb 12
Bir bayatı sənsən, bir bayatı mən 14
Bu axşamı sən gətirdin 15
Bu qız niyə havalanıb, görəsən 16
"Sarıtel" oxuyan qaratel gözəl 18
Bircə məni xatırla 19
Qayıdaq əvvəlki xatirələrə 20
Gəlmişəm, qoynunda sığınacaq ver 22
Gedirəm bir qəlbi sevindirməyə 23
Vətən eşqi 24
Ürəyim köksümü yarıb çıxardı 25
Mən gedincə pəncərəni bağlama 26
Sevəsən 27
Sən gəlməmişdin 28
Döymək olmur pəncərəni 29
Bu qız gəlin olmağa hazırlaşır, deyəsən 30
Elə bil gün düşüb qarın üstünə 31
Söhbət baxışların, söz əllərindi 32
Biz niyə sevməyək bir-birimizi 33
Sevgi 34
Allah səni pənahında saxlasın 35
Xətrinə dəymə 36
Şairin sözünə yalandır demə 37
Ovçu olmaq çətin imiş 38
Xoş gəlib 39
Kərəm yalan oldu, mən gerçək oldum 40
Mən sənin qəlbinə necə yol tapım 41
Bir qız gözlərində günəş doğurdu 43
Salam, yaşıl ağac 44
Mənim bu kölgədə bir xatirəm var 45
Getdi 46

Sevgi yağışlarına tutacağam dünyanı 47
İlahi, min şükür yaratdığına 48
Gizli görüşlərin aşkar sevinci 49
Tapşır baxışlarına 50
Gözlərimi özün qapa 51
Eşitdi 52
Sən bilərsən 53
Zəlimxan dünyaya təzədən gələr 54
Sevgi adlı şaha qurban 55
Gəlmişəm mən sənin ziyarətinə 56
Mənə "xoşgəldin" de, "əlvida" demə 57
Sevmə məni, sən Allahı sevərsən 58
Bir gözəl öldürdü məni 59
Nifrətə çevirmə məhəbbətimi 60
Allah, gözlərə bax 61
Bacarmalısan 62
Çatasıyam 63
Məcnun sevgisi 64
Gözəllik 65
Ana laylası 66
Könlüm 67
Dəyməyin 68
Düşüb 69
Sənə 70
Borc alaram 71
Gözlərin 72
Bir gözələ 73
Gözləyirəm 74
İtirərsən, tapammazsan 75
Getmisən 76
Sənə 77
Gözləməz 78
Gəlin 79
Toxumdayam, torpaqdayam, şumdayam 81
Nağıl kimi gəlir mənə bu dünya 83
Var 85
Tanrım 86
Səninkidir 87
Gecikdirmə 88
Tanrı hədiyyəsi 89
Gəlib 90
Xatirə 91
Bu saz kimi 93